Xalqın qəzeti!

# Xalq qəzeti

№ 14 (30708) 23 yanvar 2025-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Seçki bülletenləri DSK-lərə çatdırılır

Səhifə ⇨ 5

# Azərbaycanın Avropaya enerji nəqli Davos görüşlərində yüksək qiymətləndirilir

*Azərbaycan Prezidenti İlham Əliyevin İsveçrə səfəri*

## Davosda Ukrayna Prezidenti ilə görüş



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb.**

Söhbət zamanı Azərbaycan ilə Ukrayna arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələr, energetika sahəsində əməkdaşlıq və regional təhlükəsizlik məsələləri müzakirə olundu.

# ATƏT-in Minsk qrupunun "dəfn mərasimi" gecikir

*Deyəsən, onu "balzamlamaq" xülyasına düşənlər var*

**Son vaxtlar Cənubi Qafqazda sülh və təhlükəsizlik məsələləri ilə bağlı süni gündəm yaratmaq cəhdləri müşahidə olunmaqdadır. Bu məqsədlə ortaya atılan məsələlərdən biri də ATƏT-in Minsk qrupunun "dirildilməsidir". Əlbəttə ki, bunlar səmərəsiz və vaxtı çoxdan ötmüş cəhdlərdir. Bəs reallıq nədən ibarətdir? Bu qurum tam iflasa uğradı, siyasi cəhətdən çökdü. Yəni ATƏT-in Minsk qrupu özünün qürub çağını yaşamaqdadır.**




Onun "siyasi reanimasiya"dan morqa göndərildiyini beynəlxalq təşkilatlar da təsdiqləyirlər. Təkcə azərbaycanlı ekspertlər deyil, dünyanın tanınmış siyasi şərhçiləri, mötəbər araşdırma mərkəzləri də "ATƏT-in Minsk qrupu faktiki yoxdur", "Minsk qrupu dəfn olundu" rəyi ilə razılaşırlar. Əslində, o, "süni mayalanma" yolu ilə həm də ölü doğulmuş bir təşkilat idi.

Ermənistan rəhbərliyi Bakının tarixin arxivinə göndərdiyi Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün 1992-ci ildə yaradılmış Minsk qrupunun buraxılması ilə bağlı ATƏT-ə birgə müraciət göndərilməsi tələbi ilə razılaşıb. Erməni mediasının verdiyi məlumata görə, bir neçə gün bundan əvvəl baş nazir Nikol Paşinyan rəsmi İrəvanın bu addımı atmağa hazır olduğunu bildirib. Bu zaman Ermənistan hökumətinin başçısı vurğulayıb ki, münaqişə başa çatıb, ona görə də artıq onun həlli üçün yaradılmış beynəlxalq formatın mövcudluğuna ehtiyac yoxdur.

(ardı 4-cü səhifədə)

## Xəritə qalmaqalı və Ermənistandakı faşizm



Səhifə ⇨ 3

## Amerika–Azərbaycan əlaqələri strateji səviyyəyə qalxa bilər



Səhifə ⇨ 4

## İqtisadi islahatlar və sosial cəmiyyətin dayanıqlı inkişafı



**Ölkədə həyata keçirilən uğurlu islahatlar nəticəsində ötən il iqtisadiyyatın neftdən asılılığı minimuma endirilib və sahibkarlığın inkişafını şərtləndirən rəqabətqabiliyyətli milli iqtisadiyyatda yeni mərhələnin əsası qoyulub.**

Biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət tənzimləməsi, o cümlədən inzibati qayda və prosedurların təkmilləşdirilməsi kimi məsələlər də diqqətdə saxlanılıb. Bütün bunların nəticəsində hesabat dövründə iqtisadi sektorda yüksək göstəricilər əldə olunub. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ildə ölkədə 126,3 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 4,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Bu dövrdə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər istehsalı 0,3 faiz, qeyri neft-qaz sektorunda isə 6,2 faiz yüksəlib.

(ardı 7-ci səhifədə)

## Gəmilərimiz ölkəmizdə təmir edilir



Səhifə ⇨ 7

## Gürcüstan ABŞ ilə münasibətləri bərpa etməkdə maraqlıdır



Səhifə ⇨ 9

## Gəncə Dövlət Universiteti dünənki ali məktəb deyil



Səhifə ⇨ 8

# Prezident İlham Əliyevin ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri Conni Mur ilə görüşüb.**

Söhbət zamanı Azərbaycanda dini azadlıqların təmin olunduğu, müxtəlif xalqların və dinlərin nümayəndələrinin ölkəmizdə tarixən sülh, əmin-amanlıq və harmoniya şəraitində yaşamaları məmnunluqla vurğulandı.

Görüşdə Azərbaycan–ABŞ əlaqələrinin Tramp dönəmində müsbət perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı bildirdi ki, Bayden–Blinken administrasiyası dövründə ABŞ tərəfindən Azərbaycana qarşı qərəzli münasibət göstərilib və bunun da nəticəsində ikitərəfli əlaqələrimiz böhrana sürüklənib. Prezident İlham Əliyev 907-ci düzəlişin yenidən bərpasını məhz elə Bayden–Blinken administrasiyasının nankorluğunun təzahürü kimi dəyərləndirdi.

Söhbət zamanı Azərbaycan ilə Tramp administrasiyası arasında gələcək əlaqələr məsələsi müzakirə olundu.

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Keçən il dekabrın 25-də Azərbaycana məxsus təyyarənin qəzaya uğraması nəticəsində insanların faciəli şəkildə həyatını itirməsi ilə əlaqədar Qambiya Hökuməti və xalqı adından, şəxsən öz adımdan Azərbaycan Hökumətinə və xalqına dərin hüznlə başsağlığı verirəm.

Düşüncələrimiz və dualarımız həlak olanların ailələri ilə və bu faciə nəticəsində zərər çəkmiş insanlarladır. Bu çətin anlarda Qambiya Hökumətinin mənəvi dəstəyi sizinlədir.

Həyatını itirənlərin ruhları şad olsun. Sizə bu ağrı-acılı günlərdə səbir diləyirəm.

***Adı a BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

# Baş nazirin Türkiyə səfiri ilə görüşü



**Yanvarın 22-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdəki fəaliyyət müddətinin bitməsi ilə əlaqədar Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Əli Əsədov iki ölkə arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə səfirə təşəkkür edib.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin yüksək səviyyəsi təqdir edilib, iqtisadi əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

**XQ**

# Davosda AYİB ilə yeni kredit sazişi imzalanıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odile Reno-Basso ilə görüşüb.**

Odile Reno-Basso Azərbaycan Prezidentini COP29-un uğurla keçirilməsi münasibətilə təbrik etdi, bu tədbirdə əldə olunmuş nəticələri yüksək qiymətləndirdiklərini vurğuladı.

O, ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında həyata keçirilən bir sıra layihələrə toxunaraq, bu xüsusda Gəncə şəhərinin su təsərrüfatı ilə bağlı layihənin icra olunmasının Bank tərəfindən maliyyələşdirilməsinə razılığın verildiyini bildirdi.

Odile Reno-Basso ölkəmizin bank sektoru ilə həyata keçirilən layihələrin, o cümlədən kiçik və orta sahibkarlığın, qadın sahibkarlığının və dayanıqlı inkişaf layihələrinin dəstəklənməsi üçün ayrılan kredit xətləri barədə məlumat verdi.

Ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan vacib layihələrdən danışan Prezident İlham Əliyev su təsərrüfatı, nəqliyyat, Bakı şəhərinin inkişafı istiqamətlərində icra olunan işləri qeyd etdi.

Söhbət zamanı Avropaya yaşıl enerjinin ixracı, bununla bağlı həm Gürcüstanla, həm də Mərkəzi Asiya ölkələri ilə regional əməkdaşlıq layihələri və imkanları barədə müzakirələr aparıldı.

Sonra imzalanma mərasimi oldu.

Azərbaycan Respublikası ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında “Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi”ni iqtisadiyyat naziri Mikayıl Cabbarov və Bankın birinci vitse-prezidenti Yurqen Riqterink imzaladılar.

# Milli Məclisin Sədri İtaliyada

**Milli Məclisin Sədri Sahibə Qafarova İtaliyaya rəsmi səfəri çərçivəsində İtaliya Senatının Avropa İttifaqı siyasəti komissiyasının və İtaliya–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri ilə görüşüb.**



Görüşdə senator Culio Terzi bu səfərin ikitərəfli əlaqələrin inkişafına öz töhfəsini verəcəyinə əminliyini bildirib. O, 20 Yanvar faciəsinin 35-ci ildönümü və 2024-cü il dekabrın 25-də baş vermiş təyyarə qəzası ilə əlaqədar bir daha Milli Məclisin sədrinə başsağlığı verib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan–İtaliya əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. Söhbət zamanı qeyd olunub ki, qarşılıqlı səfərlər əlaqələrin daha da inkişafına mühüm töhfələr verir. Bu baxımdan, Prezident İlham Əliyevin İtaliyaya səfərləri, o cümlədən ötən ilin sentyabr ayında baş tutmuş səfəri, həmçinin İtaliya Prezidentinin ölkəmizə səfəri ikitərəfli əlaqələrimizin daha da genişlənməsində və dərinləşməsində mühüm rol oynayıb.

Söhbət zamanı Azərbaycan və İtaliya arasında bir çox sahələrdə uğurlu əməkdaşlığın mövcud olduğu qeyd edilib, iqtisadi sahədə əməkdaşlıq, o cümlədən nəqliyyat, enerji məsələləri ilə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər arasında humanitar sahədə də əlaqələrin müsbət inkişafı, xüsusilə Heydər Əliyev Fondunun İtaliyada həyata keçirdiyi layihələrin önəmi vurğulanıb, həmçinin Azərbaycan–İtaliya Universitetinin fəaliyyəti qeyd edilib.

İtaliya tərəfi COP29-un yüksək səviyyədə təşkilinə və keçirilməsinə görə Azərbaycana, xüsusilə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edib.

Söhbət zamanı iki ölkənin parlamentləri arasında münasibətlərin inkişafında dostluq qruplarının rolundan da danışılıb.

***

Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Romada yerləşən Azərbaycan səfirliyini ziyarət edib. O, binada yaradılan şəraitlə və səfirliyin tabeliyindəki Azərbaycan Mədəniyyət Mərkəzi ilə tanış olub.

***

Milli Məclisin Sədri Sahibə Qafarova İtaliya Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Deputatlar Palatasının sədri Lorenzo Fontana ilə görüşüb.

Görüşdə ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

**XQ**

# Azərbaycan Prezidentinin Xorvatiya Baş naziri ilə enerji əməkdaşlığı müzakirəsi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda qarşı tərəfin müraciəti əsasında Xorvatiya Respublikasının Baş naziri Andrey Plenkoviç ilə görüşüb.**

Andrey Plenkoviç COP29-un uğurla keçirilməsi münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı.

Prezident İlham Əliyev Xorvatiyanın Baş nazirinin COP29-da iştirakına görə təşəkkürünü bildirdi. Söhbət zamanı COP29 çərçivəsində qlobal iqlim gündəliyinin irəli aparılması üçün çox mühüm qərarların qəbul edildiyi vurğulandı.

Azərbaycan Prezidenti və Xorvatiyanın Baş naziri ölkələrimiz arasında münasibətlərin mövcud səviyyəsini yüksək qiymətləndirdilər, xüsusilə enerji sahəsində olan əməkdaşlığı qeyd etdilər.

Azərbaycanın bu gün Xorvatiyanın enerji təhlükəsizliyində oynadığı rol, ölkəmizdən Xorvatiyaya neft və qaz ixracı xüsusilə vurğulandı, həmçinin qaz ixracının həcminin artırılması perspektivləri müzakirə olundu.

Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan bu gün 10 Avropa ölkəsinə qaz ixrac edir ki, onlardan da səkkizi Avropa İttifaqına üzv ölkələrdir. Vurğulandı ki, Azərbaycan Avropa İttifaqı tərəfindən pan-Avropa enerji təchizatçısı kimi qiymətləndirilib.

Görüşdə ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi və Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri məsələsinə dair fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın rolu qeyd olundu.

Xorvatiya Baş naziri dövlətimizin başçısını ölkəsinə rəsmi səfərə dəvət etdi.

**AZƏRTAC**

# Xarici işlər nazirinin telefon danışıqları

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Türkiyənin xarici işlər naziri Hakan Fidana zəng vurub.**

Ceyhun Bayramov Bolu vilayətinin Kartalkaya dağ-xizək kurortunda mehmanxanada baş vermiş faciəvi yanğın ilə əlaqədar həmkarına başsağlığı verib. Vəfat edən şəxslərə Allahdan rəhmət, doğmalarına səbir, yaralılara şəfa arzulayıb.

Azərbaycanın qardaş Türkiyə ilə bu çətin günlərdə həmrəy olduğu, kədərini bölüşdüyü diqqətə çatdırılıb, bir daha belə bir faciənin baş verməməsinə ümidvarlıq ifadə edilib. Ölkəmizin istənilən yardıma hazır olduğu diqqətə çatdırılıb.

Nazir Hakan Fidan başsağlığına, bu ağır gündə göstərilən dəstəyə görə təşəkkür edib.

***

**Həmin gün Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə dövlət katibi Devid Ləmmi arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq gündəliyinin perspektivləri, habelə mövcud regional vəziyyət, Azərbaycan və Ermənistan arasında normallaşma və sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Britaniya naziri əvvəlcə 20 Yanvar faciəsi və dekabrın 25-də Bakı–Qroznı reysi ilə uçuş həyata keçirmiş təyyarəmizin faciəvi şəkildə qəzaya uğraması ilə bağlı bir daha başsağlığını bildirib. Britaniyanın faciənin səbəblərinin araşdırılması və təhqiqat prosesində hər zaman dəstək verməyə hazır olduğunu deyib. Ceyhun Bayramov başsağlığına və göstərilən həmrəyliyə görə təşəkkür edib, təyyarə qəzasının səbəblərinin araşdırılması üzrə görülən işlər barədə məlumat verib.

Azərbaycanla Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında qarşılıqlı səfərlərin və siyasi dialoqun intensivləşdirilməsinin, iki ölkə arasında tərəfdaşlıq əlaqələrinin daha da dərinləşdirilməsinin əhəmiyyəti qeyd olunub.

Ölkəmizi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) uğurlu ev sahibliyi münasibətilə təbrik edən Britaniya naziri iqlim dəyişikliyi ilə mübarizə sahəsində birgə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Nazir bölgədəki mövcud vəziyyət və sülh prosesi barədə məlumat verərək, sülh sazişi və delimitasiya üzrə əhəmiyyətli irəliləyişə baxmayaraq, Ermənistan konstitusiyasında davam edən ərazi iddialarının prosesə əsas maneçilik törədən səbəb olduğunu diqqətə çatdırıb.

**XQ**

# Xəritə qalmaqalı və Ermənistandakı faşizm

## *Azərbaycanın sülh şərtinin haqlı olduğu bir daha sübuta yetir*

**Məlum olduğu kimi, Azərbaycan Ermənistanla sülh üçün iki şərt irəli sürüb. Onlardan biri ATƏT-in artıq canını tapşırmış olan Minsk qrupunun rəsmi şəkildə ləğvi üçün Bakı və İrəvanın müştərək müvafiq müraciət ünvanlamasıdır, digəri isə Ermənistan konstitusiyasının dəyişdirilməsi. Bəri başdan deyək ki, yazımız ikinci şərtlə bağlıdır.**



O da məlumdur ki, Ermənistan konstitusiyası ölkənin 1991-ci ildə qəbul olunmuş İstiqlaliyyət Bəyannaməsinə istinad edir. Bəyannamədə Azərbaycana və Türkiyəyə ərazi iddiası yer alır. Baş nazir Nikol Paşinyan administrasiyası bildirir ki, ötən ilin sentyabrında Ermənistan Konstitusiya Məhkəməsi sözügedən bəyannamənin əsas qanunda yer almayan hissələrinin etibarsızlığına dair qərar çıxarıb. Yəni erməni iqtidarı açıq bildirməsə də, belə görüntü yaradır ki, həmin qərar Azərbaycanın şərtinin yerinə yetirilməsidir və konstitusiya dəyişikliyinə ehtiyac yoxdur.

Ölkəmiz məsələnin bu qoyuluşu ilə razı deyil. Əvvəla, Ermənistanın konstitusiyasının İstiqlaliyyət Bəyannaməsinə istinad kazusu bir qərarla aradan qalxa bilməz. Digər tərəfdən, bəyannamədə yer alan müddəalar erməni əsas qanunu ilə iç-içə təbiətə malikdir. Yəni birinci olmasa, ikinci heç nədir. Özü də söhbət təkcə ərazi iddiasından daşınmaq məsələsindən getmir. Belə də sual yaranır: Bir halda ki, Ermənistan Konstitusiya Məhkəməsi bir qərarla hər şeyi dəyişirsə, İstiqlaliyyət Bəyannaməsinə nə ehtiyac var? Əlbəttə, suallar çoxdur və onların fonunda hansı təminat var ki, sonradan məhkəmə qərarını mübahisələndirənlər tapılmayacaq. Yeri gəlmişkən, yazımızda belələrindən birinin çıxardığı oyuna nəzər salacaq və Azərbaycanın tələbinin son dərəcə haqlı olduğunu bir daha sübuta yetirəcəyik.

***

Əlqərəz, bir neçə gün əvvəl Ermənistanın eks-prezidenti Serj Sarkisyana bağlı olan deputat Anna Mkrtçyan Ermənistan parlamentində keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti və Azərbaycanın otuz ilə yaxın işğalda qalmış yeddi rayonunun Ermənistanın tərkibində göstərilən xəritəsini nümayiş etdirib. Erməni parlamentari, eyni zamanda, bildirib: "Erməni xalqının ağrısını, bizim kollektiv faciəmizi dəmir qırıntısına çevirib parlamentin divarından asıblar (söhbət sovet Ermənistanın xəritəsinin Ermənistan parlametinə vurulmasından gedir – red.). Bizi daha da aşağılamaq, alçaltmaq istəyirlər. Bu, qəddar ironiyadır, çünki bu xəritəni nümayiş etdirmək vəzifəsi illər əvvəl Ağdamı vətəni elan edən, özünü "Ağdamlı Alen" (spiker Alen Simonyan nəzərdə tutulur – red.) adlandıran və heç vaxt "Artsax"ın bir santimetrini belə təslim etməyəcəyinə söz verən birinə həvalə olunub. İndi bu xəritə deyilən şeydən (Ermənistan parlamentinin divarına vurulmuş xəritə nəzərdə tutulur – red.) təkcə Ağdamı yox, vətənimizin yarısını siliblər".

O da məlumdur ki, A.Mkrtçyanın sentimental populizmə hesablanmış faşist davranışından sonra zala daxil olan dövlət mühafizə xidmətinin əməkdaşı deputatın hamının gördüyü yerə yapışdırdığı mənfur xəritəni qoparıb. Sessiyaya sədrlik edən parlament sədrinin müavini Ruben Rubinyan isə Sarkisyanın deputatının Ermənistan xəritəsini "metal qırıntısı" adlandırmasını təhqir adlandırıb və deyib: "Məncə, bu xəritəni "metal qırıntısı" kimi təqdim etmək Ermənistan Respublikasına açıq-aşkar təhqirdir. Xanım Mkrtçyan Dağlıq Qarabağı və yeddi ətraf rayonu mavi rənglə birləşdirən xəritəni təqdim etdi və bildirdi ki, bu, satqın hakimiyyətin təslim etdiyi vətənimizdir. Xanım Mkrtçyan, sizin siyasi lideriniz 10 il prezident olub. Bu o deməkdirmi ki, o, vətəni təslim etmək üçün danışıqlar aparırdı? Serj Sarkisyan açıq şəkildə bəyan etmişdi ki, Ermənistan 5+2 formuluna əsasən ərazilərdən çıxmağa hazırdır. Serj Sarkisyan vətəni təslim edirdi? Bu o deməkdirmi ki, o satqındır? Sizin komandanız satqınlardan təşkil olunub?"

Əlbəttə, söhbət R.Rubinyanın A. Mkrtçyana cavabından getmir. Məsələ heç Sarkisyanın maşasının nələri bildirməsində də deyil. Başlıca məqam ondadır ki, Ermənistan parlamentində Azərbaycana qarşı ərazi iddiası səslənir. Deməli, Prezident İlham Əliyev əbəs yerə bildirmir ki, Azərbaycan faşist dövlətlə qonşudur və faşizm təhlükəsi sovuşmayıb. Yəni, xaricdə kimsə dövlətimizin başçısının fikirlərini təəccüblə qarşılamasın. Qarşılayanlar varsa, Ermənistanda nələrin yaşandığına göz gəzdirsin. Onu da bildirək ki, Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına müsahibəsində, həmçinin bu fikri də vurğulamışdı: "Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur".

Ermənistanda faşizmi ləğv etmək üçün ən mühüm addım konstitusiya dəyişikliyidir. Nəzərə alaq ki, A.Mkrtçyan kimilər ölkədə çoxdur. Üstəlik, hazırda bu şəxs parlamentdə təmsil olunursa, deməli, sabah hakimiyyətə də gələ bilər. Ona görə Azərbaycana maksimum təminat lazımdır. Təminatın yolu isə referendumdan keçir.

Erməni xalqı ümumxalq səsverməsinə əsasən ölkə konstitusiyası ilə İstiqlaliyyət Bəyannaməsi arasındakı bağı tamamilə aradan qaldırmalıdır. Bu addım erməni cəmiyyətinin iradəsinin məhsulu olmalıdır. Hay cəmiyyəti dünyaya açıq şəkildə bəyan etməlidir ki, Azərbaycana, ümumən qonşu dövlətlərə qarşı hansısa ərazi iddiasında deyil.

Bəli, Ermənistanın hazırkı iqtidarı şovinist və revanşistlər üzərində tam qələbə qazanmalıdır. Bu gün rəsmi İrəvan anti-Rusiya ritorikasına köklənmiş durumdadır. Bu köklənişin ən mühüm addımı atılmalıdır. Çünki ölkədəki revanşistlər Rusiyanın bəzi dairələrinin himayəsi altındadırlar. Birincilərin Ermənistan parlamentində rahat şəkildə otura bilib ağızlarına gələni danışmaları Şimaldakı ağalarının dəstəyinin nəticəsidir. Nikol Paşinyan administrasiyası özünə də təhlükə olan bu məxluqlara ən sarsıdıcı zərbəni məhz referendum yolu ilə yəni erməni xalqının iradəsini ortaya qoymaqla vurmalıdır. Əlbəttə, bunu istəyirsə və bacarırsa.

***

Ermənistan Azərbaycanla səmimi şəkildə sülh istəyirsə, haqqında söz açdığımız məsələni qəti şəkildə reallaşdırmalıdır, bu, öz yerində. Yox, əgər bunu bacarmayacaqsa, referendumda qaldırdığı məsələ yerinə yetməyəcəksə, rüsvayçılıqla üzləşəcəksə, müvafiq olaraq yekunda yerini revanşist və şovinistlərə təhvil vermək perspektivi formalaşacaqsa, vəziyyəti hamı görməlidir. Rəsmi İrəvan səmimi davranmalı, referendumun mümkün uğursuzluğu şəraitində məsuliyyəti özündən uzaqlaşdırmalıdır. Əlbəttə ki, söhbət onun Ermənistandakı faşizmə görə daşıdığı məsuliyyətdən gedir.

Ermənistanda tam şəkildə anlamalıdırlar ki, ölkədə koçaryanlarla, sarkisyanlarla və onların Mkrtçyan kimi tör-töküntüləri ilə mübarizə əzmi yoxdursa, bu əzm Azərbaycanda və Azərbaycan dövlətində var. Ölkəmiz faşizmin kökünü kəsib Ermənistanı düz yola qaytarmaq iqtidarındadır. Paşinyan sözügedən faşizmin üzərinə qətiyyətlə getməlidir. Getmirsə, biz bunu qorxaqlıq və qətiyyətsizlik kimi dəyərləndirəcəyik ki, hazırkı məqamda bu iki cəhətin ümumi mənzərəyə və verəcəyimiz qərara heç bir təsiri yoxdur. Çünki qorxaq və qətiyyətsizlər dövlətli olmağa layiq deyillər.

Qorxaq və qətiyyətsizlərin faşist düşüncənin təsiri altında qalmaları və vəziyyəti yoluna qoya bilməmələri eyni mənfur ideologiyaya xidmətdir. Digər yandan, rəsmi İrəvan hətta qorxub və çəkindiyi üçün referenduma getmək istəmirsə, biz bunu məqsədli addım saymaq ixtiyarındayıq. Prinsipial yanaşma budur. Başqa bir tərəfdən isə erməni iqtidarının özünün şüurlu şəkildə konstitusiya dəyişikliyinə getməməsi və ərazi iddiası avantürasını davam etdirməsi məsələsi var. Onun bütün platformalardakı anti-Azərbaycan fəaliyyəti, səmimiyyətdən uzaqlığı və riyakarlığı bu barədə düşünməyə əsas verir. Ona görə də şərtimiz şərt olaraq qalır. Ya Ermənistan konstitusiya dəyişikliyinə getməli, yəni faşizmin kökünü kəsmək üçün ciddi addım atmalı, sülhə təminat formalaşdırmalıdır, ya da biz faşizmin kökünü kəsməyi, Mkrtçyanı və ağalarını tarixin zibilliyinə göndərməyin yollarını bilirik. Buna kimsənin şübhəsi olmasın.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Zatulini "zəncirləmək"

## *Yaxud Rusiya ermənipərəstliyi barədə nekroloq arzusu*

**Azərbaycan ərazilərində çoxsaylı hərbi cinayətlərdə ittiham olunan ermənilərin Bakıda davam edən məhkəmə prosesi dünya ermənipərəstlərinin, o cümlədən Rusiyada erməni sevdası ilə alışıb-yananların kürklərinə birə salıb. Onlar durmadan "qaşınır", özlərinə yer tapa bilmirlər. Belələrindən biri də Rusiya Dövlət Dumasının MDB ölkələri və xaricdəki həmvətənlərlə iş komitəsi sədrinin birinci müavini Konstantin Zatulindir. Zatulinin sərsəmləmələrindəki ayrı-ayrı məqamlara nəzər salacağıq. Ancaq əvvəlcə bir nüansa diqqət yetirək.**

Məlum olduğu kimi, bu günlərdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Moskvada səfərdə olub. Kremldə səfərin əvvəlcədən planlaşdırılmış qrafik üzrə həyata keçirildiyi bildirilsə də, aydındır ki, erməni XİN başçısı elə-belədən hərəkətə gəlməyib. Birincisi, son günlər məlum təyyarə olayı ilə bağlı Azərbaycanla Rusiya arasında soyuqluq yaranıb və erməni diplomatiyası bundan maksimum yararlanmaq niyyətindədir. İkincisi, ABŞ-də yeni seçilmiş Prezident Donald Tramp fəaliyyətə başlayıb. Rəsmi İrəvan Birləşmiş Ştatların indiki administrasiyasının əvvəlki qədər Ermənistanın tərəfini saxlamayacağını bilir və ona görə Vaşinqtonla Moskva arasında, bir növ, balanslı münasibət qurmağa çalışır. Loru dildə desək, baş nazir Nikol Paşinyan və tərəfdarlarının Trampdan gözləri su içmir. Ancaq bir haşiyə də çıxaq ki, A.Mirzoyanın Rusiyaya gözlənilməz səfərinin Qərblə, indiki halda Fransa ilə razılaşdırmadığını söyləmək düzgün olmaz. Yəni, səfər Ermənistanın müstəqil siyasət xəttinin məhsulu sayıla bilməz...

Rusiyaya gəldikdə, ölkə Ermənistana, necə deyərlər, qucaq açmaq üçün dəridən-qabıqdan çıxır. Moskvada ötən müddətdə olduğu kimi, yenə İrəvanın Rusiyanın orbitinə qayıdacağına ümid bəsləyirlər. Ona görə də Mirzoyanın səfəri ilə Ermənistanın anti-Rusiya davranışları, habelə Paşinyanın və onun komanda üzvlərinin Kremlə ünvanlanmış hədsizlikləri unudulur və bu amil Rusiya ermənipərəstlərini hərəkətə keçirir. Zatulin isə heç şübhəsiz, onların başında dayananlardan biridir. Yəni onun sərsəmləmələrində təəccüblü heç nə yoxdur. Amma...

***



Beləliklə, K.Zatulin Azərbaycan ərazilərində çoxsaylı hərbi cinayətlərdə günahlandırılan ermənilərin Bakıda davam edən məhkəmə prosesini hədəf alıb, prosesə siyasi don geyindirməyə girişib, məhkəmənin, guya, şou olduğunu bildirib. Ən əsası isə o, ədalət mühakiməsini Azərbaycan rəhbərliyinin ermənilərdən şəxsi qisası kimi dəyərləndirib. Belə təqdimatların nəyə hesablandığı isə gün kimi məlumdur.

Məhkəmənin əhəmiyyətini heçə endirmək, bu, öz yerində. Şəxsi qisas ritorikasını qabartmaqda məqsəd isə Ermənistanda, ümumən erməni xalqında Azərbaycana qarşı qəzəb və hiddəti körükləməkdir. Təxminən belə: Bakıda istənilən ermənini hazırda mühakiməsi davam edən şəxslərin aqibəti gözləyir. Zatulin və onun kimilər bu yolla Ermənistan və Azərbaycan arasında əbədi düşmənçiliyin təbliğatını aparırlar.

Heç şübhəsiz, zatulinlər ortaya elə-belədən düşmür, onların "knopkaları" basılır. Məlumdur ki, xalqlar arasında düşmənçilik ritorikasını yaymaq Rusiyanın şovinist dairələrinin Cənubi Qafqazda həyata keçirdikləri siyasətin başlıca qayəsini təşkil edib. Ənənəvi imperiya təfəkkürünə köklənmiş bu dairələr nifaq yolu ilə Moskvanın regionda təsirini saxlamağa çalışıblar. İndi zaman dəyişib, tamam başqa münasibətlər sistemi formalaşıb. Amma imperiya təfəkkürü Rusiyanın canından çıxmayıb və təəssüf ki, eyni kursun ölkənin rəsmi dairələrinin fəaliyyətinə də təsiri aktuallığını saxlamaqdadır.

Bəli, sadaladığımız amillərə görə zatulinlərə "ehtiyac" var. Onlar sərsəm düşüncələrinin mücərrəd guşələrində bəslədiklərini hər an üzə çıxarmağa həvəslidirlər. O qədər həvəslidirlər ki, sözügedən məhkəmə fonunda 2023-cü ildə Silahlı Qüvvələrimizin lokal xarakterli antiterror tədbirləri ilə Qarabağı ölkəmizin yurisdikasiyasına qaytarmasını, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsini işğalçılıq kimi qiymətləndirirlər.

Əlqərəz, Zatulinə təsir edən o imiş ki, dostları – Qarabağdakı artıq canını tapşırmış olan separatçı rejimin sabiq rəhbərləri Arkadi Qukasyan və Bako Saakyan müttəhimlər kürsüsündədir. Zatulin elə beləcə də vurğulayıb – dostlarım. O, həmçinin separatçı rejimdə saxta dövlət naziri postunu tutmuş Ruben Vardanyanı "Qarabağ ermənilərinin taleyini bölüşmək üçün Rusiya vətəndaşlığından imtina edən" fədakar obrazında göstərəcək qədər həyasızlığa yol verib. Zatulinin sərsəmləmələrinin kuliminasiya nöqtəsi isə Qarabağda "etnik təmizləmə" ritorikasını qabartmasıdır. Yeri gəlmişkən, çoxdandır, Rusiyada bu "ritorikaya" müraciət edilmirdi. Görəsən, nə dəyişib?..

Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini açıqlamasında, eyni zamanda, Bakıda keçirilən məhkəmə prosesinə Ermənistan və havadarları tərəfindən saxtalaşdırılmış tarixin pəncərəsindən də baxmağı yaddan çıxarmayıb. O, ənənəvi erməni vay-şivəninin zəngulələrinə baş vuraraq deyib ki, proses XX əsrin əvvəllərində ermənilərin üzləşdikləri "qətliam"ın XXI əsrdəki davamıdır. Sən demə, buna görə Qarabağ erməniləri bölgəni tərk etməkdə haqlı imişlər və guya onlar orada qalsaydılar, soyqırımı ilə üzləşəcəkdilər (?).

Qeyd edək ki, Rusiya ermənipərəstlərinin ənənəvi tezislərində Qarabağ itkisinə, ümumən 44 günlük müharibəyə görə baş nazir Nikol Paşinyan iqtidarını günahlandırmaq mühüm yer tutur. Zatulin də "əməkdar ermənişünas" kimi həmişə bu tezisi qabardır və yenə gündəmə gətirib. O deyib ki, Paşinyan sui-qəsd nəticəsində separatçı rejimin sabiq rəhbərlərindən qurtulmaq yolu tutmuşdu və istəyinə nail oldu. Yəni başqa sözlə desək, hazırda Bakıda davam edən məhkəmə prosesi, sən demə, Nikolun öz rəqiblərini siyasi səhnədən götürmək istəyinin nəticəsi imiş.

Zatulinin sözlərinə görə, N.Paşinyan "əsir düşmüş Arkadi Qukasyanın, Bako Saakyanın, Ruben Vardanyanın və başqalarının Bakı həbsxanalarında yatdıqları bütün müddət ərzində" onların azadlığa çıxmaları üçün heç bir cəhd göstərməyib. Görəsən, bu məxluq nə dediyinin fərqindədirmi? Əlbəttə, sualımız ritorikdir. Çünki, o, çox yaxşı anlayır ki, nəinki Paşinyan, heç Roma papası da durub gəlsəydi, adlarını çəkdikləri şəxslərin ədalət mühakiməsindən yaxa qurtarması mümkünsüz idi.

Digər tərəfdən, bütün Rusiya ermənipərəstləri kimi, Zatulin də Qarabağ itkisində Moskvanın günahlandırılması məntiqi üzərində dayanıb. Onun sözlərindən belə çıxıb ki, bölgədəki rus sülhməramlıları üzərinə düşən vəzifənin öhdəsindən gələ bilmədilər və bu səbəbdən "Qarabağ liderlərinin hazırkı faciəsinin tarixi kölgəsi" Rusiyanın da üzərinə düşür. Zatulin, həmçinin əlavə edib ki, Paşinyan rus sülhməramlılarının fəaliyyətsizliyindən yararlanıb və Qarabağı Azərbaycana təhvil verib. Sərsəmləməsinin sonunda isə o, Rusiya–Ermənistan "Lazarevski Klubu" Şurasının Bakıda keçirilən məhkəmə prosesi ilə bağlı bəyanat hazırladığının anonsunu verib.

***

Biz isə sonda bildirək ki, K.Zatulinin simasında (oxu simasızlığında) ortada Rusiya ermənipərəstliyinin son dərəcədə miskin və rəzil obrazı canlanmaqdadır və hər zaman belə olub. Nəinki rəsmi Moskva, ümumilikdə, rus ictimaiyyəti anlamalıdır ki, ölkədə zatulinlər qaldıqca və onlara hansısa formada meydan verildikcə, beləlləri ətrafa hər cür çirkabı dağıtdıqca, Rusiyaya münasibət heç vaxt yaxşı olmayacaq.

Rusiyada onu da yaxşı anlamalıdırlar ki, zatulinlərin mövcudluğuna görədir ki, hazırda erməni cəmiyyətində də Rusiyaya qarşı dərin antipatiya var. Hələ bunu da deyək ki, indi Moskvaya "kəllə atan" Paşinyanın 2018-ci ildə hakimiyyətə gəlməsi də erməni xalqının Zatulinin dostlarına nifrətininin nəticəsi idi. Yəni, yaxşı olar ki, Rusiyada bu barədə düşünsünlər. Düşünsünlər və Zatulini "zəncirləsinlər". Hərçənd, bunun baş verəcəyinə inanmırıq. Çünki ölkənin ictimai-siyasi elitası ortaya normal yanaşma qoya bilməyəcək, zatulinlərlə vidalaşmağı bacarmayacaq, onların yerini normal düşüncəli təmənnasız şəxslərlə doldura bilməyəcək dərəcədə qısır görünür.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# ATƏT-in Minsk qrupunun "dəfn mərasimi" gecikir

**(əvvəli 1-ci səhifədə)**

Bura qədər hər şey aydındır. Amma bununla yanaşı, rəsmi İrəvanın mövqeyində aydın olmayan bəzi məqamlar da qalmaqdadır. Xüsusilə, onun Minsk qrupunun buraxılmasını Ermənistan–Azərbaycan sülh danışıqlarının gedişatı ilə əlaqələndirməyə çalışması, yaxud bu qrupunun ləğvi ilə bağlı sülh müqaviləsinin imzalanmasından əvvəl ATƏT-ə müraciət etməyə hazır olub-olmadığı suallar doğurur. Nədənsə Ermənistan xarici işlər nazirliyi bu sualları açıq saxlamağa üstünlük verir. Fəqət, Ermənistanın "Hraparak" qəzeti hökumətdəki mənbələrə istinadən yazır ki, bu yay İrəvan Bakı ilə birlikdə Minsk qrupunun buraxılması tələbi ilə ATƏT-ə rəsmi müraciət etməyə hazırlaşır.

Bu açıqlama Ermənistanda daxili müxalifətin kəskin etirazları ilə baş nazirin üzərinə "hücumlarla" müşayiət olunur. Paşinyan hökumətinin yürütdüyü xarici siyasəti, onun Avropaya inteqrasiya kursunu tənqid edən baş nazirin keçmiş silahdaşı, xüsusi tapşırıqlar üzrə sabiq səfiri, hazırda "Çiçəklənən Ermənistan" Partiyasının lideri Edmon Marukyan Minsk qrupunun buraxılmasını "son dərəcə təhlükəli" presedent adlandırıb.

E.Marukyan hesab edir ki, "Minsk qrupunun buraxılması son nəticədə Ermənistanın mahiyyət etibarı ilə işğalçı kimi tanınmasına gətirib çıxaracaq". Onun fikrincə, Azərbaycan "faşist və işğalçı dövlət olduğumuzu və keçmişimizi yaxşı bildiyini nəzərə alaraq diqqətli olmalıyıq" fikrini təbliğ edir. Guya, Minsk qrupu dünyanı "Ermənistan işğalçıdır" deməkdən çəkindirən beynəlxalq hüquqi formatdır.

***

"Söhbət ondan gedirdi ki, münaqişə var və onu həll etmək üçün Minsk qrupu yaradılıb. Amma Bakı münaqişənin bitdiyini iddia edir və qrupun buraxılmasını irəli sürür. Baş nazirimiz də bunu təsdiqləyir" – deyən erməni siyasətçi hesab edir ki, ATƏT-in Minsk qrupu fəaliyyət göstərməsə də, gələcəkdə onun Ermənistana "faydası dəyə bilər". Bunları erməni ictimaiyyətinə "üfürən" Marukyanın fikrincə, qrupun ləğvindən yalnız Azərbaycan qazanır. Ermənistan isə bunun əvəzində heç nə almadan onun ləğvi ilə razılaşır. Onu da qeyd etməliyik ki, Hayastanın siyasi dairələrində Edmon Marukyanın fikrini bölüşənlər az deyil. Müxalifət düşərgəsində belə fikirlər səslənir. Paşinyan hakimiyyətinin əleyhdarları sülh sazişi imzalanana qədər qrupun, ən azı, formal mövcudluğunu qorumağa çağırırlar. Açığını deyək ki, əvvəllər Ermənistan rəhbərliyi də bu mövqedən çıxış edirdi. Amma rəsmi İrəvan Bakının təzyiqi ilə Minsk qrupunun buraxılmasına razılığını bildirdi. Beləliklə, 2020-ci ilin noyabrından sonra çıxılmaz "siyasi komaya" düşmüş ATƏT-in Minsk qrupunun "kəfənlənməsi" üçün ciddi maneə qalmayıb. Çox güman ki, yaxın aylarda Ermənistan rəhbərliyi Bakının tələbini yerinə yetirəcək. Hərçənd "utilizasiya" prosesinin nə qədər davam edəcəyini söyləmək çətindir.

Minsk qrupunun həmsədr ölkələrindən biri olan Rusiya da həmsədrlər formatının əhəmiyyətini itirdiyini və aradan qaldırılmalı olduğunu bildirib. Digər həmsədrlərin mövqeyi isə hələlik qeyri-müəyyən olaraq qalır. Moskva səfəri zamanı Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın digər məsələlərlə yanaşı, Minsk qrupunun buraxılması məsələsini də müzakirə edəcəyi gözlənilirdi. Bu barədə jurnalistlərə açıqlamasında Ermənistan parlamentinin spikeri Alen Simonyan bildirmişdi. Amma Moskvada bu barədə aydın və konkret heç nə deyilmədi.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov XQ-yə açıqlamasın-**



**da** bildirdi ki, Paşinyan komandasından uzaqlaşdırılan Edmon Marukyan siyasi cəhətdən dayaz bir siyasətçidir: "Onun ATƏT-in Minsk qrupu barədə dedikləri reallıqdan uzaqdır. Paşinyan 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatını imzalamaqla Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi faktını boynuna götürmüş oldu. Rəsmi İrəvan ondan sonrakı açıqlama, bəyanat və hərəkətləri ilə torpaqlarımızın Ermənistan ordusu tərəfindən işğalını təsdiqlədi. İndi Minsk qrupunun varlığı, yaxud yoxluğu bu reallığı dəyişə bilməz. Bu qrup o zaman nə üçün yaradılmışdı? Qarabağın statusunun müəyyən edilməsindən ötrü Minsk konfransı təşkil edilsin. Yəni bir növ, münaqişənin müharibə mərhələsinə gedib çıxmasını önləmək, məsələni danışıqlar yolu ilə həll etmək məqsədini daşıyırdı. Amma Ermənistan Qarabağdan savayı yeddi rayonumuzu da işğal etmişdi. Təbii ki, belə bir şəraitdə hansısa sülh konfransının təşkil olunmasından söhbət gedə bilməzdi. Çünki işğalın nəticələrinin aradan qaldırılması istiqamətində Minsk qrupu yarım addım da atmadı".

İrəvanın BMT-nin 4 qətnaməsini icra etmədiyinə, bu qrupun həmsədrlərinin isə münaqişənin nəticələrinin dondurulması ilə məşğul olduğuna diqqət çəkən politoloq vurğuladı ki, onların niyyəti Laçın daxil olmaqla Qarabağı ermənilərə peşkəş etmək idi: "Xeyr, bu, baş tutmadı. Azərbaycan Ermənistan ordusunun tör-töküntüsünü öz ərazisindən süpürüb atdı. Daha nə "Dağlıq Qarabağ" adlı qurum, nə də burada erməni qalıb. Bu halda ATƏT-in Minsk qrupunun işi nədən ibarət olmalıdır? Onun yerinə yetirməli olduğu heç bir funksiyası qalmayıb. Bu səbəbdən rəsmi Bakı deyir ki, bitmiş məsələ ilə məşğul olan hansısa qurumun saxlanması, ona büdcədən vəsait ayırılması beynəlxalq hüquqa ziddir. Əgər İrəvan bu qrupun qalmasında maraqlıdırsa, deməli, yenə torpaqlatrımıza göz dikib. Minsk qrupunun ləğvi artıq gündəlikdədir və ondan qaçmaq mümkün olmayacaq. Marukyanın açıqlamasının çəkisi isə sıfıra bərabərdir".

***

Yenidən münaqişənin keçmişinə qayıdaraq bir məqamı oxucuların diqqətinə çatdırmağı zəruri sayırıq. Ermənistanın təcavüzkar siyasətini davam etdirməsinə, məlum qətnamələri yerinə yetirməməsinə görə bu ölkəyə qarşı sanksiya tətbiq edilməsi imkanları olsa da, belə bir təşəbbüs irəli sürülmədi. Bu zaman ATƏT ya siyasi susqunluq nümayiş etdirdi, ya da formal bəyanatlar verməklə kifayətləndi. Əlbəttə ki, bu, ikili standartlar siyasətinin və selektiv yanaşmanın bariz nümunəsi idi. Axı, dünya təcrübəsində müxtəlif ölkələrə qarşı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin dərhal və qeyd-şərtsiz icrasına dair kifayət qədər nümunələr var. Məsələn, 1990-cı il avqustun 2-də İraq ordusu Küveytə hücum çəkərək onu işğal etmişdi. BMT 7 ay davam edən işğala görə İraqa qarşı sanksiyalar tətbiq etdi, ABŞ və onun müttəfiqləri isə təşkilatın Təhlükəsizlik Şurasından mandat alaraq, 1991-ci ilin fevralında "Səhrada tufan" əməliyyatına başladılar.

"Minsk qrupunun varlığı Ermənistan siyasi elitası üçün müəyyən dərəcədə müzakirə predmetinə çevrilib. Müxalifət hesab edir ki, bu qrup ləğv olunarsa bunu Paşinyanın növbəti səhvi və məğlubiyyəti kimi dəyərləndirmək lazımdır". **Bu fikirləri Qərbi Kaspi Universitetinin professoru Fikrət Sadıqov** mövzu ilə



bağlı qəzetimizə danışarkən dedi. Politoloq hesab edir ki, Rusiya Minsk qrupunun həmsədr ölkəsi kimi buna razılığını bildirib: "Deməli, ortada ABŞ və Fransa qalır. Ağ Evin yeni administrasiyasının Cənubi Qafqazla, o cümlədən Ermənistanla bağlı siyasi kursu hələ məlum deyil. Fransa Minsk qrupu olmadan da Ermənistanın yanındadır və bunu açıq nümayiş etdirir. Mövcud durumda belə bir qənaətə gəlmək mümkündür ki, məlum qrupun ləğvi məsələsi Ermənistan iqtidarı və müxalifəti arasında ona görə dartışılır ki, müxalifət bu mövzunu Paşinyanı tənqid alətinə çevirib. Fəqət onu da qeyd etməliyik ki, əslində, bu məsələdə Ermənistan baş naziri konkret qərara gəlməyib. Doğrudur, Paşinyan Bakının mövqeyi ilə razılaşır və ATƏT-in Minsk qrupuna artıq ehtiyac qalmadığını bəyan edib. İntəhası, bununla yanaşı, bəzi şərtləri irəli sürür. Guya, bu məsələ sülh danışıqlarının nəticəsindən asılı olaraq həll edilməlidir. Eləcə də digər "daha vacib" məsələlərdən sonra baxıla bilər. Dediyimiz kimi, bu məsələyə yanaşmada rəsmi İrəvanın mövqeyi tam aydın deyil.

Təbii ki, Bakı tutduğu siyasi kursu davam etdirəcək. Çünki mövqeyimiz və kursumuz kifayət qədər sağlamdır. 30 ilə yaxın Qarabağ münaqişəsini həll edə bilməyən bu qrupun bundan sonra rolu nədən ibarət olmalıdır? Düşünürük ki, həmsədrliyin formal mövcudluğu nə Ermənistana lazımdır, nə də Azərbaycana".

Beləliklə, ictimai-siyasi ömrünü başa vurmuş, "istismar müddəti" qurtarmış ATƏT-in Minsk qrupunun, sadəcə olaraq, "dəfn mərasimi"nin təşkilinə ehtiyac duyulur. Yoxsa, ermənipərəst "kollektiv Qərb" onu da Lenin kimi balzamlayıb saxlamaq fikrindədir?

***İmran BƏDİRXANLI***
***XQ***

# TÜRKPA üzvü ölkələri parlamentarilərinin Bakı görüşü

**Yanvarın 22-də Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasına üzv ölkələrin parlamentlərinin Səhiyyə komitələri sədrlərinin "İqlim dəyişmələri və sağlamlıq: Qanunvericilikdə iqlim dəyişmələrinin sağlamlığa təsirlərinə dair cavab tədbirləri" mövzusuna həsr edilmiş ikinci iclası keçirilib.**

Tədbirdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Şimali Kipr Türk Respublikası parlamentlərinin səhiyyə məsələləri üzrə komitələrinin sədrləri, deputatları və TÜRKPA Katibliyinin nümayəndələri iştirak ediblər.

Milli Məclisin Səhiyyə komitəsinin sədri və TÜRKPA-nın Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının sədri Əhliman Əmiraslanov İqlim dəyişmələrinin insan sağlamlığına təsirləri barədə ətraflı danışaraq yer kürəsində orta temperaturun artması, təbii fəlakətlər, ekstremal hava şəraitləri və ətraf mühitin çirklənməsi nəticəsində yaranan sağlamlıq problemlərinin xüsusilə uşaqlar və yaşlılar üçün risklər yaratdığını vurğulayıb.

Toplantıda çıxış edən parlament komitələrinin sədrləri - Türkiyədən Vedat Bilgin, Qırğızıstandan Vinera Raimbaçayeva, Qazaxıstandan Güldara Nurimova (videokonfrans formatında), Özbəkistandan Bahrom Abdullayev və Şimali Kipr Türk Respublikasından Filiz Besim iqlim dəyişmələrinin təsirlərinə diqqət çəkərək, Türk dövlətlərinin iqlim dəyişiklikləri ilə mübarizədə birgə səylərinin gücləndirilməsi məqsədilə qanunvericiliyin uyğunlaşdırılması, ortaq tədqiqatların aparılması və strateji planların hazırlanması, həmçinin enerji səmərəliliyinin artırılması, bərpaolunan enerji mənbələrinin inkişafı və ekoloji cəhətdən təmiz texnologiyalara dəstək kimi tədbirlərin həyata keçirilməsini təklif ediblər.




Toplantıda Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev və TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er məruzə ilə çıxış ediblər.

Beləliklə, iclas iştirakçıları iqlim dəyişikliyi ilə mübarizədə Türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayaraq, parlamentlərarası əməkdaşlığın gücləndirilməsi və gələcək strategiyaların formalaşdırılmasının əhəmiyyətini qeyd ediblər.

***XQ***

*Cənab Tramp çox aydın, açıq mesajlar göndərir. İndi bunların, bəlkə də, hamısını təhlil etmək mümkün deyil. Amma deyə bilərəm ki, onların böyük əksəriyyətini Azərbaycan ictimaiyyəti bölüşür. Yəni ona görə ümidlər böyükdür... O cümlədən Amerika – Azərbaycan strateji əlaqələrinə yaxınlaşmaq da mümkün olacaq. Mən hesab edirəm ki, əgər hər iki tərəf maraqlı olsa, biz Amerika–Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldıra bilərik.*

*(Azərbaycan Prezidenti İlham Əliyevin 7 yanvar 2025-ci ildə yerli televiziya kanallarına müsahibəsindən)*

# Amerika – Azərbaycan əlaqələri strateji səviyyəyə qalxa bilər

## *Yanvarın 23-ü ABŞ-ın Azərbaycanın müstəqilliyini tanıdığı gündür*

**Bəri başdan xatırladaq ki, Ağ Evin Cozef Baydenin prezidentliyi dövründəki bəzi ermənipərəst addımlarını nəzərə almasaq, Vaşinqtonda Azərbaycanla əməkdaşlığa həmişə böyük önəm verildiyini deyə bilərik. Bir faktı xüsusilə vurğulayaq ki, Azərbaycan ötən əsrin son onilliyində öz dövlət müstəqilliyini bərpa edəndə Vaşinqton həmin müstəqilliyi Türkiyə, Pakistan, Rumıniya və İsveçrədən sonra olsa da, Moskvadan iki ay yarım əvvəl – 1992-ci il yanvarın 23-də tanımışdır.**

Xatırladaq ki, Prezident İlham Əliyev bu il yanvarın 7-dəki müsahibəsində Azərbaycan – ABŞ münasibətlərini xarakterizə etmək üçün olduqca aydın və maraqlı arqumentlər səsləndirmişdir. Məsələn, dövlət başçımız demişdir ki, cənab Tramp tamamilə yeni gündəliklə hakimiyyətə gəlir və onun birinci dönəmində Amerika – Azərbaycan əlaqələrində hər hansı bir problem yaşanmadı: " Əksinə, münasibətlər çox müsbət idi və bir çox istiqamətlər üzrə biz irəlivründə Bakıya ünvanladığı bir məktubda oxuyuruq: "Biz birgə səylərimizlə terrorizmə qarşı mübarizə apararaq, qlobal təhlükəsizliyi möhkəmləndirmək üçün çalışırıq. Biz Azərbaycan xalqının yanındayıq və təhlükəsizlik, iqtisadi əməkdaşlıq və demokratik prinsiplər sahəsində dialoq vasitəsilə münasibətlərimizin möhkəmləndirilməsinə sadiqik".

Onu da əlavə edək ki, bu münasibətlər təkcə ABŞ dövlətinin maraqlarına görə



ləyişə nail ola bilmişdik. Bayden administrasiyasının Azərbaycanla bağlı əsas səhvi ondan ibarət idi ki, o, Amerika – Azərbaycan münasibətlərini Amerika – Ermənistan münasibətlərinin qurbanına çevirdi".

Həqiqətən elə idi. Vaşinqton bütün dünyanın gözü qarşısında bizim ölkəmizə Ermənistan – Azərbaycan, ya da ABŞ – Ermənistan münasibətlərinin prizmasından yanaşırdı. Dövlət başçımızın da dediyi kimi, məhz həmin səbəb üzündən Vaşinqton – Bakı münasibətlərində o vaxta qədər əldə edilmiş yaxşı nəticələr kölgədə qalmışdı. Bundan başqa, Bayden iqtidarı Azərbaycana qarşı açıq-açığına ədalətsiz mövqe sərgiləmiş, xüsusilə Qarabağ məsələsində ikili standartlardan ayrıla bilməmişdi. Dövlət başçımız ABŞ nümayəndələrinə bir neçə dəfə demişdi ki, siz Ukraynanın ərazi bütövlüyünü ikiəlli dəstəkləyirsiniz, silahlar verirsiniz, milyardlarla pul verirsiniz. Biz öz ərazi bütövlüyümüzü bərpa etmişik, niyə siz bizi cəzalandırmaq istəyirsiniz? Buna cavab verin. Cavab da yox idi. Halbuki, Vaşinqton hansısa suala cavab verə bilməyəcək qədər aciz deyildi. ABŞ diplomatiyasını və siyasətini həmin günə Bayden iqtidarı salmışdı.

Yeri gəlmişkən, Prezident İlham Əliyev hələ ötən ilin iyul ayında – Şuşa Forumunda demişdi ki, Tramp bizim cəmiyyətimizin bölüşdüyü dəyərləri təbliğ edir. Ailə dəyərləri, mənəviyyat dəyərləri – bunları təbliğ edir. Bu, o zaman idi ki, ABŞ-da keçiriləcək seçkilərdə kimin qalib gələcəyini heç kəs bilmirdi. Hətta, məşhur Tramp – Bayden debatları da hələ keçirilməmişdi. Dövlət başçımız Şuşada Bayden administrasiyasının yalan danışdığını, söz verərək, sonra o sözdən qaçdığını da xatırlatmışdı.

Xüsusilə vurğulanmalı daha bir məqam. Mən – bu sətirlərin müəllifi Cozef Baydenin Azərbaycan Prezidentinə ünvanladığı istənilən məktubu oxuyandan sonrakı yazılarımda "Ağ ev haqq yoluna qayıdır!"– tezisini dəfələrlə qabartmışdım. Ancaq Anadolu türklərinin sözü olmasın, "kos-koca" dövlətin fiziki cəhətdən olduqca qoca Prezidentinin bütün vədləri yalana çevrilirdi.

Ancaq Baydendən əvvəlki ABŞ prezidentləri bizim enerji inkişafımızı və xüsusən də, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsini hər zaman lazımınca dəstəkləyib. Ağ evdən yayılan məlumatlarda dəfələrlə deyilib ki, Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.

O da faktdır ki, Ağ evin rəsmi Bakıya inamı təkcə enerji sahəsindəki əməkdaşlıqla yekunlaşmır. Məsələn, yanvarın 20-də yenidən dövlət başçısı kimi and içmiş Donald Trampın birinci prezidentliyi dödeyil, həm də ulu öndər Heydər Əliyevin xarici siyasət kursunun uğurlu nəticələridir. Həmin siyasətin həyata keçirilməsi gənc müstəqil Azərbaycanın siyasi – diplomatik nailiyyətlərini gündən-günə artırır. Müstəqilliyin geridə qalan dövrlərində Azərbaycan – ABŞ əməkdaşlıq və tərəfdaşlıq münasibətlərinin daim inkişaf etməsi də məhz həmin uğurlar sırasındadır. 1993-cü ilin yayından etibarən Vaşinqton –Bakı münasibətləri daim yüksələn xətlə inkişaf edib.

Dönə-dönə yazmışıq ki, Azərbaycan – ABŞ əməkdaşlığı cəmiyyət həyatının bütün sahələrini əhatə edir. Məsələn, enerji təhlükəsizliyi, beynəlxalq terrorizmə, narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə sahəsində iki ölkə arasında geniş əməkdaşlıq mövcuddur. Xüsusilə vurğulanmalıdır ki, ABŞ və Azərbaycan Avropanın enerji təhlükəsizliyində yaxından iştirak edirlər.

Təkrar olsa da, yenidən xatırladaq ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü və müstəqilliyini tanıyır və daim dəstəkləyir. Təbii ki, Bakı da bu siyasi mövqeyə cavabsız qalmır. Belə ki, rəsmi Bakı qlobal proseslərdə və yeni dünya nizamının qurulmasında həlledici söz sahibi olan Amerika Birləşmiş Ştatları ilə əlaqələrə, ikitərəfli münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq səviyyəsində inkişafına böyük önəm verir. Ağ ev rəsmiləri də, öz növbəsində, Cənubi Qafqazın lider dövlətinə çevrilən, sürətli iqtisadi inkişafı ilə dünya birliyinin diqqətini cəlb edən, qlobal və regional əhəmiyyətli enerji layihələrini reallaşdıran, bu sahədə artıq böyük təcrübəyə malik olan respublikamızla hərtərəfli əməkdaşlığın inkişafında maraqlı olduqlarını dəfələrlə bəyan etmişlər.

Hamının yadındadır, 2001-ci ildə Nyu-Yorkda törədilən 11 Sentyabr terror hadisəsindən sonra rəsmi Vaşinqtonun öz yanında gördüyü ilk dövlətlərdən biri məhz Azərbaycan olmuşdur. Ölkəmiz ABŞ rəsmilərinin təşəbbüsü ilə yaradılan antiterror koalisiyaya ilk qoşulanlardan biri kimi dostluğa və tərəfdaşlığa sədaqət nümayiş etdirmişdir.

… Biz dost ölkənin dünya düzənində yeni nizam yaratmaq əzmində olan Prezidentinə uğurlar arzulayırıq. Fevralın 28-də ABŞ – Azərbaycan diplomatik münasibətlərinin yaranmasının 33-cü ildönümünü qeyd edəcəyik. İnanırıq ki, o vaxta qədər cənab Trampın islahatlarının bir çox nəticələrini görəcəyik. Dünya ictimaiyyətinin ondan gözlədiyi başlıca addım isə müharibə və münaqişələrə son qoyulmasıdır. Biz də ona inanırıq.

…Bu sətirləri Azərbaycan Prezidentinin Azərbaycan – ABŞ dostluq və tərəfdaşlıq münasibətlərinə verdiyi önəmi ifadə edən fikirləri ilə tamamlayırıq: "Bizim Birləşmiş Ştatlarla münasibətimiz olduqca yüksək səviyyədədir. Biz müttəfiqik və müxtəlif məsələlər ətrafında sıx əməkdaşlıq edirik".

***İttifaq MİRZƏBƏYLİ***

# Abramyanların “qatar”ı çoxdan gedib

**Azərbaycan və Ermənistan arasında sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində müəyyən irəliləyiş əldə olunan kimi, ölkədəki radikal revanşist qüvvələri təmsil edənlər dərhal hərəkətə keçərək gərginlik yaratmağa çalışırlar. Biz bunun örnəyini 2024-cü ilin yazında görmüşük. Həmin il aprelin 19-da Qazax rayonunun uzun illər erməni işğalı altında olan 4 kəndinin (Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı) qaytarılması Ermənistanda etirazlara səbəb olmuşdu.**



Revanş düşüncəsi ilə alışıb yananlar bu dəfə də eyni prosesi təkrarlamaq istəyirlər. Məlumdur ki, 2025-ci il yanvarın 16-da Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının on birinci görüşü keçirilib. Görüş iki ölkə arasındakı sərhəddə baş tutub. İclasa Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və onun ermənistanlı həmkarı Mher Qriqoryan sədrlik ediblər. Eyni gündə Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyanın on birinci görüşü baş tutub. Görüşün nəticələrinə dair mətbuat üçün yayılan açıqlamada bildirilib ki, müzakirələr zamanı tərəflər növbəti mərhələdə delimitasiya işlərinin həyata keçirilməsi üçün sərhəd xəttinin sahələrinin/hissələrinin ardıcıllığı məsələsi ilə bağlı fikir mübadiləsini davam etdiriblər. Onlar dövlət sərhədinin delimitasiyası üzrə kompleks işlərin şimal sahəsindən başlayaraq Azərbaycanın, Ermənistanın və Gürcüstanın sərhədlərinin qovuşma nöqtəsindən cənub istiqamətində, şimaldan cənuba doğru – Azərbaycan və Ermənistanın İran İslam Respublikası ilə sərhədinə qədər aparılması barədə razılığa gəliblər.

Ümumən götürdükdə, budəfəki razılaşma Qazax rayonunun erməni işğalı altında qalan digər anklav kəndlərinin və Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Kərki kəndinin qaytarılmasını bilavasitə nəzərdə tutmayıb. Digər tərəfdən, sərhəd xəttinin dəqiqləşdirilməsi Ermənistanın özü üçün də müsbət hal olardı. Ölkənin baş naziri Nikol Paşinyanın dəfələrlə bildirdiyi kimi, Hayastan bununla beynəlxalq birlik tərəfindən tanınmış 29,8 min kvadrat kilometrlik ərazidə sahiblik hüququ əldə edəcək, onun təbirincə desək, kadastr şəhadətnaməsinə yiyələnəcəkdir. Paşinyan delimitasiya və demarkasiya prosesinin ölkəsi üçün vacib olduğunu dönə-dönə qeyd edib: “Sərhəd xəttinin dəqiqləşdirilməsindən sonra sərhədyanı bölgədə hər hansı insidentin baş vermə ehtimalı da minimuma enəcək”. Buna baxmayaraq, radikallar yenə də aranı qarışdırmağa çalışırlar. Onlar bu qarışıqlıqdan öz mənfəətləri üçün yararlanmaq istəyirlər.

Bələlərindən biri parlamendəki “Şərəfim var” fraksiyasının deputatı Tiqran Abramyandır. O, bu günlərdə qanunverici orqanda məsələ ilə əlaqədar ayrıca bəyanatla çıxış edib. Deyib ki, Ermənistan və Azərbaycan arasında Tavuş bölgəsində sərhədin delimitasiyası üzrə işlərin başlanması/bərpa edilməsi haqqında razılaşma bütün aspektlərdə problemlidir. Guya, Azərbaycanın istəyi faktiki olaraq, ikitərəfli saziş şəklində formalaşdırılıb və Ermənistanın prioritetləri yenidən “Azərbaycanın şıltaqlığına” (?) tabe edilib: “Söhbət ilk növbədə Tavuş vilayətində yerləşən, təhvil verilməsi beynəlxalq hüquq, Ermənistan Respublikasının qanunvericiliyi və ölkəmizin həyat qabiliyyəti baxımından problemlər yaradan “qondarma anklavlar”dan gedir. Eyni paketdə Azərbaycanın əlində saxladığı Artsvaşenin (Gədəbəy rayonunun 1992-ci ilin avqustunda azad edilmiş Başkənd kəndi nəzərdə tutulur–S.H.) də məsələsi müzakirə edilməlidir. Bu, demarkasiya məntiqindən irəli gəlir və beynəlxalq hüquq baxımından (?) başa düşülən yanaşmadır”.

T.Abramyanın fikirlərinə cavab olaraq qeyd etmək lazımdır ki, Bakı və İrəvan arasında delimitasiya-demarkasiya prosesi dünyada qəbul olunmuş normalar çərçivəsində aparılır. Hələ proses başlamazdan öncə onun necə aparılacağı istiqamətində xeyli müzakirələr getmişdi. Metodologiyanın necə olacağını isə Prezident İlham Əliyev hələ 2024-cü il yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində aydın şəkildə ifadə etmişdi: “Heydər Əliyev 1969-cu ilin iyul ayında rəhbər seçiləndən sonra artıq bu torpaq hədiyyələri, bu proses dayandı. O vaxta qədər hissə-hissə verilirdi. Onlar məhz buna görə 1970-ci illərin xəritələrini əsas götürmək istəyirdilər. Mən sual verəndə ki, yaxşı, niyə 1970-ci illər? Deyin, mənə izah edin, bunun hansı metodoloji, siyasi əsasları var? Yoxdur! Əgər biz siyasi əsaslara istinad etsək, onda istinad nöqtəsi kimi ya Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövrünü, ya da sovetləşmə dövrünü götürməliyik. O olar siyasi metodologiya. Əgər biz xronoloji metodologiyaya üstünlük versək, onda gəlin baxaq, XX əsrin əvvəlində xəritələr nə idi, gəlin bu xəritələr üzərində işimizi quraq. Yəni siz 1960-cı, 1950-ci, 1940-cı illəri kənara qoyursunuz və məhz 1970-ci illərə istinad etmək istəyirsiniz. Məhz buna görə ki, bizim tarixi torpaqlarımız artıq onlara verilmişdi. Ona görə biz buna qəti surətdə etiraz etmişik və edirik. Əfsuslar olsun ki, 1970-ci illərin xəritəsini əsas götürmək istəyən təkcə Ermənistan deyil, onun “Ermənistan plyus” qruplaşmasıdır və biz buna heç vaxt razılıq verə bilmərik”.

Prezident qeyd etmişdi ki, bizim mövqeyimiz ədalətli və məntiqlidir. Yəni ya siyasi metodologiya, ya xronologiya əsas götürülməlidir, ya da biz, bütövlükdə, heç bir xəritə əsasında işimizi qurmamalıyıq: “Komissiya yaradılıb. Komissiyanın işini fəallaşdırmaq üçün ekspert qrupları yaradılmalıdır. Getsinlər qarış-qarış o yerləri gəzib o sərhədi müəyyən etsinlər. Çünki bu gün bizim sərhədimiz şərti xarakter daşıyır”.

Azərbaycanın qeyd olunan yanaşması rəsmi İrəvan tərəfindən də qəbul edilmiş və delimitasiya işinə bu metodologiya əsasında başlanılmasına qərar verilmişdi. İndi prosesdə müəyyən məsafə qət edildikdən sonra Abramyanın verdiyi açıqlama “arxadan atılan daş topuğa dəyər” atalar sözünü xatırladır. Ümumiyyətlə, Abramyanın, onun kimi düşünən digər “yan”ların, necə deyərlər, qatarı çoxdan gedib. Onların bunu, gec də olsa, anlamaları lazımdır.

Mövzu ilə bağlı XQ-yə açıqlama verən politoloq Yeganə Hacıyeva bildirdi ki, Ermənistandakı radikal müxalif siyasi qruplar cəmiyyətin revanşist əhval-ruhiyyədə olan kəsiminə, yəni tərəfdarlarına vaxtaşırı bu cür fikirlər ötürməklə onlardakı hansısa qisas duyğusunu, eyni zamanda, özlərinə dəstəyi aktual saxlamağa çalışırlar. Onun sözlərinə görə, Abramyanın parlamentdə verdiyi bəyanat da növbəti belə aktdır: “İlk növbədə qeyd etmək lazımdır ki, Abramyanın fikirlərinin əksinə olaraq, delimitasiya-demarkasiya prosesində indiyədək Ermənistanın Azərbaycana hansısa güzəşti olmayıb. Əksinə, bəzi Azərbaycan kəndləri hələ də Ermənistanın nəzarəti altında qalmaqdadır. Hazırda delimitasiya-demarkasiya prosesində həmin kəndlərin qaytarılması mexanizmlərinin tətbiqi üçün yollar axtarılır. Ancaq məsələ ondadır ki, Ermənistan daxilindəki revanşistləri özlərinin tərəfdarı hesab edən siyasi qruplar prosesi fərqli şərh etməyə can atırlar. Onlar bununla da Ermənistan hökumətini nüfuzdan salmağa, ona qarşı, necə deyərlər, müəyyən sədd qurmağa çalışırlar. Parlamentdə populist bəyanatlar verməklə hələ də özlərini güclü kimi göstərməyə, cəmiyyəti öz tərəflərinə çəkməyə can atırlar. Bununla gələn il keçiriləcək seçkilər ərəfəsində elektorat bazasını genişləndirməyi də hədəfləyirlər. Radikallar Paşinyan hökumətinin, guya, Azərbaycana güzəştə getdiyi görüntüsünü yaradırlar”.

Politoloq bildirdi ki, bu, Hayastandakı radikal müxalifətin əsas tezisləridir. Bu tezislərdən ölkə daxilində qeyd olunan məqsədlər üçün istifadə edirlər: “Xaricdəki erməni lobbisi isə bu tezisləri Azərbaycanın, guya, Ermənistan ərazilərini nəzarətdə saxlaması kimi qələmə verməyə çalışır. Biz bunu xaricdən ən yüksək səviyyədə eşidirik. Son 5 il ərzində dəfələrlə bunun şahidi olmuşuq. Erməni lobbisi gah 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarının yerinə yetirilməsi, gah da delimitasiya-demarkasiya prosesində Ermənistanın hansısa ərazi güzəştinə getdiyi iftirasını yaymaqdır”.

Y.Hacıyeva bildirdi ki, ancaq bir məsələ aydındır. Bu isə ondan ibarətdir ki, Ermənistan və Azərbaycan 1992-ci ildə BMT-yə müvafiq olaraq 29,8 və 86,6 min kvadrat kilometr ərazidə üzv qəbul ediliblər. Həmin vaxtadək Ermənistan Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurdan kənarda da ərazilərini işğal etmişdi. Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ və Şərqi Zəngəzur işğaldan tam azad edildi. İndi isə sərhədlərin dəqiqləşdirilməsi çərçivəsində anklav kəndlərin, yəni suveren ərazilərimizin qaytarılması prosesi gedir.

**Səxavət HƏMİD**
**XQ**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparatında 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu

# CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Baş nazirin birinci müavini Eyyubov Yaqub Abdulla oğlu** | **3** |
| **Baş nazirin müavini Mustafayev Şahin Abdulla oğlu** | **4** |
| **Baş nazirin müavini Şərifov Samir Rauf oğlu** | **5** |
| **Aparatın rəhbəri Məmmədov Rüfət Tofiq oğlu** | **6** |
| **İqtisadiyyat şöbəsinin müdiri Həsənova Sevinc Telman qızı** | **7** |
| **Xarici iqtisadi əlaqələr şöbəsinin müdiri Rüstəmli Ruslan Rüstəm oğlu** | **4** |
| **Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Paşayev Zakir İlqar oğlu** | **13** |
| **Hüquq və qanunvericilik şöbəsinin müdiri Qasımlı Xalid Akif oğlu** | **7** |
| **Sosial məsələlər şöbəsinin müdiri Rəhimov Niyazi Süleyman oğlu** | **8** |
| **Humanitar məsələlər şöbəsinin müdiri Həbibbəyli Ərəstü İsa oğlu** | **4** |
| **Sənaye və energetika şöbəsinin müdiri Hacızadə Elşən Mahmud oğlu** | **7** |
| **Aqrar və ekologiya şöbəsinin müdiri Qasımov Lətif Cəfər oğlu** | **8** |
| **Regionların inkişafı şöbəsinin müdiri Məcidov İlkin Sabir oğlu** | **9** |
| **Tikinti, şəhərsalma və kommunal təsərrüfat şöbəsinin müdiri Mustafayev Feyruz Rəvayət oğlu** | **0** |
| **Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri Pənahov Musa Sədi oğlu** | **2** |
| **Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri Məmmədov Anar Rəhim oğlu** | **5** |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Qəbul otağında qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Lermontov küçəsi, 68.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: (012)492-19-23, (012)492-88-96.**

# DGK sədri Şimal bölgəsində vətəndaş qəbulu keçirib



**Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov Qusar şəhərindəki Heydər Əliyev Mərkəzində Qusar, Quba və Xaçmaz rayonlarından olan vətəndaşlarla görüşüb.**

Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Qusar, Quba və Xaçmaz rayon sakinlərinin müraciətləri dinlənilib, qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Xatırladırıq ki, müraciətlər əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

**XQ**

# Seçki bülletenləri DSK-lərə çatdırılır





**Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb.**

Mərkəzi Seçki Komissiyasının üzvləri, Katibliyin əməkdaşları, o cümlədən müvafiq dairə seçki komissiyalarının sədr və katiblərinin də iştirakı ilə reallaşdırılan proses açıq və şəffaf şəkildə həyata keçirilib, müşahidəçilər, media nümayəndələri və maraqlı seçki subyektlərinin bülletenlərin paylanmasını yaxından izləyə bilmələri üçün hər cür şərait yaradılıb.

Seçki bülletenləri ilk gün – yanvarın 22-də Naxçıvan Muxtar Respublikasındakı seçki dairələrinə və respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə 54 seçki dairəsinə verilir. Növbəti gün isə seçki bülletenlərinin ölkənin digər bütün seçki dairələrinə təhvil verilərək, prosesin tam yekunlaşdırılması nəzərdə tutulur.

Yüksək təhlükəsizlik şəraitində hazırlanan seçki bülletenləri dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları tərəfindən həyata keçirilir.

Qeyd edək ki, bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra, 2025-ci il yanvarın 11-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb və Komissiyanın qərarı ilə 6 milyon 52 min 721 seçki bülleteni çap olunub.

Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada seçki bülletenləri dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

**XQ**

# TÜRKPA-ya üzv ölkələrdə “yaşıl” qanunvericilik müzakirəsi



**Yanvarın 22-də Milli Məclis sədrinin birinci müavini Əli Əhmədov TÜRKPA-ya üzv ölkələrin parlamentlərinin Səhiyyə komitələrinin sədrləri ilə görüşüb.**

Əli Əhmədov Türkiyədə baş vermiş dəhşətli yanğında həlak olanlarla bağlı dərin kədərini ifadə edib və Türkiyə xalqına başsağlığı verib.

Sonra o, Milli Məclisdə TÜRKPA-ya üzv ölkələrin parlamentlərinin Səhiyyə komitələrinin “İqlim dəyişmələri və sağlamlıq: Qanunvericilikdə iqlim dəyişmələrinin sağlamlığa təsirinə dair cavab tədbirləri” mövzusunda keçirilmiş ikinci iclasında aparılan müzakirələrin əhəmiyyətini vurğulayıb.

Görüşdə Türkiyə Böyük Millət Məclisinin Səhiyyə, ailə, əmək və sosial məsələlər komissiyasının sədri Vedat Bilgin, Qırğız Respublikası Joqorku Keneşinin Sosial siyasət komitəsinin sədri Vinera Raimbaçayeva, Özbəkistan Respublikası Ali Məclisi Senatının Elm, təhsil və səhiyyə məsələləri komitəsinin sədri Bahrom Abdullayev və Şimali Kipr Türk Respublikası Məclisinin İnzibati, ictimai və səhiyyə məsələləri komitəsinin sədr müavini Filiz Besim səmimi qəbula və yüksək qonaqpərvərliyə görə Azərbaycan parlamentinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

**XQ**

# Yeni geosiyasi trendlər: Cənubi Qafqaz konteksti




### II məqalə

## Alternativ geosiyasi trend

Cənubi Qafqazda I məqalədə vurğuladığımız və mahiyyətcə riskli olan geosiyasi trendlərə alternativ istiqamət artıq formalaşmışdır. Onun təməli II Qarabağ müharibəsindən sonra Azərbaycan tərəfindən qoyulmuşdur. Bu, öncə tendensiya xarakterli konstruktiv proses idi. Sonrakı mərhələdə ciddi və davamlı trendə çevrilmişdir.

Burada biz yalnız nəzəri iddia irəli sürmürük, bu cür gedişatın praktiki təzahürünü təsdiq edən faktlar artıq mövcuddur. Azərbaycanın başladığı həmin geosiyasi tendensiya Şuşa Bəyannaməsindən sonra Azərbaycan – Türkiyə tandemi tərəfindən aparılır. Bununla da, Cənubi Qafqazda ümumi səviyyədə iki geosiyasi istiqamətin – risklər yaradan və regionu parçalaya biləcək üç trendlə, konstruktiv mahiyyətli və əməkdaşlığa istiqamətlənmiş bir trendin mübarizəsi özünü göstərir.

Həmin istiqamətlər arasında fərq ondan ibarətdir ki, risklər daşıyan üç geosiyasi trend qlobal miqyasdan Cənubi Qafqaza "yüklənən" proseslərdir. Onun formalaşdırıcı subyektləri ABŞ, Aİ, Rusiya və İranın timsalında böyük qüvvələrdir. Konstruktiv mahiyyətli alternativ trend isə regional miqyasda meydana gəlmiş, Azərbaycanın təşəbbüsü ilə konkret məzmun almış, hazırda Azərbaycan – Türkiyə tandemi kimi özünü göstərən gücdən ibarətdir.

Deməli, geosiyasi kontekstdə söhbət qlobal miqyasdan regional səviyyəyə olan təsirlərlə regional miqyasdan qlobal miqyasa olan təsirlərin rəqabətindən getməlidir. Bu məqamı Cənubi Qafqaz kontekstində "Yeni Böyük Oyun"un başlıca özəlliyi hesab edirik. Bu rəqabətdə kim qalib gələcək? Bu da indiki mərhələdə tarixi bir sualdır. Səbəbi üzərində düşünmək olar.

## Qafqazın geosiyasi tarixində bir ilk

Nəzəri müqayisə aspektində şişirtməsiz belədir. Azərbaycan Vətən Müharibəsində elə bir qələbə əldə etmişdir ki, onun geosiyasi təsiri iki istiqamətdə qlobal miqyasa qədər özünü göstərməkdədir. Yəni real olaraq, bizim "tarixi ilk" adlandırdığımız geosiyasi trendin yaradıcısı özünün praktiki fəaliyyəti ilə Azərbaycan Respublikasıdır. Əgər Azərbaycan hərb, diplomatiya, siyasi liderlik və informasiya sferalarında möhtəşəm tarixi qələbə əldə etməsəydi, Şuşa Bəyannaməsi olmayacaqdı. Şuşa Bəyannaməsi isə yeni geosiyasi trendin rəsmi siyasi, hüquqi və informasiya rəmzidir!

Regionun geosiyasi tarixində bir ilkə imza atan Azərbaycan Respublikasının başlatdığı yeni trendin əsas əlamətləri aşağıdakılardan ibarətdir:

– regional maraqların ön plana çıxarılması;

– sabit qalıcı təhlükəsizlik və əməkdaşlıq modeli;

– regionlararası konstruktiv əməkdaşlığa istiqamətlənmə;

– terrorun hər bir növü ilə prinsipial mübarizə;

– sülhsevər, humanitar və ədalətli əlaqələr sisteminin qarşılıqlı faydalı qazanclar müstəvisinə proyeksiya edilməsi.

## Regional maraqların ön plana çıxarılması

XIX əsr boyu özünü göstərmiş "Böyük Oyun"dan başlayaraq, Cənubi Qafqazda geosiyasi proseslərin dinamikasına kökündən təsir edən başlıca məqam regional maraqlara münasibətlə bağlıdır. Yəni öncə "Böyük Oyun", sonra "Yeni Böyük Oyun"un qurucuları regional maraqları daim arxa plana atmışlar. Hətta, region dövlətlərinin maraqlarını özlərinin maraqlarının təsiri altına salmışlar. Bu prizmadan baxanda Z.Bzejinskinin Qafqazı geosiyasi məkan olaraq Avropa ilə Asiyanın mühüm körpüsü kimi tərif etməsində kollektiv Qərbin maraqlarının tam təmin olunması məqamını əsas götürdüyü şübhə doğurmur.

Həmin baxımdan "Böyük Oyun"dan "Yeni Böyük Oyun"a keçid qurucu oyunçuların mövqeyində elə bir keyfiyyət dəyişikliyinə gətirib çıxarmamışdır. O halda alternativ geosiyasi güc üçün, ilk növbədə, qlobal miqyasda regional maraqları təmin etmənin ön sıraya çıxarılması prinsipial əhəmiyyət daşımış olur. Hazırda faktiki olaraq məhz bu xətt üzrə Cənubi Qafqazda geosiyasi güclərin mübarizəsi şiddətlənir.

Azərbaycanın təklif etdiyi "3+3" platformasına da hər şeydən əvvəl bu kontekstdə geosiyasi dəyər vermək gərəkdir. Azərbaycan rəhbərliyinin 1993-cü ilin ikinci yarısından Cənubi Qafqazda sülh, barış, əmin-amanlıq, təhlükəsizlik və əməkdaşlıqla bağlı etdiyi təkliflərə nəzər salsaq, görərik ki, onların hər birində ilk sıraya regionun maraqları qoyulmuşdur. Bu özəllik hətta "Əsrin Müqaviləsi"nin geosiyasi kontekstinin ana xəttini təşkil edir. Onun qaynağı isə Azərbaycanın yeni enerji strategiyasının məzmun və məqsədindədir. Ulu öndər Heydər Əliyev dəfələrlə ifadə etmişdir ki, "Əsrin Müqaviləsi, o cümlədən Bakı–Tbilisi–Ceyhan neft marşrutu regionun və bütövlükdə, Avrasiyanın enerji xəritəsini dəyişəcəkdir. Bu o deməkdir ki, Azərbaycanın enerji strategiyasının mahiyyətində geosiyasi aspektdə regional maraq çox ciddi yer tutmaqdadır.

Digər nümunə kimi, II Qarabağ Müharibəsindən sonra Prezident İlham Əliyevin hərbi və informasiya strukturunu darmadağın etdiyi Ermənistana sülh və əməkdaşlıq əlini uzatmasını göstərmək olar. Azərbaycan rəhbərliyi məğlub etdiyi düşməni tamamilə məhv etmək xəttini tutmamış, region naminə sülh və əməkdaşlıq təklif etmişdir.

Bu, Cənubi Qafqazın müasir tarixində orijinal bir hadisədir. Onun fərqli cəhəti ondan ibarətdir ki, son 300 ildə Avrasiya məkanında eyni regionda yerləşən iki dövlətdən təcavüzə məruz qalanı hərb meydanında qalib gəlir və eyni zamanda, məğlub olana sülh, barış və əməkdaşlıq əli uzadır.

Yəni Cənubi Qafqaz kimi bir regionda müasir dönəmdə ilk dəfədir ki, sülh təşəbbüsü qalib region dövləti tərəfindən irəli sürülür. Əlbəttə, əvvəllər də region maraqlarını önə çəkərək analoji təkliflər olmuşdur. Lakin hazırkı situasiyanın fərqi ondan ibarətdir ki, qalib dövlət konkret fayda verən layihələrə məğlub etdiyi təcavüzkar region dövlətini cəlb etmək əsasında sülh, barış və əməkdaşlığın təmin edilməsinə çalışır. Bu, real politikada mühüm özəllikdir. Bundan başqa, region miqyasında humanitarlıqla milli və regional maraqları optimal surətdə uyğunlaşdırmaq cəhdidir.

Azərbaycan Respublikasının regional maraqları ön sıraya çıxarmasının hüquqi bazası Konstitusiyada və Şuşa Bəyannaməsində ifadə edilmişdir. Şuşa Bəyannaməsində yazılır: "Tərəflər (Azərbaycan və Türkiyə nəzərdə tutulur – FQ.) Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirəcəklər. Bu kontekstdə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınacaqdır" və sonra vurğluanır: "Tərəflər öz milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirirlər. Tərəflər regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərirlər".

Bu müddəalar aydın göstərir ki, Azərbaycan əsaslı və strateji məqamları nəzərə almaqla regional maraqların ön sıraya çıxarılmasına ciddi əhəmiyyət verməkdədir. Həmin məqam bütövlükdə, 2021-ci ildən sonra davamlı geosiyasi xətt kimi inkişaf etdirilir. Hazırda o, sistemli geosiyasi trendin vacib müddəalarından biridir.

Çox əhəmiyyətlidir ki, Azərbaycan–Türkiyə geosiyasi tandemi regional maraqları aktuallaşdırmağı beynəlxalq hüquq normaları, o cümlədən BMT-nin Nizamnaməsinə uyğun təmin etməyi başlıca fəaliyyət prinsipi kimi qəbul etmişdir. Bu məqam da Şuşa Bəyannaməsində aydın ifadə edilmişdir. Orada preambulada yazılmışdır ki, Azərbaycan və Türkiyə "Beynəlxalq hüququn prinsip və normalarına, o cümlədən də Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinə uyğun olaraq qlobal və regional sülh, sabitlik və təhlükəsizliyin təmin edilməsində birgə səylərin davam etdirilməsinin vacibliyini vurğulayaraq" və "Müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin zəruriliyini ifadə edərək"…qərara gəlirlər.

Bununla geosiyasi platforma olaraq regional maraqların ön sıraya çıxarılması əsasında yeni təhlükəsizlik və əməkdaşlıq formulu irəli sürmək imkanı yaranmış olur. Həmin formul da Azərbaycan tərəfdən verilmişdir və "3+3" adlanır.

## Sabit qalıcı təhlükəsizlik və əməkdaşlıq modeli

Praktiki təcrübə göstərir ki, Cənubi Qafqaz üçün, hələlik, ən uyğun, real və perspektivli təhlükəsizlik və əməkdaşlıq formulu "3+3"-dür. Prezident İlham Əliyev 2021-ci ildə İspaniyanın EFE informasiya agentliyinə verdiyi müsahibədə "3+3" platformasının geosiyasi mahiyyətini açmış, onun funksiyalarını şərh etmişdir. Dövlət başçısının yığcam ifadə etdiyi fikirlərdə faktiki olaraq həmin formulun geosiyasi trend konteksti adekvat ifadə olunmuşdur. İlham Əliyev bəyan etmişdi ki: "Bu, nəinki müharibədən sonrakı məsələlərə, eləcə də, ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək. Çünki əgər biz regionun altı ölkəsi arasında bu cür əməkdaşlıq formatını yaratmağa müvəffəq olsaq, bu, hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq. Bu, regional əməkdaşlığın mühüm amilinə çevriləcək və çox fayda gətirəcək".

Vurğulanan tezisləri geosiyasi trendin tərkib hissəsi qismində aşağıdakı kimi qruplaşdırmaq olar.

Birincisi, "3+3" yalnız "müharibədən sonrakı məsələlər" kontekstində əhəmiyyət daşımır, onun funksiyası geniş və uzunmüddətli regional dinamikaya aiddir.

İkincisi, "3+3", "ümumiyyətlə, bizim bölgədə regional inkişafa xidmət edəcək". Bunun anlamı ondan ibarətdir ki, Azərbaycan və Türkiyə həmin formula ciddi əsası olan geosiyasi trekin mərkəzi müddəası kimi baxır.

Üçüncüsü, "3+3" regionun altı ölkəsi arasında əməkdaşlıq formatı kimi "hər hansı yeni düşmənçilik hərəkətlərinə qarşı əsas zəmanət olacaq".

Nəhayət, "3+3" "regional əməkdaşlığın mühüm amilinə çevriləcək".

Azərbaycan Prezidentinin vurğulanan tezisləri faktiki olaraq Cənubi Qafqazda konstruktiv geosiyasi trendin sabit qalıcı təhlükəsizlik və əməkdaşlıq modelə malik olduğunu təsdiqləyir. Daha əhəmiyyətlisi odur ki, Prezident İlham Əliyev həmin modelin başlıca şərtlərini dəqiq göstərmişdir. Yeni geosiyasi trendin alternativ və konstruktiv xarakterli olması baxımından həmin şərtlər çox əhəmiyyətlidir və onların üzərində geniş dayanmaq zəruridir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# "Böyük manipulyator"

**Ma k ENDEVELD**

***(əvvəli qəzetin ötən saylarında)***

## Sarkozist Luvrierdən kiçik məsləhət

"Necə eləyim ki, özümü xalqa tanıtdırım?". Əsas sual budur! Onun populyarlığı, mediatik strategiyası və mətbuatla əlaqəsi, eləcə də böyük patronlarla münasibətləri stolun üstündə hazırdır. Arvadı Brijit də, demək olar ki, səhərdən axşama kimi onun yanındadır. Fransız dili müəlliməsi (Brijit) təbii ki, ərinin kabinetinə yaraşıq vermək üçün gəlmir. O, hadisələrə fikrini bildirir, iclaslara rəhbərlik edir və kimin nə vaxt və kimdən sonra çıxış edəcəyini planlaşdırır. Bu iclaslara dəvət olunan qonaqlar çox tez dərk edirlər ki, fransız dili müəlliməsinin varlığı, həqiqətən, vacibdir və Emmanuel üçün çox böyük əhəmiyyət kəsb edir. Bununla belə, Yelisey sarayına prezident Holland üçün işləməyə dəvət olunan bu cavan oğlanın real ambisiyaları haqqında hələ ki, heç kim heç nə bilmir. Onun özü də, hələlik, planlarını heç kimə açıqlamır. Düzdür, hərdənbir Fransua Hollandın bu gənc əməkdaşı bəzən öz ambisiyalarını gizlədə bilmir. Yelisey sarayını tərk etməmişdən bir neçə gün əvvəl kabinetindəki iş yoldaşlarına yarızarafat, yarıciddi deyir ki: "Gələn dəfə mən bura qayıdanda, böyük qapıdan içəri girəcəm". O, yəqin, 2017-ci il haqqında düşünür... kim bilir, bəlkə elə 2022-ci il haqqında da...

Emmanuel Makron səbirsizdir. Elə o vaxtdan həm solçuları tumarlayır, həm də sağçıları. Çünki o, bazar günləri təşkil etdiyi görüşlərə həm sağçı partiyasından prezidentlik dövrünün ilk illərindən Emmanuel Makron əlinə fürsət düşən kimi, yaxın çevrəsi daxilində respublika prezidentini tənqid edir. 2014-cü ilin may ayının sonunda – istefa verməsindən doqquz gün əvvəl – Kopenhagendəki Bilderberq qrupunun yığıncağında, Makron söz alıb hamının qarşısında Fransua Hollandın yürütdüyü siyasət haqqında ağzına gələni danışır. JDD qəzeti, 3 dekabr 2017-ci il) Bu kiçik "teatrda" tamaşa həmişə iki hissədən ibarət olur: Hollandın uğursuzluqları və Makronun uğurları.

## San-Lui-Dö-Qonzaqın kölgəsində

Beləliklə, bu Makronlar cütlüyü Yelisey sarayına gəlməmişdən xeyli əvvəl belə müxtəlif şəbəkələrdən intensiv şəkildə istifadə edirdi. 2007-ci ildə nikah kəsdirəndən bəri Parisin 15-ci rayonundakı mənzillərində, Emmanuel ilə Brijit lazımlı adamları tez-tez evlərinə şam yeməyinə dəvət edirlər. Parisin 16-cı rayonunda, adlı-sanlı katolik təmayüllü San-Lui-dö-Qonzaq liseyində fransız dilindən dərs deyən Brijit Makron ərinin istifadəsi üçün şəxsi telefon kitabçasını yüksək vəzifəli və rütbəli şəxslərin nömrələri ilə doldurur. Benjamin Franklin küçəsində yerləşən, hamının "Franklin" adlandırdığı, Yezuitlər tərəfindən idarə olunan bu lisey sosial müxtəlifliyin məbədidir. Bir vaxtlar indiki iqtisadiyyat naziri Brüno Lö Merin anası Vivian Fradan dö Belabr tərəfindən idarə edilən bu təhsil ocağında, əsasən, Paris burjuaziyasının uşaqları təhsil alır. Brüno Lö Mer özü də Fransa Bankının indiki direktoru Villeroy dö Qalo da bu liseydə




olanları, həm də solçu partiyadan olan prezidentin (Holland) yaxın adamlarını – məsələn, dövlət başçısının mətbuat xidmətində çalışan Filip Qranqon, Robert Zarader, sorğu aparan Bris Tantüriye, eləcə də Havas şirkətinin əməkdaşları İsmael Emelien və Jil Finşelşteyn kimi adamları dəvət edir... Prezident Hollandın iqtisadiyyat üzrə məsləhətçisi Emmanuel Makronda heç bir kompleks yoxdur. Və bir gün onun abırsızlığı o dərəcəyə çatır ki, 2007-ci ildən 2012-ci ilə qədər Nikola Sarkozinin Yelisey sarayında sadiq mətbuat məsləhətçisi olmuş Frank Luvrieri də bazar axşamları təşkil etdiyi iclasların birinə dəvət edir.

Makron Hollanddan əvvəlki dövrdə prezident aparatında işləməkdən imtina etsə də, indi Sarkozinin çevrəsindəkiləri özünə tərəf çəkməkdən çəkinmir... Holland prezident seçiləndən sonra Yelisey sarayını tərk edən Luvrier, indi Sarkozinin yaxın dostu Moris Levinin rəhbərlik etdiyi Pulicis şirkətində çalışır. Bazar axşamlarındakı iclasların iştirakçıları qarşısında Luvrier ilə Makron yaxın olduqlarını gizlətmirlər. Onlar bir-birinə "sən" deyə müraciət edir, görüşəndə qucaqlaşıb öpüşürlər. Ona görə də tamamilə təbiidir ki, 2016-cı ilin əvvəlində İqtisadiyyat naziri Makron özünün gələcək prezidentlik kampaniyası üçün kommunikasiya direktoru axtaranda, Moris Leviyə zəng vurub xahiş edir ki, Frank Luvrieri onun ixtiyarına versin. Çünki prezidentliyə can atan gənc nazir yaxşı bilir ki, Luvrierin siyasi jurnalistlər arasında çox yaxşı əlaqələri var. Düzdür, o vaxt nazirin bu istəyi baş tutmasa da, 2019-cu ilin yanvar ayında Emmanuel Makron Sarkozist Luvrierdən bir daha xahiş edir ki, Yelisey sarayına qayıdıb onun çevrəsinə qatılsın.

Makron 2013-cü ildən başlayaraq, Parisdəki əsas lobbi agentliklərindən biri olan Tilder agentliyinin rəhbəri Matias Leridonun köməyi ilə Fransanın məşhur şirkətlərinin böyük patronlarını mütəmadi olaraq şam yeməyinə dəvət edir. Matias Leridon həm də Medef (Fransadakı bütün şirkətlərin həmkarlar birliyi. Missiyası şirkətlərin marağını qorumaqdır) təşkilatının prezidenti Pier Qatt azın kommunikasiya üzrə müşaviridir. Bazar axşamlarında təşkil etdiyi bu görüşlərdə Makron iclas iştirakçılarının qarşısında prezident Fransua Hollandı tənqid etməkdən çəkinmir və iddia edir ki, ölkədə əldə edilən bir çox iqtisadi uğurların müəllifi şəxsən onun özüdür. Fransua Hollandın beş illik oxuyublar. Keçmiş baş nazir Villpəntin uşaqları, eləcə də keçmiş Baş nazir Balladürün nəvələri də hazırda bu liseydə təhsil alırlar.

Paris burjuaziyasının övladlarının oxuduğu katolik təmayüllü bu təhsil ocağı, əsli Amiən şəhərindən olan, özü də burjua ailəsindən çıxmış Brijit Makrona tam uyğun gəlir. Gələcək birinci xanım siyasi ideyalarını heç kimdən gizlətmir və harada gəldi deyir ki, 2007 və 2017-ci illərdə prezident seçkiləri zamanı o, Nikola Sarkoziyə səs verib. Emmanuel də arvadından geri qalmır. Brijit Franklin küçəsindəki San-Lui-dö-Qonzaq liseyinə müəllim düzələndən bir il sonra o, Rotşild müəssisəsində investisiya bankiri təyin olunur. Fransız kapitalizminin döyünən ürəyi olan bu bank David dö Rotşild tərəfindən idarə olunur. Bu sonuncunun telefon kitabçası sağçılar partiyasının üzdə olan adamlarının nömrələri ilə doludur (Bax: Müəmmalı cənab Makron). Parisin 8-ci rayonunda, Monso parkının iki addımlığındakı Messin prospektində yerləşən bu nüfuzlu bank ingilis klubuna oxşayır – orada nadir hallarda qadın görə bilərsən.

Məhz elə o zaman Makron cütlüyü Avropanın ən varlı iş adamı – qlobal LVMH lüks liderinin və Carrefour qrupunun sahibi Bernard Arno ilə tanış olur. Franklin küçəsindəki məktəbdə, Brijit milyarder Arnonun üç oğluna – Aleksandra, Frederikə və Jana fransız dili dərsi deyir. "Brijit əvəzolunmaz bir müəllimdir", – deyə uşaqlarının dərsləri ilə ciddi şəkildə maraqlanan Bernard Arno hər yerdə Emmanuel Makronun arvadını ağızdolusu tərifləyir. Fransa milyonerlərinin dünyası kiçik bir dünyadır – hamı bir-birini yaxşı tanıyır. Ona görə də təbii olaraq, Bernard Arnonun uşaqlarının əvəzolunmaz fransız dili müəlliməsinin sayəsində, onun əri Emmanuel Makron tezliklə Avropanın bu ən məşhur və ən güclü milyarderi ilə tanış olur. Onu da qeyd edək ki, Bernard Arno Rotşild bankının sahibi David dö Rotşild ilə yaxın dostdur. Bundan başqa, Bernard Arno hansı siyasi partiyanı dəstəklədiyini heç vaxt və heç kimdən gizlətməyib. O, həmişə sağçılara səs verib və həm də Nikola Sarkozinin Sesiliya ilə toyunda, Martin Buyq (fransız milyarderi, Buyq Telekom şirkətinin rəhbəri) ilə birlikdə onların şahidi olub. Tanışlıq zamanı gənc Emmanuel Makron özünü milyarderə sevdirə bilir.

**(ardı var)**

# İqtisadi islahatlar və sosial cəmiyyətin dayanıqlı inkişafı

**(əvvəli 1-ci səhifədə)**

Əlavə dəyərin 35,9 faizi sənaye, 10,7 faizi ticarət, 7 faizi nəqliyyat, 6,7 faizi tikinti, 5,7 faizi kənd təsərrüfatı, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə, 19,9 faizi isə digər sahələrdə istehsal edilib. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,8 faizi qədər olub.

Son illər ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayedə yeni istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Eyni zamanda, iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində görülən mühüm işlər sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanşı, qeyri-neft sektorunun inkişafına da mühüm töhfələr verir.

Bu baxımdan 2024-cü il də ölkə sənayesi üçün dinamik inkişaf dövrü kimi xarakterizə oluna bilər. Dövlət Statistika Komitəsinin məlumatına görə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən hesabat ilində 64,1 milyard manatlıq və ya 2023-cü illə müqayisədə 1,1 faiz çox sənaye məhsulu istehsal edilib. Neft–qaz sektorunda məhsul istehsalı 0,5 faiz, qeyri– neft–qaz sektorunda isə 7,3 faiz çoxalıb. Sənaye məhsulunun 64,3 faizi mədənçıxarma, 29,8 faizi emal, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub.

İstehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilib, əvvəlki dövrlərdə yaranan ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 yanvar 2025-ci il vəziyyətinə 746 milyon manatlıq hazır məhsul olub.

Kənd təsərrüfatı bitkilərinin yığımı başa çatıb. 2024-cü ildə qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 277 min ton və ya 2023-cü ilə nisbətən 0,9 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 839 min ton (0,7 faiz çox) tərəvəz, 1 milyon 318 min ton (4,5 faiz çox) meyvə və giləmeyvə, 490,6 min ton (11,9 faiz çox) bostan məhsulları, 307 min ton (11,1 faiz çox) pambıq, 289,1 min ton (31,5 faiz çox) şəkər çuğunduru, 31,2 min ton (6,6 faiz çox) günəbaxan, 6,5 min ton (2,2 faiz çox) tütün yığılıb.

2024-cü ildə diri çəkidə 659 min ton ət, 2 milyon 298 min ton süd, 14,8 min ton yun, 239,4 ton barama istehsal olunub. 2023-cü illə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 0,6 faiz, yumurta istehsalı 5,1 faiz çoxalıb. 2023-cü illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,5 faiz, o cümlədən heyvandarlıq məhsulları istehsalı 1,7 faiz, bitkiçilik məhsulları istehsalı 1,1 faiz artıb.

Ölkəmizin qeyri – neft ixracı ötən il 2023-cü illə müqayisədə 0,3 faiz artaraq 3,4 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə yeyinti məhsullarının ixracı 11,3 faiz artaraq 1,03 milyard dollara bərabər olub.

Keçən il ərzində ixrac olunan məhsullardan şəkər və şəkərdən hazırlanan qənnadı məhsulları 62,4 faiz artaraq 38,5 milyon dollar, pambıq lifi 45,2 faiz artaraq 178,2 milyon dollar, bitki mənşəli yağlar və piylər 32,8 faiz artaraq 28,9 milyon dollar, qiymətli metallar 29,2 faiz artaraq 215,3 milyon dollar və kimya sənayesi məhsulları 18,3 faiz artaraq 293,7 milyon dollar təşkil edib.

Hesabat ilində aqrar məhsulların ixracı 2,8 faiz artaraq 789,4 milyon dollara, aqrar –sənaye məhsullarının ixracı isə 57,3 faiz artaraq 316,1 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar–sənaye məhsullarının birgə ixracı 14,1faiz artaraq 1,11 milyard dollar olub.

Hesabat dövrü ərzində aqrar məhsullar 4,4 faiz (701,7 milyon dollar), aqrar-sənaye məhsulları 58,3 faiz (287,3 milyon dollar)




çoxalıb. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 15,9 faiz artaraq 988,9 milyon dollar təşkil edib. Bu sahədə ən yüksək gəlir pambıq mahlıcı ixracından əldə olunub. Belə ki, son bir ildə bu növ məhsulun ixrac dəyəri 63,3 faiz artaraq 160,4 milyon ABŞ dolları təşkil edib.

Qeyd edək ki, 2024-cü ildə Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 176 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 120 ölkəyə məhsul ixrac olunub, 167 ölkədən idxal edilib. Gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla hesabat dövründə xarici ticarət dövriyyəsi 42 milyard 814 milyon dollar, o cümlədən ixracın dəyəri 24 milyard 42 milyon dollar, idxalın dəyəri 18 milyard 772 milyon dollar təşkil edib, nəticədə 5 milyard 270,3 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb. 2023-cü ilin yanvar–noyabr ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 1,1 faiz artıb, real ifadədə 3,1 faiz, o cümlədən ixrac 5,4 faiz azalıb, idxal isə 0,6 faiz artıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 87,1 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, ABŞ, Almaniya, Avstraliya, Çexiya, Hindistan, Xorvatiya, İsrail, Gürcüstan, Bolqarıstan, Portuqaliya, Birləşmiş Krallıq, İran, Yunanıstan, Rumıniya, Belarus, İsveçrə, Qazaxıstan və Ukrayna ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18 faizi Çinin, 17,6 faizi Rusiyanın, 11,2 faizi Türkiyənin, 7,3 faizi ABŞ-nin, 6,4 faizi Avstraliyanın, 4 faizi Almaniyanın, 3 faizi İranın, 2,5 faizi İtaliyanın, 2,2 faizi Belarusun, 2 faizi Yaponiyanın, 1,9 faizi Koreyanın, 1,6 faizi Qazaxıstanın, 1,5 faizi Türkmənistanın, 1,4 faizi Ukraynanın, 1,3 faizi Birləşmiş Krallığın, 1,2 faizi İsveçrənin, hər biri 1,1 faiz olmaqla Fransa və Hindistanın, 1 faizi Özbəkistanın, hər biri 0,9 faiz olmaqla Braziliya və Kanadanın, 11,9 faizi isə digər ölkələrin payına düşüb.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz məhsullarının, meyvə və tərəvəzlərin, plastik kütlə və ondan hazırlanan məmulatların, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin, qara metallar və onlardan hazırlanan məmulatların, alkoqollu və alkoqolsuz içkilərin, şəkərin, bitki yağlarının payı üstünlük təşkil edib.

2024-cü ilin yanvar-noyabr aylarında muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 8,0 faiz artaraq 996,8 manat təşkil edib.

2024-cü ildə əhalinin gəlirləri nominal ifadədə 2023-cü illə müqayisədə 6,4 faiz artaraq 83,1 milyard manat olmuşdur. Maliyyə Nazirliyinin operativ məlumatlarına əsasən, 2024-cü ildə dövlət büdcəsinə 37164,2 milyon manat vəsait daxil olub, büdcədən 37719,7 milyon manat vəsait xərclənib, büdcənin icrasında 555,5 milyon manatlıq kəsir yaranıb.

## Ələt – Astara dəmir yolu yenidən qurulur

**Cari ildə Ələt – Astara dəmir yolunun layihələndirilməsi üzrə işlərin aparılması nəzərdə tutulur. Bu barədə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.**



Qeyd olunub ki, 2024-cü ildə bu istiqamətdə bir sıra işlər görülüb. İl ərzində Ələt–Astara dəmiryol xətti üzrə elektrik təchizatı və rabitə-işarəvermə sistemlərinin konseptual layihələndirmə işləri, eləcə də Qasımlı – Liman mənzilinin 131-ci kilometrliyində yerləşən körpünün tikinti-quraşdırma işləri başa çatdırılıb. Hazırda test işləri aparılır. Bu istiqamətdə işlər 2025-ci ildə də davam etdiriləcək.

Xatırladaq ki, Prezident İlham Əliyevin təsdiq etdiyi Azərbaycan ərazisindən keçən beynəlxalq dəhlizlərlə bağlı Fəaliyyət Planına əsasən, 2024-2026-cı illərdə Ələt–Osmanlı–Astara dəmir yolunun yenidən qurulması planlaşdırılıb. Eyni zamanda, bununla bağlı 2026-cı ildə Biləcəri stansiyasının çeşidləmə parkında 3-cü dəstənin dartı yollarının və yoldəyişdiricilərin əsaslı təmiri nəzərdə tutulub.

## İllik elektrik gücü – 26,7 milyard kVt-saat

**Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Azərbaycanda su ilə işləyən stansiyalar 2,9 milyard kVt-saat (2023-cü ildəki göstərici ilə müqayisədə 72,6 faiz çox) elektrik enerjisi istehsal edib. Bu dövrdə istilik elektrik stansiyalarında isə 22,3 milyard kVt-saat (2023-cü ilə nisbətən 2,5 milyard kVt-saat və ya 10,3 faiz az) elektrik enerjisi istehsal olunub. Eyni zamanda 2024-cü il ərzində ölkədə tullantıların yandırılmasından 201,6 milyon kVt-saat (2023-cü illə müqayisədə 5,6 faiz çox) elektrik enerjisi istehsal olunub.**

Qeyd edək ki, Azərbaycanda 2024-cü il ərzində 26,7 milyard kVt-saata yaxın elektrik enerjisi istehsal edilib ki, bu da bir il əvvələ nisbətən 8,7 faiz azdır. Ümumilikdə isə, ölkədə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 2024-cü ildə 1 milyard 321 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib.



## Milli iqtisadiyyatımız 3,3 faiz böyüyəcək

**Mərkəzi Bankın sədri Taleh Kazımov rəhbərlik etdiyi qurumun faiz dəhlizinin parametrləri ilə bağlı qərarına həsr olunan mətbuat konfransında cari il ölkə iqtisadiyyatının 3,3 faiz, o cümlədən qeyri–neft–qaz iqtisadiyyatının 5,2 faiz böyüyəcəyinin proqnozlaşdırıldığını bildirib.**



Xatırladaq ki, İqtisadiyyat Nazirliyi bu il ölkədə 3,5 faiz, o cümlədən qeyri–neft–qaz sektoru üzrə 4,9 faiz iqtisadi artım gözləyir.

“Bizim proqnozlarımıza görə, 2025-ci ildə neftin 1 barelinin orta qiyməti 77,3 ABŞ dolları, təbii qazın 1000 kubmetrinin qiyməti isə 349 ABŞ dolları olacaq. Ötən il Azərbaycanın xarici ticarət balansında 5,5 milyard ABŞ dolları profisit olub. Bizim isə cari əməliyyatlar balansının profisiti ilə bağlı proqnozumuz 5,3-5,5 milyard ABŞ dolları idi”, – deyə sədr əlavə edib.

## Yarmarkalar paytaxta 303 ton məhsul çatdırıb

**2024-cü ildə paytaxtda təşkil olunan “Kənddən şəhərə” və arıçılıq məhsullarının sərgi-satış yarmarkalarında 50 bölgədən 422 fermer öz məhsullarını satışa çıxarıb.**



Kənd Təsərrüfatı Nazirliyinin məlumatına görə, yarmarkalarda fermerlər tərəfindən alıcılara müxtəlif çeşiddə 300-dən çox kənd təsərrüfatı məhsulu təqdim olunub. İl ərzində, ümumilikdə, 303,5 ton məhsulun satışı həyata keçirilib. Kiçik və orta fermer təsərrüfat sahibləri ilə yanaşı, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı ilə məşğul olan 2 kooperativ qrup və 4 şirkətin yarmarkada iştirakı da təmin edilib.

Yarmarkaların təşkilində əsas məqsəd fermerlər üçün alternativ satış kanalı yaratmaq və şəhər sakinlərinin kənd təsərrüfatı məhsullarına olan tələbatını daha dolğun təmin etməkdən ibarət olub.

## Ölkəmizin tranzit daşımalara töhfəsi

**2024-cü yanvar-noyabr aylarında Azərbaycan ərazisindən keçən nəqliyyat dəhlizləri vasitəsilə 30 milyon 254,8 min ton yük daşınıb. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1 faizə yaxın artım deməkdir.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, yüklərin 13 milyon 906,7 min tonu və ya 46 faizi dəmir yolu nəqliyyatı, 9 milyon 105,4 min tonu və ya 30,1 faizi avtomobil nəqliyyatı, 7 milyon 242,7 min tonu və ya 23,9 faizi isə dəniz nəqliyyatı ilə daşınıb. Hesabat dövründə dəhlizlər vasitəsilə daşınmış yüklərin 17 milyon 245,6 min tonunu və ya 57 faizi tranzit yüklər təşkil edib.

## Gəmilərimiz ölkəmizdə təmir edilir

**“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyətinin balansında olan gəmilərin işlək vəziyyətdə saxlanılması üçün təmir işlərinə xüsusi diqqət yetirilir. Ötən il qurumun tərkibində fəaliyyət göstərən “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu, eləcə də “Bibiheybət” Gəmi Təmiri Zavodunda, ümumilikdə, 1088 gəmi təmiri əməliyyatı aparılıb.**



ASCO-dan verilən məlumata görə, təmir işlərindən 870-i səfərlərarası naviqasiya təmiri, 8-i əsaslı, 20-si tərsanə, 1-i cari olmaqla 899-u “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunun, 100-ü səfərlərarası naviqasiya, 17-si əsaslı, 54-ü tərsanə, 18-si cari olmaqla 189-u isə “Bibiheybət” Gəmi Təmiri Zavodunun payına düşüb. İl ərzində təmirə dayanan gəmilərdən 27-si kənar təşkilatlara aid olub. Ümumilikdə isə, son 5 ildə ASCO-nun gəmi təmiri zavodlarında 4707 gəmi təmiri işi yerinə yetirilib. Həmin gəmilərin 195-i kənar təşkilatlara məxsus olub.

Qurumdan bildiriblər ki, gəmilərin təmiri müvafiq registr təşkilatlarının və beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq həyata keçirilir. Təmir zamanı gəmilərin gövdələri təmizlənir, əsas və köməkçi mühərrikləri müasir, daha az tullantılı, ətraf mühitə daha az təsirə malik olan mühərriklərlə əvəzlənir. Yeri gəlmişkən, 2018-2023-cü illər ərzində 558 gəminin gövdəsi təmizlənib, 105 ədəd köməkçi, 16 ədəd əsas mühərrik alınaraq gəmilərə quraşdırılıb.

Ölkənin nəhəng tərsanələrində təmir işlərinin keyfiyyətinin yüksəldilməsi və təmir prosesinin sürətinin artırılması məqsədilə infrastruktur davamlı müasir tələblər səviyyəsində təkmilləşdirilir və inkişaf etdirilir. Gəmi təmiri prosesinin səmərəliliyinin artırılması istiqamətində də davamlı optimallaşdırılma işləri aparılır. Ötən müddətdə gəmilərin təmir prosesinə elektron nəzarətin həyata keçirilməsi, gəmi təmiri üçün tələb olunan ehtiyat hissələri və mal-materialın planlaşdırılması, işlərin gəmi təmiri prosesinin hər bir addımında təsdiqlənmiş plana əsasən vaxtında və büdcə daxilində həyata keçirilməsinə nəzarəti gücləndirmək məqsədilə “Gəmi təmirinin izlənilməsi” sistemi tətbiq edilib. Optimallaşdırılma işləri çərçivəsində SAP ERP sisteminin PM – gəmi təmiri və texniki xidmətin planlaşdırılması modulu müvəffəqiyyətlə istifadəyə verilib.

Qeyd edək ki, ASCO bütün əməliyyat və proseslərdə olduğu kimi, gəmi təmiri sahəsində də ətraf-mühitin qorunması, enerji səmərəliliyinin artırılması məsələlərini daim diqqətdə saxlayır, bu istiqamətdə dünyada mövcud olan innovativ yenilikləri araşdıraraq tətbiq edir. Ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi istiqamətində atılan addımların davamı kimi ötən il ASCO-nun “Bibiheybət” Gəmi Təmiri Zavodunun istehsalat sexlərinin birinin damında 512 kvadratmetr ərazidə hər biri 690 Vt olmaqla 162 ədəd günəş paneli quraşdırılıb.

Hazırda hər iki zavodda geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndislik xidmətləri təqdim edilir. Bundan əlavə, 2017-ci ildən “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodu müvafiq sertifikatlaşma keçməklə, gəmi tikintisi xidmətləri də təqdim etməyə başlayıb. Ötən müddətdə burada 5 ədəd kiçik su tutumlu yedək gəmisi – “ASCO 1”, “Tərtərçay”, “Həkəriçay”, “Bərgüşadçay” və “Azıx” gəmisi tikilərək təhvil verilib. 2025-ci ildə bu seriyadan olan daha bir ədəd gəminin təhvili planlaşdırılır.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Gəncə Dövlət Universiteti dünənki ali məktəb deyil

**Gəncə Dövlət Universitetinin tarixinə qısaca nəzər salaq. Bu ali təhsil ocağı 1938-ci ildə ikiillik Gəncə Müəllimlər İnstitutu kimi fəaliyyətə başlamışdır. Gəncədə belə bir ali təhsil məktəbinin yaradılması müəllim kadrlarına ehtiyacın ödənilməsini təmin etməklə bağlı olmuşdur. 1943-cü ildən etibarən təhsil ocağı yenidən qurularaq onun bazasında tam ali təhsil verən, yüksək ixtisaslı müəllim kadrları hazırlayan Həsən bəy Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu yaradılmışdır. 13 iyun 2000-ci il tarixdə ulu öndər Heydər Əliyevin sərəncamına əsasən bu ali təhsil müəssisəsinə universitet statusu verilmişdir. Hazırda universitetin 7 fəxri doktoru (5-i xarici, 2-si yerli) və 23 fəxri professoru vardır.**



Universitetin tarixinə nəzər yetirdikdə görürük ki, hər ötən il özü ilə yeniliklər gətirib. Bu yeniliklərin bir qismi ayrı-ayrı fakültələr, şöbələrlə bağlı olsa da, elə faktlar var ki, universitet həyatını bütövlükdə əhatə edir.

Hazırda universitetin 6 tədris binası, Ümummilli liderin adını daşıyan Heydər Əliyev məktəbi, Aleksandr Düma adına Mədəniyyət Mərkəzi, İnklüziv Təhsil Mərkəzi, fiziki qüsurlu tələbələr üçün Təlim Mərkəzi, Elektron öyrənmə, Müasir Təlim Mərkəzi, Tələbə Ombudsman Mərkəzi, Mediasiya Mərkəzi, Keyfiyyətin Təminatı Mərkəzi, Tyutor Mərkəzi, Yunus Əmrə adına mühazirə otağı, TİKA-nın dəstəyi ilə Nuru Paşa adına kitabxana, STEAM laboratoriyası, yeni tədris və tədqiqat laboratoriyaları, müasir standartlara uyğun Tələbə Evi və İdman klubu fəaliyyət göstərir. 2023/2024-cü tədris ilində isə universitetin 6-cı tədris binası istifadəyə verilmişdir.

İnkişafı rəqəmlərlə də ifadə edək. Gəncə Dövlət Universitetində təhsil alan tələbələrin sayı son 10 ildə 4 mindən 8 minə qədər yüksəlib. Hazırda burada 7mindən çox tələbə bakalavriat, 650-dən çox gənc magistratura səviyyəsində təhsil alır.

Bir vaxtlar yalnız pedaqoji ixtisaslar üzrə kadr hazırlayan universitetdə indi müxtəlif istiqamətlərə aid bakalavriat səviyyəsi üzrə 45 ixtisas, magistratura səviyyəsi üzrə 36 ixtisas üzrə 65 ixtisaslaşmaya aid kadrlar hazırlanır, 33 doktorant və 32 dissertant elmi-tədqiqat işlərinə cəlb olunur.

Gəncə Dövlət Universitetini seçən əcnəbi tələbələrin sayında da artım müşahidə olunur. Hazırda universitetdə 68 nəfər əcnəbi tələbə təhsil alır. Tələbələr arasında daha çox Türkiyə, Gürcüstan və Rusiya vətəndaşları üstünlük təşkil edir. Bununla yanaşı, universitetdə təhsil almağı seçən əcnəbi tələbələr arasında Türkmənistan, Qırğızıstan, Qazaxıstan, Ukrayna və Moldova vətəndaşları da var.

Ali təhsil müəssisələrində aparılan elmi-tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılması məqsədilə bir çox işlər icra olunmuş, nəticədə respublikamızın qərb bölgəsində ən böyük ali təhsil müəssisəsi olan Gəncə Dövlət Universiteti “Web of Science Azerbaijan – 2018” mükafatlarının təqdimetmə mərasimində “Ən yüksək sürətlə inkişaf edən region universiteti” mükafatına layiq görülmüşdür.




2017-ci ildə universitetdə müasir idarəetmə sisteminə uyğun olaraq strukturun optimallaşdırılması məqsədilə İnnovasiyalar Departamenti və onun nəzdində 5 şöbə yaradılmış, 3 şöbə departamentin tərkibinə verilmişdir. Rektor Yusif Yusibovun müvafiq əmri ilə İnnovasiyalar Departamentinin yaradılması elmi ictimaiyyətdə çox önəmli bir strateji missiya kimi qəbul edilir.

Bu illərdə universitetin beynəlxalq əlaqələri nəzərəçarpacaq dərəcədə genişlənmişdir. Qeyd edək ki, universitetin tarixi ərzində heç vaxt dünya dövlətləri ali məktəblərinə bu qədər yaxınlıq, əlaqə olmayıb.

2018-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə Fransanın Ot-Alzas Universitetində Məhsəti Gəncəvi Mərkəzi və Nizami Gəncəvi adına Azərbaycan dili kafedrası açılmışdır. Ot-Alzas Universitetinin təşəbbüsü ilə Gəncə Dövlət Univesitetinin 5-ci tədris binasında Aleksandr Düma adına Fransa Mədəniyyət Mərkəzi yaradılmışdır.

Universitetdə görülən səmərəli işlərdən biri də müasir standartlara uyğun yeni laboratoriyaların yaradılması və zənginləşdirilməsi. “Kimyəvi materialşünaslıq” elmi-tədqiqat, STEAM, digər elmi-tədqiqat laboratoriyalarının açılması son illərin uğurlu işlərindəndir.

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" əsas götürülərək Gəncə Dövlət Universitetində Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi yaradılmışdır.

Prezident İlham Əliyevin tapşırığı ilə 2020-ci ildə Azərbaycanda ilk dəfə olaraq Gəncə şəhəri Avropa Yenidənqurma və İnkişaf Bankının "Yaşıl Şəhər"lər proqramına daxil edilmişdir. Həmin layihədə dünyada ilk dəfə olaraq Gəncə Dövlət Universiteti tərəfdaş qismində iştirak edir.

Gəncə Dövlət Universitetinin dünyanın nüfuzlu ali məktəbləri ilə ikitərəfli əməkdaşlıq əlaqələri uğurla davam edir. Universitetin İtaliya Respublikasının Urbino, Sloveniyanın Nova Gorika, Rumıniyanın Galati, Macarıstanın Debrecen, İspaniya Krallığının UCAM Mursiya, Niderland Krallığının Niderland Biznes Akademiyasının, Moskva Dövlət Mədəniyyət İnstitutu, eləcə də Türkiyə Cümhuriyyətinin Gazi, Sivas, İstanbul və İzmir Dokuz Eylül universitetləri ilə fəal ikili müqavilələri mövcuddur.

Təhsil sisteminin Boloniya proqramı üzrə qurulması universitetin Avropa təhsil sisteminə inteqrasiyasını sürətləndirmiş, tədrisin müasir tələblər səviyyəsində qurulmasına imkan yaratmışdır. Nəticədə universitetin onlarla tələbə və müəllimi öz təhsilini xarici ölkə universitetlərində təkmilləşdirmişdir. Bir neçə il bundan öncə Gəncə Dövlət Universiteti Türkiyənin “Mövlana” mübadilə proqramına qoşulmuşdur. Giresun, Fırat universitetlərində mübadilə proqramı çərçivəsində təhsil almaq imkanı əldə etmişlər.

Gəncə Dövlət Universitetinin Fransanın Strasburg-2 və Şampan Arden universitetləri ilə əməkdaşlığı mühüm əhəmiyyət kəsb edir. Bu əlaqələrə əsasən, universitetin fransız dili kafedrasının 11 nəfər müəllimi Besançon şəhərindəki Tətbiqi Dilçilik Mərkəzində pedaqoji təcrübə keçmişdir. 2015-ci ildə Fransanın Ot-Alzas Universitetində Nizami Gəncəvi adına ədəbiyyat və mədəniyyət kafedrasının açılış mərasimi olmuşdur.

Gəncə Dövlət Universitetinin alman dili kafedrası Bakıdakı Almaniya Federativ Respublikasının Səfirliyi, Alman Akademik Mübadilə Xidməti təşkilatı və Höte İnstitutunun təşəbbüsü ilə xaricdə təhsil imkanları üzrə treninq-seminarlar, eləcə də imtahanlar keçirir. 44 günlük Vətən müharibəsi zamanında da qardaş Türkiyənin universitetləri Azərbaycanın yanında olmuş, öz mənəvi dəstəklərini göstərmişlər.

Gəncə Dövlət Universiteti ilə Dokuz Eylül Universiteti arasında 2021-ci ildə imzalanan əməkdaşlıq müqaviləsinə əsasən, ikili diplom proqramının icrası üçün ilkin anlaşma, eyni zamanda, Avropa İttifaqının Erasmus+ KA107 və Mövlana proqramları çərçivəsində razılıq əldə olunub. Bununla yanaşı, bu əlaqələr sayəsində Dokuz Eylül Universitetində dahi Azərbaycan şairi Nizami Gəncəvi adına, Gəncə Dövlət Universitetində isə Türk dünyasının görkəmli şəxsiyyəti Yunus Əmrə adına mühazirə otaqları yaradılıb. Beynəlxalq akkreditasiyadan keçmiş biologiya ixtisası üzrə tədris alacaq tələbələr ilk iki ili Dokuz Eylül Universitesində, 2025/2026 tədris ilindən etibarən isə Gəncə Dövlət Universitetində təhsil alacaqlar. Növbəti tədris ilindən bu tələbələrə təqaüd ayrılacaq və onlar yataqxana ilə təmin olunacaqlar.

2024-cü ilin dekabr ayında GDU-nun rektoru Yusif Yusibovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə işgüzar səfəri çərçivəsində İstanbul Universiteti və Dokuz Eylül Universitetinin qonağı olmuşdur. Universitetlər arasında mövcud elmi əməkdaşlığı daha da möhkəmləndirmək məqsədilə keçirilən görüşdə Gəncə Dövlət Universiteti və İzmir Dokuz Eylül Universiteti arasında mövcud olan qarşılıqlı Anlaşma Memorandumu növbəti 3 il müddətinə artırılmışdır.

Gəncə Dövlət Universiteti Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası haqqında” sərəncamında qarşıya qoyulan hədəflərə çatmaq üçün həyata keçirilən bütün layihələrdə yaxından iştirak edir.

Dünyanın ən nüfuzlu reytinq təşkilatlarından biri olan “Times Higher Education” tərəfindən Banqkok şəhərində keçirilən Qlobal Davamlı İnkişaf Konqresi çərçivəsində “THE Impact Ranking” reytinqinin 2024-cü il üçün nəticələrinə görə Gəncə Dövlət Universiteti 4 istiqamət üzrə qiymətləndirilib.

Bununla yanaşı, dünya universitetlərinin reytinqinin əks olunduğu Round University Ranking 2024-cü ilin son reytinq hesabatına görə Gəncə Dövlət Universiteti də dünya universitetləri arasında qərarlaşıb. Qeyd edək ki, Round University Ranking universitetləri tədris keyfiyyəti, tədqiqat fəaliyyəti, beynəlxalq müxtəliflik, maliyyə dayanıqlığı və ümumi akademik göstəricilər daxil olmaqla müxtəlif amillər əsasında qiymətləndirir.



Gəncə Dövlət Universitetinin son illərdəki inkişaf dövrünə nəzər salsaq, infrastrukturun müasirləşdirilməsinin, ali məktəbin maddi-texniki bazasının zənginləşdirilməsinin şahidi olarıq. Son illərdə Gəncə Dövlət Universitetində görülən işlər göz oxşayır, universiteti daha baxımlı, daha yaraşıqlı göstərir. Aparılan təmir-tikinti işləri universitetin maddi-texniki bazasının möhkəmləndirilməsinə xidmət edir. Son illərdə tədris binalarında istilik sistemləri, binaların dam örtükləri, fasadları yenidən qurulmuş, binaların həyətlərində geniş abadlıq işləri görülmüş, idman meydançaları salınmışdır.

Bu yaxınlarda riyaziyyat-informatika fakültəsinin tələbələri üçün istifadəyə verilmiş ikimərtəbli binada 16 auditoriya, akt zalı, 5 kompüter otağı, kitabxana və oxu zalı var. Burada sanitar qovşaq, istilik sistemi müasir standartlara uyğun şəkildə yenidən qurulub, bütün kommunikasiya və internet xətləri, avadanlıqlar və yanğınsöndürmə sistemi yenilənib.

Ətraf mühitin qorunması amilləri Gəncə Dövlət Universitetinin 2023–2028-ci illər üçün olan strateji planında da əks olunmuş, “Yaşıl artım” prinsiplərinin dəstəklənməsi və iqlim dəyişikliyi ilə mübarizə aparılması məqsəd kimi qeyd edilmişdir.

2024-cü ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi və “Yaşıl dünya naminə həmrəylik ili”nin elan edilməsi ölkəmiz üçün çox əhəmiyyətli oldu. Gəncə Dövlət Universitetində də “Yaşıl dünya naminə həmrəylik ili” və COP29-la bağlı mütəmadi olaraq elmi-praktik konfranslar, dəyirmi masalar, tədbirlər keçirilmiş, təbiətin qorunmasına töhfə vermək, ətraf mühiti sağlamlaşdırmaq və yaşıllıqları artırmaq məqsədilə GDU rəhbərliyinin təşəbbüsü ilə ağacəkmə aksiyaları təşkil edilmişdir.

Gənclərin yaradıcılıq fəaliyyətinin dəstəklənməsi məqsədilə bir çox işlər icra edilmişdir. Gənc istedadların beynəlxalq səviyyəli festival, müsabiqə, yarış və yay məktəblərində iştirakı dəstəklənmiş, mədəniyyət və incəsənət sahəsində gənc istedadlar üçün festival, müsabiqə, yay məktəbi, ustad dərsləri, yaradıcılıq axşamları, konsert proqramları və digər tədbirlər təşkil edilmişdir.

Son illərdə tədris binalarında istilik sistemləri, binaların dam örtükləri, fasadları yenidən qurulmuş, binaların həyətlərində geniş abadlıq işləri görülmüş, idman meydançaları salınmışdır. Universitetin infrastrukturu müasirləşdirilmiş, tədris binalarında müvafiq tikinti işləri ilə yanaşı, əsaslı təmir işləri aparılmış və avadanlıqlarla təchiz edilmişdir.

Ötən il 15 Sentyabr Bilik Günündə ali təhsil ocağının 6-cı tədris binasının istifadəyə verilməsi professor-müəllim heyəti və tələbələr üçün böyük hədiyyə oldu. Riyaziyyat-informatika fakültəsinin tələbələri üçün nəzərdə tutulan binada təlim-tədrisin təşkili üçün hərtərəfli şərait yaradılıb. İkimərtəbli binada 16 auditoriya, akt zalı, 5 kompüter otağı, kitabxana və oxu zalı, sanitar qovşaq, istilik sistemi müasir standartlara uyğun şəkildə yenidən qurulub, bütün kommunikasiya və internet xətləri, avadanlıqlar və yanğınsöndürmə sistemi yenilənib.

Gəncə Dövlət Universitetində başqa sahələrdə olduğu kimi, idman sahəsi də rəhbərlik tərəfindən diqqət və qayğı ilə əhatə olunur. Universitetdə tələbələrin idmanla daha yaxından məşğul olmaları üçün hər cür şərait yaradılıb. İdmana göstərilən qayğının nəticəsidir ki, GDU respublika universitetləri arasında 5 ən yaxşı universitetlər sırasına seçilib. Hazırda GDU-nun tələbələri arasında 10 nəfər Avropa və dünya mükafatçısı, 10-dan artıq beynəlxalq turnirin qalibi və 20-dən çox respublika çempionu vardır.





Dövlətimizin başçısı cənab İlham Əliyevin 27 noyabr 2017-ci il tarixli sərəncamı ilə Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibovun Azərbaycan Respublikasında təhsilin inkişafındakı xidmətlərinə görə “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə, 2018-ci ildə Gəncə Dövlət Universitetinin 80 illik yubileyi ərəfəsində Azərbaycan Prezidentinin müvafiq sərəncamı ilə ali təhsil ocağının bir qrup əməkdaşının fəxri adlar və “Tərəqqi” medalı ilə təltif edilməsi GDU-nun zəngin inkişaf yoluna, ötən müddət ərzində xeyli sayda peşəkar kadrlar hazırlamasına verilən dəyərin bariz nümunəsidir. Eləcə də 2024-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibovun ümummilli lider Heydər Əliyev irsinin tədqiqi və təbliği, azərbaycançılıq ideyasının həyata keçirilməsi, ölkənin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında xidmətlərinə görə “Heydər Əliyevin 100 illiyi (1923–2023)” yubiley medalı ilə təltif olunması GDU ailəsinin hər bir üzvü tərəfindən ehtiramla və sevinclə xatırlanıb.

...Cəmi 3 ildən sonra 90 yaşını qeyd edəcək qocaman təhsil ocağı doğru yoldadır. Bu yol yüksək ixtisaslı, hərtərəfli biliklərlə əhatə olunmuş, kreativ, müasir kadrlar yetişdirmək yoludur.

*Hm let QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

**Gəncə**

# Gürcüstan ABŞ ilə münasibətləri bərpa etməkdə maraqlıdır

**Gürcüstanın baş naziri İrakli Kobaxidze X sosial şəbəkəsində ABŞ-ın ali vəzifəsinin icrasına başlayan prezident Donald Trampa təbrik məktubu unvanlamışdır. O, əmin olduğunu bildirmişdir ki, Ağ evdə yeni iqtidar dönəmində Gürcüstan–ABŞ münasibətləri normal məcraya düşəcək.**

Kobaxidze bundan əvvəl vurğulayıb ki, Gürcüstan ABŞ ilə münasibətləri keyfiyyətcə yeniləməyə və bu ölkə ilə strateji tərəfdaşlığı bərpa etməyə hazırdır: “Biz münasibətləri əhəmiyyətli dərəcədə bərpa etməyə, ABŞ ilə strateji münasibətləri sıfırdan yeniləməyə hazır olduğumuzu və bunu istədiyimizi bir daha təsdiqləyə bilərik. Ümid edirik ki, bu istiqamətdə mühüm uğurlarımız olacaq”.

Parlamentin xarici əlaqələr komitəsinin sədri Levan Maxaşvili qeyd edib ki, Tramp həm ənənəvi dəyərlərin qorunması məsələsində, həm də “dərin dövlət”ə qarşı mübarizədə “Gürcü Arzusu” ilə həmfikirdir: “Gürcüstanla ABŞ arasında münasibətlərin bərpasına ümid verən fundamental aspektlər olduğumu düşünürəm, çünki bu rolu yerinə yetirəcək başqa heç kim yoxdur. Əgər mən siyasi partiyanın lideri olsam, düşünmürəm ki, “ölkənin səsi” olmağa davam edə bilərəm. Bu səbəbdən indi yox, gələcəkdə partiya yarada bilərəm”.



Kobaxidze həmçinin qeyd edib ki, son 4 il bütün dünyada çətin olub və Gürcüstanda 4 inqilab cəhdi baş verib. Baş nazir Trampın hakimiyyətdə olacağı 4 ilin sakit keçəcəyinə ümid etdiyini və bunun ölkəsinə də müsbət təsir göstərəcəyini vurğulayıb: “Prezident Trampın çox iddialı planı var – bu, “dərin dövlət”in yaradılması üzərində qələbə qazanmaq planıdır. Ona uğurlar arzulayırıq. Bu işdə qələbə Gürcüstan–Amerika münasibətlərinin normallaşması üçün həlledici əhəmiyyət kəsb edəcək”.

Parlamentdə “Gürcü Arzusu” fraksiyasının sədri və partiyanın icra katibi Mamuka Mdinaradze isə Bayden administrasiyasını həm ABŞ, həm də Gürcüstan üçün ən zərərli administrasiya kimi qiymətləndirib. O bildirib ki, əgər Tramp “dərin dövlət”i məğlub edə bilsə, Gürcüstanın tərəfdaşları ilə əlaqələri bərpa etməsi və əməkdaşlığını yenidən gücləndirməsi xeyli asan olacaq. Onun fikrincə, Trampın andiçmə mərasimindəki çıxışında Gürcüstan hakimiyyətinə yaxın mövqeləri, xüsusən də yalnız 2 cinsin–kişi və qadının mövcudluğunu bəyan etməsi 2 ölkəni yaxınlaşdıra bilər: “Tramp son 3 il ərzində tənqid etdiyimiz hər şeyi dəstəklədi. Bunlara suverenlik, ölkənin ləyaqəti və yalnız 2 cinsin olması daxildir. Onun bizim önəm verdiyimiz mövzulara xüsusi diqqət yetirdiyini hamı gördü”.

Trampın andiçmə mərasimində özünü hələ də Gürcüstan prezidenti hesab edən keçmiş dövlət başçısı Zurabişvilinin təmsil olunduğunu nəzərə alsaq, iqtidarın Tramp administrasiyası ilə münasibət qurması o qədər də asan olmayacaq. Bu gün Amerika–Gürcüstan münasibətlərinin yaxşılaşdırılmasının yaxın dövr perspektivləri qeyri-müəyyən görünür.

Yada salaq ki, Zurabişvili Gürcüstanda seçkilərin nəticələrini – nə parlament, nə də prezident seçkilərini tanımır və özünü ölkədəki qanuni hakimiyyətin yeganə nümayəndəsi hesab edir. Qərbdə də onu Gürcüstanın prezidenti kimi görürlər. Bu, Gürcüstanın ABŞ və digər Qərb dövlətlərlə münasibətlərinin yaxşılaşmasına mane olur.

Bəs Trampın prezidentliyi dövründə Gürcüstanda nə dəyişə bilər? Bu barədə politoloq Zaal Andcaparidze deyib: “Andiçmə mərasimindən sonra müxalifət və “Gürcü Arzusu”nun addımları daha çox Tramp administrasiyasının hərəkətlərindən asılı olacaq. “Gürcü Arzusu” ilə müxalifət arasında informasiya müharibəsi daha da şiddətlənəcək. Qərbdə kompromis addımı uğursuzluq kimi qəbul etmirlər, amma Gürcüstanda, təəssüf ki, fərqli siyasi reallıq var. Ona görə də tərəflər arasında kompromis və ya dialoqun olacağına şübhə ilə yanaşıram. Bu, Gürcüstanda vəziyyəti gərginləşdirir”.

Politoloq daha sonra deyib: “Şübhəsiz ki, etirazlar davam edəcək. Çünki bu dinamikanı saxlamaq kollektiv müxalifətin kənardan aktiv yardım almaq üçün əsas amildir. Etirazlar dayansa, Qərb düşünəcək ki, böhran səngiyib və ABŞ-ın Gürcüstana münasibəti dəyişəcək. Bu, 2 ölkə arasında yaxınlaşmaya və münasibətlərin normallaşmasına səbəb ola bilər. Amma bu, asan olmayacaq”.

Çünki Gürcüstan hakimiyyətinin ümidləri Trampın siyasi baxışlarının ümumi xarakterinə əsaslanır. O, dünya miqyasında qlobalistlərə və liberal gündəmin tərəfdarlarına qarşı siyasət həyata keçirməyə hazırlaşır. Hazırkı Gürcüstan hakimiyyəti kimi ənənəvi, ailə və xristian dəyərlərini müdafiə edir və dağıdıcı ictimai-siyasi tendensiyaları qəbul etmir. Bu, Ağ evin əvvəlki sahibinin (Co Bayden) siyasəti ilə müqayisədə, bu gün kiçik də olsa, bir ümid yaradır. Bunun üçün Vaşinqtonla ən yaxşı şəkildə necə münasibətlər qurmaq imkanlarını maksimuma çatdırmağı və riskləri minimuma endirməyi anlamaq vacibdir.

Beləliklə, “Gürcü Arzusu” indi topun Amerikanın meydanında olduğunu və həm münasibətlərin bərpasının, həm də Bayden administrasiyasının bir sıra gürcü rəsmilərə qarşı tətbiq etdiyi sanksiyaların ləğvinin prezident Trampdan asılı olacağını bildirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Kobaxidze həmçinin ... (see above)

lər üzrə razılaşma var. Tramp “dərin dövlətii” dağıtmaq və Amerika bürokratiyasını onun təsirindən təmizləmək qərarına gəlib. Baxışlarımızın üst-üstə düşdüyü sahələrdən biri də budur. Bu halda söhbət qeyri-rəsmi təsirdən gedir ki, bu da çox vaxt dövlət institutlarının siyasəti ilə üst-üstə düşməyə bilər. Son illər bəlli oldu ki, bəli, Gürcüstanda və digər ölkələrdə bu təsir dövlətin maraqlarına uyğun gəlmir”.

İqtidar partiyasının təbriklərinə, ABŞ ilə münasibətləri normallaşdırmaq istəyinə baxmayaraq Trampın inauqurasiya mərasimində yalnız Gürcüstanın keçmiş prezidenti Salome Zurabişvili iştirak edib. Zurabişvilini mərasimə konqresmen Co Vilson dəvət edərək onu Rubio ilə tanış edib. ABŞ dövlət katibi ilə Gürcüstanın keçmiş prezidenti arasında söhbət bununla bitib, lakin sonradan Zurabişvili sosial şəbəkədə yazıb ki, o, Amerikanın yeni rəhbərliyinin Rusiya və Çin maraqlarına qarşı çıxmaqda fəal olacağına ümid edir.

Zurabişvili daha sonra bildirib ki, bu gün dünya səhnəsində ondan başqa “ölkənin səsi” ola biləcək heç kim yoxdur, lakin gələcəkdə siyasi partiya yarada bilər: “Bu gün mən indiki rolda daha faydalı

**Replika**

# Morfinizm

**“Ermənistandakı vəziyyət 30–35 il ərzində şüurlu və şüursuz edilənlərin nəticəsidir. Fakt budur ki, mən əvvəllər Ermənistanın özündə siyasi fəaliyyətlə məşğul olmuşam, partiyaya rəhbərlik etmişəm. O vaxt demişdim ki, gələcəklə bağlı virtual təsəvvürlər heç bir şəkildə reallıqla kəsişmir. Ola bilsin ki, mən bunu çətin başa salmışdım, amma düşünürəm ki, ağıllı insanlar məni başa düşməlidirlər. Dar düşüncəli insanlar hər şeyi başa düşmək məcburiyyətində deyillər, çünki onlar hələ də şüurlu deyil, emosional hərəkət edirlər. Fakt budur ki, virtual gələcəyə, virtual Vətənə sahib olmaq, fəth etmək, qalib gəlmək, bir nömrə olmaq, ən yaxşı olmaq, dünyanın ən qədim xalqı olmaq arzusunu ifadə etmək, böyük virtual Vətən üçün çalışmaq – bunların hamısı illüziyalardır. Bu, bir növ, siyasi və ya mədəni morfinizmdir. Mən buna məst olmaq deyərdim”.**



Nə qədər dəqiq ifadə olunub. Bunu bir il bundan əvvəl “KUPOL” Beynəlxalq Əməkdaşlığa Dəstək Fondunun Himayəçilik Şurasının sədri, erməni politoloq Sarkis Asatryan özünün “Facebook” səhifəsində yazıb.

“Ermənistan regional rabitə kanallarını açmağa hazırdır”. “Armenpress” xəbər verir ki, bunu Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Moskvada Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüşündə bildirib.

“Ermənistanın Cənubi Qafqazın iqtisadi cəlbediciliyini artırmaq kimi əzmkar niyyəti kontekstində mən ölkəmizin “dünyanın kəsişməsi” layihəsi çərçivəsində həyata keçirilməsi gözlənilən bütün nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı baxışını təsdiq etməkdən məmnunam”– deyən A.Mirzoyanın dilindən çıxanların gəlişigözəl sözlər olmadığına heç kim zəmanət verə bilməz. Çünki İrəvanın bu cür bəlağətli bəyanatlarla beynəlxalq ictimaiyyəti aldatmağa çalışması ilk dəfə deyil. Hayların “sülhün kəsişməsi” dedikləri bu layihə, əslində, nə dünyanın, nə də sülhün kəsişməsinə xidmət edir. Paşinyan iqtidarlının üçtərəfli bəyanatı imzaladıqdan 3 il sonra ortaya qoyduğu bu layihədə yeni heç nə yoxdur. Burada göstərilən 4 prinsip həmin üçtərəfli bəyanatda əksini tapan müddəaların fərqli formada təqdimatından başqa bir şey deyil.

Azərbaycan Prezidenti İlham Əliyev bildirib ki, onlar, ilk növbədə, Zəngilanla Ordubad arasındakı ərazidə bizə maneəsiz keçid verməlidirlər: “Bu, onların öhdəliyidir. Mən artıq demişəm, bir daha demək istəyirəm, Azərbaycandan Azərbaycana gedən yüklər, vətəndaşlar və avtonəqliyyat vasitələri heç bir yoxlamadan keçmədən, gömrük inzibatçılığına cəlb edilmədən sərbəst keçməlidirlər. O ki qaldı digər ölkələrin yüklərinə, əgər, məsələn, Orta Asiyadan Türkiyəyə bir yük Ermənistan ərazisindən göndərilirsə və hətta Azərbaycandan Türkiyəyə hansısa bir yük göndərilirsə, təbii ki, bütün gömrük rüsumları da ödənilməlidir. Yəni bu, çox ədalətli mövqedir”.

Rəsmi İrəvanın gah “dünyanın kəsişməsi”, gah da “sülhün kəsişməsi” adlandırdığı layihələri bundan əvvəlki təşəbbüsləri kimi, tamamilə saxta və absurddur. Məsələ o dərəcədə gərgin və ziddiyyətli mərhələyə qədəm qoyub ki, tərəflər Zəngəzur dəhlizinin açılması məsələsini sülh müqaviləsindən sonrakı müddətə saxlamağa qərar veriblər. Bu səbəbdən hazırda Ermənistan və Azərbaycan arasında müzakirə olunan sülh sazişinin mətnində dəhlizlə, kommunikasiya xətlərinin açılması ilə bağlı bir kəlmə də yoxdur. Bu məsələnin danışıqların predmeti olmaqdan kənarda qalmasının təqsirkarı məhz Ermənistandır.

Yazımıza nöqtəni Sarkis Asatryanın öz həmvətənlərinə ünvanladığı bu sözlərlə qoyuruq: “Əgər siz tarixdən yalnız nifrət çıxarıb qonşulara nifrətə əsaslanan cəmiyyət yaradırsınızsa, bu sizin mənəvi orqanizminizi zəhərləyir. Nifrətlə yaşayan xalqın gələcəyi yoxdur. Ermənilər qonşularına, xüsusən də Türkiyə və Azərbaycana qarşı nifrətdən qurtulmalıdırlar. Ermənistanın gələcəyini ancaq sülhdə görürəm, ən azı, qonşularla düşmənçiliklə yox”.

Həm bu ibrətamiz açıqlaması, həm də yalançı təşəbbüslərə “siyasi və ya mədəni morfinizm” kimi dəqiq ad verən Sarkis Asatryanla razılaşmamaq mümkün deyil...

***İ.HƏSƏNQALA***
***XQ***

# “Süni intellekt” dövründə media: təsirlər, təhdidlər və çıxış yolları

**Məlumatlandırma işi, informasiya istehsalı tarixən texnoloji tərəqqi ilə bağlı olub. İndi də belədir. Rəqəmsal transformasiya, onlayn informasiya resurslarının inkişafı, sosial media platformalarının çoxalması yaşadığımız dövrdə informasiya axınını sürətləndirir. Analitik mərkəzlər qeyd edirlər ki, indi hər gün dünyada təsəvvüredilməz səviyyədə çox, təqribən, 2,5 kvintilyon bayt həcmində məlumat yaradılır və yayılır. İnsanlar, hətta istəməsələr belə, hər gün yüzlərlə informasiya ilə qarşılaşır, oxuyur, görür və dinləyirlər.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Yeniliklərdən biri də budur ki, indiki cəmiyyət üzvləri özləri də xəbər istehsalçısı və ya xəbər mənbəyi rolunda çıxış edirlər. Rəqəmsal texnologiya xəbər alıcısını həm də xəbər istehsalçısına çevirir. İnteraktiv mühit yaradır, zaman və məkan fərqini aradan qaldırır. Xəbəri istənilən məkanda və istənilən zamanda əlçatan edir.

Modern texnologiyalar təkcə həvəskar xəbər istehsalçıları üçün deyil, peşəkar media təmsilçiləri, jurnalistlər üçün də şərtləri dəyişir. Xüsusi olaraq “Süni intellekt” (Sİ / Aİ) bu sahədə hüdudsuz imkanlar təqdim edir. O, faktları axtarmaq, məlumat toplamaq, reportaj hazırlamaq, ideyaların yayılmasını təmin etmək işində yeniliklər yaradır. Təkcə məlumatı tapmaq deyil, mətn qurmaq, dizayn etmək prosesində də rol alır. Bu kontekstdə yanaşsaq, son dəyişikliklər jurnalistikada texniki imkanlarla yanaşı, həm də iş mühitini, sosial şərtləri əsaslı şəkildə dəyişir. Bir sözlə, “Süni intellekt” qlobal informasiya landşaftında inqilabi dəyişikliklərə yol açır.

Bütün bu üstünlüklərlə yanaşı, “Süni intellekt” etimadlı informasiya əldə etmək hüququ baxımından problemlər yaradır. Rəqəmsal texnologiyalar dövründə gündəlik xəbər dövriyyəsi təkcə etibarlı, düzgün məlumatlardan ibarət deyil. “Yanlış xəbər”, “saxta xəbər”, “dezinformasiya” da xəbər dövriyyəsində böyük paya malikdir. Analitik mərkəzlər qeyd edirlər ki, “saxta xəbər”in qlobal informasiya dövriyyəsində gündəlik çəkisi 45–80 faiz aralığında dəyişir və dünya üçün ən aktual problemlərindən birinə çevrilir. “Saxta xəbər” insanları çaşdırır, səhv qərarlar verməsini, yanlış addımlar atmasını şərtləndirir: “Saxta xəbər”, “dezinformasiya” dünya üçün fəlakətə çevrilir”.

“Süni intellekt”in etmadlı xəbər istehsalı sahəsində yaratdığı problemlərin sayı çoxdur. Beynəlxalq sənədlərdə bu problemlər 10 bənd üzrə qruplaşdırılır. Buna rəğmən, 2 bənd üzərində xüsusi dayanılır. Birinci bənd “Süni intellekt”in dezinformasiya yaradıcılığı və yayılmasında rolunu ehtiva edir. Qeyd olunur ki, xəbər istehsalçısı faktların araşdırılması, məlumatın toplanılması üçün “Süni intellekt” proqramlarından yararlanarkən nəzərə almalıdır ki, bu proqramlar təkcə etimadlı mənbələri, doğru məlumatları deyil, həm də saxta xəbərləri, dezinformasiya mahiyyətli qondarma faktları tapır, toplayır, təqdim edir. Jurnalist “süni intellekt” proqramına qeyd-şərtsiz etimad göstərirsə, saxta xəbərin təsirinə düşür. Yoxlanılmamış, dəqiqləşdirilməmiş məlumatların paylanılmasında iştirak edir.

Tövsiyə edilir ki, peşəkar media etimadlı məzmun yaratmaq üçün “Süni intellekt”(AI) vasitələrindən istifadə edərkən, proqram tərəfindən təqdim edilmiş məzmunu təkrarən nəzərdən keçirməli, onun həqiqiliyini yoxlamalı, məsuliyyətli davranmalıdır. Həmçinin məzmun yaradarkən “Süni intellekt” alətlərindən istifadə etdiyini oxucuya çatdırmalı, ictimaiyyəti xəbərdar etməlidir.

“Süni intellekt” alətlərindən istifadə edilməsi yönündə diqqət çəkən ikinci məqam müəllif hüquqlarının pozulmasıdır. Proqram, adətən, jurnalistə təqdim etdiyi hazır mətndə faktların mənbəyini göstərmir, gerçək müəllifə istinad etmir. Beləliklə, müəllif hüquqlarının pozulmasına yol açır.

Təsnifatda əks olunan digər 8 istiqamətin hər biri eyni formada aktualdır, həll edilməsi zəruridir.

Yaranmış durum beynəlxalq jurnalist təşkilatlarının diqqətini çəkib. Problemin aradan qaldırılması yönündə fəaliyyətə başlayıb. 2023-cü il noyabrın 10-da “Süni intellekt və jurnalistika üzrə Beynəlxalq Xartiya” hazırlanaraq imzalanılıb.

Sənəd ilkin mərhələdə 17 beynəlxalq jurnalist təşkilatı tərəfindən imzalanıb.

Bu xartiya jurnalistlərin, redaksiyaların və media orqanlarının öz işlərində süni intellektdən istifadə qaydalarını müəyyən edir. Sənəddə qeyd olunur ki: "Texnoloji tərəqqi, rəqəmsal transformasiya, xüsusi olaraq süni intellekt alətlərindən istifadə amili jurnalistikanın, redaksiya işinin texniki, iqtisadi və sosial şərtlərini müsbət mənada dəyişir. Bununla yanaşı, yeni texnologiyalar, süni intellekt alətləri etimadlı informasiya əldə etmək baxımından problemlərə yol açır. Jurnalist yeni texnologiyalardan asılı duruma düşməməli, onlara öz vəzifəsini yerinə yetirmək üçün yardımçı vasitələr kimi yanaşmalıdır”.

10 maddədən ibarət olan xartiya “süni intellekt”in peşəkar media mühitinə təsirini detallı şəkildə əks etdirir. Problem və onun aradan qaldırılması üzrə aydın təsəvvür yaradır, onların aradan qaldırılması üçün istiqamət verir.

Sənədin preambula hissəsində milli jurnalist ittifaqlarına tövsiyə edilir ki, xartiyanı imzalayanların sırasına qatılsınlar. Yaxud, özləri bu xartiyanın milli versiyasını hazırlasınlar. Avropa Müstəqil Mətbuat Şuraları Aliyansı da xartiyanı təqdir edib. Onun prinsiplərinə istinadən, milli kodekslərin yaradılması da tövsiyə olunub.

Artıq bəzi ölkələrdə “Süni intellekt və media” üzrə Beynəlxalq Xartiyaya istinad edilərək, milli versiyalar hazırlanıb və qəbul edilib. Estoniya, Serbiya və digər ölkələr tərəfindən bu sahədə nümunə göstərilib.

Azərbaycan Mətbuat Şurasının icra etdiyi “Media landşaftı üzrə məlumat bazasının yaradılması” layihəsi çərçivəsində “Süni intellekt və media” üzrə Beynəlxalq Xartiyayanı da tərcümə edərək öz saytında yerləşdirib. Ehtimal etmək olar ki, növbəti mərhələdə bu məsələ daha dərindən işləniləcək, “Süni intellekt və media” üzrə beynəlxalq prinsiplər Azərbaycan Jurnalistlərinin Etik Davranış Kodeksinə əlavə olunacaq.

Teatr aləmində

# "Varlı ev"in bədbəxtləri

**Sumqayıt Dövlət Dram Teatrının repertuar siyasətində, bir qayda olaraq, müxtəlif kontingentdən olan tamaşaçıların zövqünə uyğun, çeşidli mövzulara toxunulan tamaşalar yer tutur. Yaradıcı kollektivin təqdim etdiyi növbəti səhnə əsəri – məşhur osetin dramaturqu Georgi Xuqayevin Mədəniyyət Nazirliyinin sifarişi ilə hazırlanan "Varlı ev" pyesi isə xoşbəxtliyin heç də var-dövlətdə olmadığını göstərən bir ailə faciəsi kimi hər kəs üçün nəzərdə tutulub.**



Yaşlı teatrsevərlərin yadında olar ki, 1970-ci ildə yeni yaradılmış Sumqayıt səhnəsində oynanılan ilk əsərlərdən biri də elə Georgi Xuqayevə aid olub. O tamaşa bu sətirlərin müəllifinin də baxdığı "Arvadımın əri" əsəri idi. "Varlı ev" isə ilk dəfə hələ 90-cı illərin əvvəllərində Ağalar İdrisoğlunun quruluşunda uğurla oynanılıb. Və bir qərinə sonra tam yeni formatda, yeni yaradıcı heyətlə günün tələblərinə uyğun "inşa" edilərək təqdim olundu.

Maraqlıdır ki, o zaman tamaşada yer almış aktyorlardan Məzahir Süleymanov, Sabir Qurbansoy, Rüstəm Rüstəmov, Firəngiz Babayeva və başqaları da premyeraya tamaşaçı qismində dəvətli idilər və həm yeni nəslin oyununa maraqla baxdılar, həm də 30 il əvvəllə bağlı kövrək, həzin xatirələrə daldılar. Bunu onlar tamaşadan sonra səhnəyə çağırılanda üzlərindən oxumaq çətin deyildi.

İki hissəli "Varlı ev"ə 2-ci həyat yazıçı-dramaturq, rejissor, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlunun rus dilindən tərcüməsində teatrın hazırkı baş rejissoru, Xalq artisti, Prezident mükafatçısı, "Qızıl Dərviş" mükafatı laureatı Firudin Məhərrəmovun quruluşunda bəxş olunub. Yeri gəlmişkən, bir vaxtlar Sumqayıt teatrına rəhbərlik etmiş Ağalar İdrisoğlu bu səhnədə neçə-neçə məşhur dünya dramaturqunun əsərləri ilə bərabər, elə Georgi Xuqayevin digər pyeslərinə də quruluş verib.

Qeyd edək ki, tamaşada ata, ana və övladları, quda, gəlin, mamaça obrazları üçün aktyor seçimini Firudin Məhərrəmov əsl zərgər zövqü ilə edib. Rolları Əməkdar artistlər Rauf Atakişiyev (Beçir), Xatirə Süleymanova (İrma), Sədaqət Nuriyeva (Mamaça), eləcə də aktyorlar Oqtay Mehdiyev (Sərmət), Məryəm Hüseynli (Saniyət), Habil Xanlarov (Nəbi) və Şəmistan Süleymanlı (Uari) ifa edirlər. Hər biri istedad yiyəsidir. Onların çıxışlarına baxdıqca Sumqayıt teatrının necə böyük imkan və potensiala malik olduğu bir daha aşkar görünür. Tamaşanın quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədova, musiqi tərtibatçısı Şəmistan Muradxanlıdır.



Georgi Xuqayevin bu əsəri onun öz vətənində də dəfələrlə səhnəyə qoyulub. Rusiya Federasiyasının Əməkdar artisti Tamerlan Sabanovun quruluşunda canlandırılıb və mövsümlər boyunca repertuarı bəzəyib. Hadisələr Birinci Dünya müharibəsi dövrünə aiddir. Əsər davanın fəsadlarını, habelə insan talelərinə zərbə vuran konservativ adətləri, bu adətlər üzündən dağılan varlı evlərin faciəsini özündə ehtiva edir. Xoşbəxtlik duyğusu insanların sərvəti üzərində deyil, sevginin, insan münasibətinin üzərində sabitdir, – ideyası tamaşaçıya, necə deyərlər, gözgörəti çatdırılır. Firudin Məhərrəmov Tamerlan Sabanovun tamaşasına baxıb-baxmayıb – bilmirəm, amma bildiyim budur ki, bir rejissor incəliyi ilə səhnə variantına yerli milli kolorit, dad-duz verməsi ilə də uğuru təmin edə bilib.

Baş qəhrəman Beçir yaşlı və imkanlı birisidir. Xeyli var-dövləti var. Səadəti elə böyük at ilxısının, mal-qaranın, möhtəşəm imarətin olmasında görür. Amma faciə göstərir ki, heç də belə deyilmuş. Ailənin kiçik oğlu Uari müharibədən qayıtmadığına görə, ili çıxandan sonra, dağlı adətinə görə, onun gənc arvadı Saniyyəti zorla ailənin digər oğluna – şikəst, amma təmizürəkli Sərmətə ərə verirlər. Onların övladı olur və bununla da sanki ailənin həyatı qaydasına düşür. Ancaq ölmüş hesab edilən Uari bir gün sağ-salamat qürbətdən geri qayıdır və ailədə vəziyyət dramatik olaraq gərginləşir, qəhrəmanların hər biri öz faciəsi ilə üzbəüz qalır.

Varlı evdə hamı bədbəxtdir. Tezliklə ev sahibinin uzun müddət hər kəsdən gizli saxladığı sirləri də açılır. Beçiri özünün sərvət hərisliyi ilə haqsızlıq və alçaqlıqlar törətdiyi keçmişi təqib edir. Məlum olur ki, onun arvadı İrma da götürmə uşaqları öz doğma balaları kimi camaatın beyninə sırıyan sonsuz bədbəxtdir. Mamaça isə uşaqlardan birinin – Sərmətin əsl anası imiş. Qardaşlar acı talelərinin əlində girinc qalırlar. Beləcə, ailə də, topdağıtmaz ev də uçulub dağılır. Hamı çıxıb gedəndən sonra bütün bunlara əsas baiskar olan sahibin yana-yana od vurduğu ev külə dönür...

Elə buradaca qeyd edək ki, son dövrlərdə paytaxt teatrlarında belə heç də tez-tez müşahidə edilməyən böyük anşlaqla keçən bu tamaşada rejissor işi, aktyor heyətinin çıxışları təqdirəlayiq olduğu üçün premyera boyu dönə-dönə seyrçilərin gurultulu alqışlarını qazandı. İlk baxışdan bəyənilən səhnə tərtibatı, mizanların dəqiqliyi, ideyanın ifadəsi üçün istifadə edilən bütün vasitələrin – musiqilərin, geyimlərin, işıq effektlərinin yerli-yerində, keçidlərin rəvan olması diqqət çəkirdi. Uzun pauzalar yox idi deyə, tamaşada dinamizmə yetərincə nail olunmuşdu. Seyrçilər anbaan hadisələrin gedişatını intizarla izləyir, replikaları, monoloqları, dialoqların sonluq həllərini həyəcanla gözləyirdilər. Bir sözlə, rejissor fikri və onun aktyor ifalarındakı təcəssümü bir bütövdə birləşərək, ümumi uğuru təmin etdi.

Müəyyən mənada eyforik olan təəssüratlarla bərabər, fikrimcə, tamaşada bəzi xırda çatışmazlıqlar da var. Məsələn, cıdır yarışından danışılanda bunun mərhumun şərəfinə təşkil edildiyi söylənir. Əslində isə mərhumun "şərəfinə" yox, "xatirəsinə" deyilməlidir. Bir də əvvəldən sonadək səhnədə kötük üstə görünən baltanın nə üçün qoyulduğu bilinmir, çünki ondan istifadə edilmir. Uarinin anasının kimliyi də tamaşaçı üçün qaranlıq qalır. Bu kəm-kəsirlər aradan qaldırılsa, tamaşanın tam ideal alındığını qətiyyətlə təsdiqləmək olar.

Son olaraq, 55 yaşlı Sumqayıt teatrının lap əvvəlindən fəal izləyicisi kimi deyim ki, "Varlı ev"ə bir daha məmnuniyyətlə gedib baxa və özüm üçün yeni mənalar əxz edə bilərəm.

*Əli NƏCƏFXANLI*
*XQ*

# Jurnalların yeni sayları

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) "Elm və həyat" elmi-populyar jurnalının 2024-cü ilə aid sonuncu sayında oxuculara bir sıra maraqlı, rəngarəng yazılar təqdim edilib.**




Bu sayda AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Heydər Əliyevin akademiklik seçkisi və akademiyanın dövlətçilik dərsləri", akademik İradə Hüseynova və biologiya üzrə fəlsəfə doktoru Nurməmməd Mustafayevin "Qədim insanların genləri: insanın təkamülü və formalaşmasının şahidləri", fəlsəfə elmləri doktoru İlham Məmmədzadə və fəlsəfə üzrə fəlsəfə doktoru Hüseyn İbrahimovun "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmrəylik çağırışı COP29-u məqsədyönlü fəaliyyətə istiqamətləndirdi", Altay Əliyev, Elgün Səmədov və Günel Məmmədovanın həmmüəllifliyi ilə "COP29-un ekosəhiyyə çağırışları: mədə xərçənginin müalicəsində "yaşıl" və dayanıqlı cərrahiyyə strategiyaları", Aynur Mahmudun "Məhəmməd Füzulinin əsərlərində meyvələrin təsviri", Arzu Hacıyevanın "Kəşfül-Qəraib: Abbasqulu ağa Bakıxanovun "heyrətamiz kitabı", Zaur Əliyevin "Türkmənçay müqaviləsi, Qacar dövləti ilə Rusiya İmperiyası arasında diplomatik münasibətlər. Billur çarpayı!", Şamil Nəcəfov və Musa Mursaquliyevin "Keşikçidağda elmi-arxeoloji qazıntılar və yay məktəbi – 4 layihəsi", Sadıx Nəbiyevin "Bakının ilk fotoları" sərlövhəli məqalələri yer alıb.

Bundan əlavə, oxucular Kəmalə Qüdrətovanın "Azərbaycan–Özbəkistan mədəni əlaqələri", Əzizağa Ələkbərlinin "Azərbaycan–Tacikistan ədəbi-mədəni əlaqələrinin inkişafı (XX əsrin 70-ci illəri)", Fidan Şahmalıyevanın "Azərbaycanın ictimai-mədəni həyatında tatar ziyalılarının rolu", Cəmil Quliyevin "Kitabi-Dədə Qorqud" eposunun azərbaycançılıq ideologiyasında yeri", Məmməd Sadıqov və Nigar Paşayevanın "Təbii-iqtisadi ehtiyatların əhali məskunlaşmasında rolu", Rəşid Fətəliyevin "Möhtəşəm təbiət abidəsi: Xızının rəngli dağları" sərlövhəli məqalələri, həmçinin "Meridian" və "Sağlamlıq" bölmələrində yer alan yazılarla tanış ola bilərlər.

***

**Ötən il 55 yaşı tamam olan "Qobustan" sənət toplusunun isə yeni ildə ilk sayında sənət gündəmi ilə bağlı maraqlı, rəngarəng yazılara zəngindir.**

Dərgidə yer alan "Baş redaktor təqdim edir" rubrikasında Pərvin Nurəliyeva ötən il ərzində "Qobustan"ın fəaliyyətində diqqət çəkən məqamlardan söz açıb: "2024-cü il dərgimiz üçün bir neçə hadisə ilə əlamətdar oldu. Həm Yazıçılar Birliyinin 90 illiyi, həm də "Qobustan"ın 55 yaşı işıq üzü görən özəl saylarımızla xüsusi qeyd edildi. Həmçinin Türk Ədəbiyyatı Vəqfi və "Türk ədəbiyyatı" dərgisi ilə qarşılıqlı əməkdaşlıq çərçivəsində nəşr edilmiş Türkiyə özəl sayımızın da çox simvolik mənası var.




Hələ sovet dövründən Türkiyə sevdası və ümumtürk mədəniyyətini bol-bol təbliğ etməsi başda Anar ustadımız olmaqla, dərgi əməkdaşları üçün ciddi manelər yaradırdı. İndi 55 yaşlı "Qobustan"ın Türkiyə özəl sayının işıq üzü görməsi və yubileyini Türkiyədə qeyd etməsi bizlərdən ötrü böyük sevincdir. Həmçinin bütün işlərin əsas obyektinin oxucu olduğunu da yaxşı dərk edirik. Bu mənada III Türk Dünyası Kitab və Ədəbiyyat Festivalında uğurla iştirakımız da yeni oxucular qazanmağımız, daimi oxucularla ünsiyyətimiz üçün fürsət oldu".

Yeni layihələr və özəl saylar planlaşdıran "Qobustan"ın ötən il iki kitab əlavəsi də işıq üzü görüb. Bunlar ünlü türk alimi Əhməd Kabaklının "Azərbaycan ədəbiyyatından seçmələr" toplusu və modernist şair Furkan Çalışqanın "Mezzo Morte" şeir kitabıdır.

Dərginin qış sayında isə oxucular Akademik Teymur Kərimlinin, professor Qəzənfər Paşayevin, tarixçi-alim Həsən Həsənovun, dərginin əməkdaşları Esmira Nəzərli, Narıngül Babayeva və başqalarının maraqlı araşdırma yazıları və məqalələri ilə tanış ola bilərlər.

*XQ*

# Aziz Sancar "Türk dünyası mədəniyyət elçisi" oldu

**TÜRKSOY-un rəsmi saytı xəbər verir ki, Nobel mükafatçısı, Türk alimi, Professor Dr. Aziz Sancara TÜRKSOY Daimi Şurasının Azərbaycanın Şuşa şəhərində keçirilmiş 40-cı iclasında qəbul etdiyi qərara əsasən "Türk Dünyası Mədəniyyət Elçisi" nişanı təqdim edilib.**

Mərasim ABŞ-ın Şimali Karolina ştatında yerləşən "Aziz&Gwen Sancar" Fondundakı Mədəniyyət Mərkəzində keçirilib. Fondun İdarə Heyətinin sədri İsmayıl Arslanın moderatorluğu ilə keçən tədbir TÜRKSOY-un tanıtım filmi ilə açılıb. Mərasimdə Türkiyənin ABŞ səfirliyinin müşaviri Melih Seyfəttin Güngör, Sancar ailəsinin dostları, müxtəlif yaş qruplarından uşaqlar və universitet tələbələrinin daxil olduğu təxminən 150 dəvətli iştirak edib.

TÜRKSOY-un baş katibi Sultan Rayev xüsusi hazırlanmış "Türk Dünyası Mədəniyyət Elçisi nişanı"nın TÜRKSOY Daimi Şurasının üzvü olan nazirlərin yekdilliklə qəbul etdiyi qərarla verildiyini bildirib. O, çıxışında Prof. Dr. Aziz Sancarın Türk Dünyasının qüruru və ilham mənbəyi olduğunu vurğulayaraq deyib ki, dünya şöhrətli alimin Türk mədəniyyətinin dəyərlərini əks etdirən təvazökarlığı və çalışqanlığı onu bəşəriyyət üçün nümunəvi bir sima edib. Sancarın kökünə bağlılığı və dünyanın ən prestijli platformalarında qazandığı uğurlar hər kəs üçün böyük motivasiya mənbəyidir.



Aziz Sancar ona təqdim olunan "Türk Dünyası Mədəniyyət Elçisi" nişanını həyatının ən önəmli mükafatı kimi xarakterizə edərək deyib: "Bu nişan mənim üçün bütün mükafatlardan daha qiymətlidir. Bu mənim xəyallarımdan biri idi. TÜRKSOY çox dəyərli bir qurumdur və bizi dünyada layiqincə təmsil edəcəyinə inanıram".

Sonda Sancara Türk Dünyasının zəngin mədəniyyətini əks etdirən hədiyyələr təqdim olunub. Bu sırada Qazaxıstandan çapan, Qırğızıstandan qalpaq, Azərbaycandan Qarabağ zəfərini simvolizə edən xarıbülbül nişanı və daha bir neçə simvolik əşyalar yer alıb.

*XQ*

# Hər kitab bir dünyadır

## "Macal"

**Türkiyənin məşhur "Ketebe" nəşriyyatında Xalq yazıçısı Anarın "Bir fırsat bulsam" ("Macal") adlı nəsr kitabı işıq üzü görüb.**

Topluda yazıçının "Macal", "Otel otağı", "Dantenin yubileyi" adlı irihəcmli əsərləri və son vaxtlarda bu povestlərin davamı kimi qələmə aldığı, qəhrəmanlarının sonrakı taleyindən bəhs edən "Kəbirlinskinin son etirafı" və "Balaca Fuadın son xahişi" hekayələri yer alıb.




Türk oxucularına yeni və daha orijinal tərcümədə təqdim olunan kitabdakı mətnləri türkiyəli yazıçı-tərcüməçi İmdat Avşar çevirib. Kitabın arxa qapağında nəşriyyatın oxuculara kiçik bir təqdimat yazısı yer alıb: "Yazıçı "böyük problemlər, kiçik sevinclər" vasitəsilə insanı və həyatı anlamaq üçün səyahətə çıxır və adi insanların qeyri-adi hekayələrini izləyib bəşəriyyətin ümumi problemlərini zərif şəkildə ifadə etməyə çalışır. Anar onların tənhalığı, var olmaq üçün axtarışlarını və məhv edilmiş dünyalarını təsvir edərkən bu qarmaqarışıq həyata bənzərsiz bir baxış təqdim edir. Azərbaycan cəmiyyətinin XX əsrdə yaşadığı böyük dəyişikliklərə ayna tutan yazıçı sovet və xüsusilə də Stalin dövründəki hadisələri mətnlərində əks etdirir. Anar Azərbaycan–Türkiyə münasibətlərinə həssaslıqla yanaşır, yaratdığı dərin tarixi arxa plana əlavə olaraq, mənəvi dəyərlərin itirilməsinə diqqət çəkir, insan ruhunun qaranlıq tərəflərinin xəritəsi yaradır".

## "Andorra sevməli və ölməli yerdir"




**Xalq yazıçısı Çingiz Abdullayevin də Türkiyədə yeni kitabı işıq üzü görüb. Bu, "Andorra sevməli və ölməli yerdir" romanıdır.**

Əsərdə 8 hərbçinin öldürülməsi cırtdan dövlət olan Andorra ərazisində baş verir. "Xəyalət tuneli" povestində hadisələr La-Manşın altında tuneldə gedən qatarda məhdudlaşdırılmışdır.

Dünyanın səkkiz ölkəsindən – Amerika, Rusiya, Fransa, Almaniya, Çin, İsrail, İran və İngiltərə kəşfiyyatının peşəkar agentləri çox mühüm bir tapşırıq əsasında balaca Andorraya yığışırlar. Əhalisinin sayı cəmi 36 min olan bu gözəl ölkənin sakit və dinc paytaxtındakı oteldə yaşayırlar. Amma Andorraya gəldikləri elə ikinci günün axşamı İngiltərə kəşfiyyatının təcrübəli agenti Mortimerin öz nömrəsində çox müəmmalı şəkildə zəhərləndiyi məlum olur. Ertəsi gün ikinci dəhşətli hadisə baş verir–Almaniya kəşfiyyatının agenti frau Şerner çarpayısında boğulmuş vəziyyətdə tapılır. Nə baş verir? Bu müəmmalı qətlləri kim törədir?

Oxucu bu sualların cavabını romanla tanışlıqdan sonra biləcək.

## Zəlimxanın "Seçmə şeirlər"i

**Anadan olmasının 75-ci ili qeyd olunan Xalq şairi Zəlimxan Yaqubun "Seçmə şeirlər" kitabının təqdimat mərasimi keçirilib.**



Topluda şairin müxtəlif tarixlərdə müxtəlif mövzularda qələmə aldığı şeirləri yer alıb. Bu nümunələr xalq ruhunun daşıyıcısı olmaqla yanaşı, həm də dövrümüzün poetik palitrasıdır. Çağlar bulaq təsiri bağışlayan Zəlimxan poeziyası həm geniş oxucu kütləsinin sevgisini qazanıb, həm də peşəkarlar tərəfindən yüksək qiymətləndirilib. Bu səbəbdən sərhədlərimizi aşaraq təkcə türk və müsəlman coğrafiyasında deyil, dünyanın bir çox ölkələrində əks-səda doğurub.

Kitabın buraxıldığı "Qanun" nəşriyyatında təşkil olunan mərasimdə şairin qələm dostları, tanınmış ziyalılar və media nümayəndələri iştirak edirlər. Milli Məclisin deputatları Elnarə Akimova, Ceyhun Məmmədov, "Ədəbiyyat" qəzetinin baş redaktoru Azər Turan, Azərbaycan Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli, yazıçı Şərif Ağayar və başqaları çıxış edərək, onun klassik şeirə bağlılığı, poeziyasının üstün keyfiyyətləri haqqında danışıb, şairlə bağlı xatirələrini bölüşüblər.

Əməkdar mədəniyyət işçisi, aşıq Ədalət Dəlidağlı, qiraət ustası, Əməkdar artist Ağalar Bayramov, aktrisa Ayan Kamran şairin şerlərindən nümunələr səsləndiriblər.

*Ə.DOSTƏLİ*
*XQ*

Həmkarlarımızın yubileyləri

# Yazmaq həvəsiniz tükənməsin!







**Bir neçə ay əvvəl 105 yaşı tamam olan qəzetimizin redaksiyasında çoxsaylı tanınmış jurnalistlər, ünlü qələm sahibləri çalışıblar. Onların bir çoxu indi də qələmi yerə qoymadan günün aktual məsələləri, ictimai-siyasi, sosial-mədəni mövzularda örnək yazıları ilə gənclərə yol göstərirlər.**

Belə qələm sahiblərindən biri də 80 yaşlı Əməkdar jurnalist Oqtay Bayramovdur.

Təqaüddə olsa da, doğma qəzetlə əlaqəni üzməyən, əsasən, ölkəmizin idman tarixindən, bu sahədə qazanılan nailiyyətlərdən maraqlı yazıları ilə oxucuları sevindirən Oqtay Bayramovun və redaksiyamızın ictimai-siyasi şöbəsinin 60 yaşlı müdiri İmran Bədirxanovun yubileylərinə həsr olunan toplantıda hər ikisinin Azərbaycan mətbuatının inkişafında rolu, peşəkar jurnalist keyfiyyətləri ətraflı sərf-nəzər edildi.

Qəzetin baş redaktoru Əflatun Amaşov, Azərbaycan Mətbuat Şurasının sədri, AYB sədrinin müavini Rəşad Məcid çıxışlarında hər iki yubilyarın fərqli yaradıcılıq maneraları, mövzulara özəl yanaşma tərzləri barədə fikirlərini bölüşdülər.

Qeyd olundu ki, Oqtay müəllim 1968-ci ildə Azərbaycan Pedaqoji Xarici dillər İnstitutunun ispan dili şöbəsini bitirib. Bir müddət tərcüməçi işləyib. Sonra Bakıda çıxan populyar "İdman" ("Sport") qəzetində müxtəlif vəzifələrdə çalışıb: redaktor müavini və 1-ci müavin olub. Yuqoslaviya, Çexoslovakiya, Macarıstan və Meksikada basketbol, həndbol, futbol üzrə Avropa və dünya çempionatlarından, Hollandiyada gənclərin Avropa Olimpiya Həftəsindən maraqlı və operativ reportajlar hazırlayab. 1995-ci ilin noyabr ayından təqaüdə çıxana qədər "Xalq qəzeti"ndə çalışıb. Azərbaycan idmanının təbliğində və inkişafında xidmətlərinə görə Əməkdar jurnalist, fəxri bədən tərbiyəsi və idman işçisi adlarına layiq görülüb. Həsən bəy Zərdabi mükafatçısıdır.

İstedadlı publisist, ssenarist, tərcüməçi İmran Bədirxanlı isə 1991-ci ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Artıq 33 ildir peşəkar jurnalistika ilə məşğuldur. Doxsanıncı illərin əvvəllərində respublikada cərəyan edən hadisələrlə bağlı "Həqiqət ardınca" silsilə məqalələrin müəllifi kimi çalışdığı "Səhər" qəzetinin "Xüsusi mükafat"ına layiq görülüb. Sonra radio və televiziyalarda redaktor və aparıcı kimi aktual məsələlərin işıqlandırılmasında fəallığı ilə seçilib. İmran Bədirxanlı professional karyerası boyu istər sıravi müxbir, istər aparıcı, istərsə də redaktor kimi daim obyektiv və vicdanlı xəbər siyasətinə, bu peşənin qaydalarına, əxlaq prinsiplərinə ciddi riayət edən jurnalistlərdəndir. Hələ 20 il əvvəl keçirilmiş "Media açarı" müsabiqəsində "Ən yaxşı reportaj" nominasiyası üzrə qalib gəlib. O, İctimai Televiziyanın kinodublyaj departamentinin böyük redaktoru kimi də məhsuldar fəaliyyər göstərib. Artıq 3 ildir ki, "Xalq qəzeti"nin ən məsuliyyətli sahəsi olan siyasət şöbəsinə rəhbərlik edir.

Mərasimdə ürək sözlərini söyləyən həmkarları Oqtay Bayramovun və İmran Bədirxanlının insan və peşəkar jurnalist kimi məziyyətlərindən söz açdılar, hər ikisinə ən xoş arzularını çatdırdılar. Sonda yubilyarlara Azərbaycan Mətbuat Şurasının diplomları təqdim olundu.

***Ə.ƏLİYEV,***
***E.AĞALAR (foto)***
***XQ***

# BTA-nın TÜBA ilə əməkdaşlıq perspektivləri

**Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevlə Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Müzəffər Şəkər arasında görüş keçirilib.**



Görüşdə Türk Dünyası Milli Elmlər Akademiyaları Birliyinin (TDUBAB) Prezidentlər Şurasının əvvəlki iclasında qəbul edilmiş qərarların icra vəziyyəti müzakirə olunub. TDUBAB-ın 7-ci iclasında imzalanmış Protokolda yer alan "Əməkdaşlıq Təklifləri" və "Türkdilli Dövlətlər arasında Elmi Tədqiqatlar üzrə Əməkdaşlıq Strategiya Proqramı"na xüsusi diqqət yetirilib.

Bundan əlavə, Beynəlxalq Türk Akademiyası və TÜBA-nın birgə səyləri ilə ənənə halını alan Yay Məktəbləri də gündəmdə olub.

Görüşün sonunda iki akademiya arasında davamlı səmərəli əməkdaşlığın və qarşılıqlı bilik mübadiləsinin rəmzi olaraq kitab mübadiləsi aparılıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun əməkdaşları üçün tibbi müayinənin keçirilməsi və gəmi təmiri zavodlarında həkim məntəqəsinin təşkili xidmətlərinin satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il fevralın 3-ü saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1263.

Ünvan– Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə akkumlyatorların satın alınması məqsədilə*

## MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2025-ci il yanvarın 31-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili: 1263.

Ünvan– Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# ÜMUMİ SATINALMA BİLDİRİŞİ

**AZƏRBAYCAN**

**"Qız Qalası Su Anbarından Magistral Suvarma kanalının tikintisi Layihəsi"**

**ÜMUMİ SATINALMA BİLDİRİŞİ**

**Maliyyələşdirmə növü: Hissəli Satış və İslam İnkişaf Bankı Qrantı**
**Maliyyələşdirmə №: AZE 1024**

İslam İnkişaf Bankı, bununla "Qız qalası su anbarından magistral suvarma kanalının tikintisi" layihəsinin maliyyə xərclərinin bir hissəsini ödəmək üçün 96,48 milyon ABŞ dolları məbləğində Hissəli Satış maliyyələşdirməsini təmin edir.

Layihəyə aşağıdakı komponentlər daxil olacaqdır:

**Komponent-1**. İqlimə Dayanıqlı və Smart Su İdarəetmə İnfrastrukturunun İnkişafı və Kənd Təsərrüfatı Məhsuldarlığının Artırılması (101.62 milyon ABŞ dolları). Bu, Araz çayı üzərindəki Qız Qalası su anbarı sahəsindən 52 km uzunluğunda və 50 $m^3$/san su ötürmə qabiliyyətinə malik magistral kanalın tikintisi, Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilmiş torpaqlarında Araz boyu yerləşən və Mil-Muğan zonasında etibarlı suvarma xidmətləri göstərəcək 252 km uzunluğunda suvarma boru kəmərləri şəbəkəsinin çəkilməsi ilə iqlimə davamlı və smart su ehtiyatlarının idarə olunması sistemini inkişaf etdirəcəkdir. Bu komponent iqlimə davamlı və smart su idarəetmə sistemlərini inkişaf etdirmək, səmərəliliyi artırmaq , layihə ərazisinin davamlı kənd təsərrüfatı artımını dəstəkləmək üçün kanal infrastrukturunun mühafizəsi tədbirlərini və qabaqcıl suvarma üsullarını (məsələn, Pivot Sprinklerlər, damcı suvarma sistemləri və s.) təmin etmək məqsədini daşıyır. Həmin komponent, həmçinin iqlim dəyişkənliyinə qarşı səmərəli dayanıqlılıq üçün real vaxt rejimində məlumatların idarə edilməsini və texniki xidməti təmin etmək məqsədilə "SCADA" sistemi də daxil olmaqla smart monitorinq və nəzarət sistemlərinin inkişafını dəstəkləyəməyi özündə ehtiva edəcəkdir. Komponent həmçinin qlobal davamlılıq tendensiyalarına uyğunlaşaraq özəl sektora investisiya yatırmağa imkan verir və məhsullara əlavə dəyər qatır, davamlı və səmərəli kənd təsərrüfatı təcrübələri vasitəsilə əhəmiyyətli gəlirlər vəd edir, eyni zamanda Aqroparklar üçün yuxarı və aşağı axın mexanizmlərini formalaşdırır.

**Komponent-2** . Layihəyə Mühəndis Nəzarəti və Tikintiyə Nəzarət üzrə Məsləhətçi Xidmətləri (4,02 milyon ABŞ dolları): Bu komponent layihənin detallı layihələndirilməsinin nəzərdən keçirilməsinə, podratçıların seçilməsi üçün tender sənədlərinin hazırlanmasına, seçim prosesində İcraçı Agentliyə (EA) kömək göstərilməsi və layihənin icrası işlərinə nəzarət üçün dəstək verəcəkdir.

**Komponent-3.** Layihə İdarəetmə Qrupuna dəstək (1,48 milyon ABŞ dolları): Bu komponent aşağıdakılar baxımından Layihənin İdarəedilməsinə (LİQ) dəstəyi təmin edəcək: (i) əlavə texniki işçilərin işə götürülməsi (Satınalma, Ətraf Mühitin Mühafizəsi, Layihənin Maliyyə İdarəçiliyi, Monitorinq və Qiymətləndirmə Mütəxəssisləri) və müvafiq cari xərclərlə birlikdə aylıq müavinətlərin ödənilməsi.

**Komponent-4.** Potensialın Gücləndirilməsi (1,4 milyon ABŞ dolları): Bu komponent aşağıda sadalananların institusional və dolanışıq potensialının inkişafından ibarət olacaqdır:

Təkmilləşdirilmiş və səmərəli su idarəetmə sistemi (hidrometeorologiya, erkən xəbərdarlıq sisteminin imkanlarının artırılması, istismar , texniki qulluq və s.) ilə bağlı İcraçı Agentlik (EA) heyətinin və müvafiq tərəfdaşlarının (Meliorasiya, Hidrometeorologiya Qurumları və Kənd Təsərrüfatı Nazirliyi) institusional potensialı. Bu, Meliorasiya və Hidrometeorologiya orqanlarının texniki və istismar imkanlarının artırılmasından və onların fəaliyyətinin Kənd Təsərrüfatı Nazirliyi ilə inteqrasiyasından ibarət olacaqdır. Təşəbbüs Cəbrayıl və Füzuli rayonlarının işğaldan azad edilmiş ərazilərində aqroparklar və icmalar tərəfindən su ehtiyatlarının idarə edilməsi təcrübələrini təkmilləşdirmək və kənd təsərrüfatı məhsuldarlığını artırmaq, əlavə dəyər qatmaq və iqlimə davamlılığı artırmaq üçün agentliklər arasında real vaxt rejimində Rəqəmsal Platformanın yaradılması məqsədini daşıyır. Platforma Yer Kürəsinin Müşahidəsi (YM) texnologiyalarından və layihə ərazisi məlumatlarından istifadə edilməklə qurulacaq , platformanın davamlılığını artırmaq və digər sahələrə şaxələnməsi üçün nominal ödənişlə yekunda benefisiarlar üçün genişləndirmə xidmətləri yaradılacaqdır.

Layihənin benefisiarlarının azad edilmiş ərazilərdə yaşayış imkanlarının inkişafı, icmalara və yerli fermerlərə lazımi bacarıq, resurslar , davamlı kənd təsərrüfatı təcrübələri , əsasən gənclər və qadınların alternativ gəlir gətirən fəaliyyətlərlə məşğul olmaları üçün dəstək verməklə azad edilmiş ərazilərdə icmaların həyat şəraitinin artırılmasından ibarətdir. Məqsədli təlim proqramları və uzunmüddətli biznes planlarının hazırlanmasına dəstəklə əhatəli potensialın inkişafı planı yerli icmalara təqdim olunacaq, kənd təsərrüfatından kənar dolanışıq fəaliyyətləri ilə məşğul olanlara və fermerlərə müasir kənd təsərrüfatı texnikaları, məhsullara əlavə dəyər qatılacaq, səmərəli suvarma təcrübələri və davamlı əkinçilik üsulları təlqin ediləcəkdir.

**Komponent-5** .Layihənin Auditi (0,1 milyon ABŞ dolları): Bu komponent layihənin Xüsusi Hesabının illik auditini dəstəkləyəcəkdir.

**Komponent-6**. Fövqəladə Hallarda Çevik Reaksiya Verilməsi komponenti: Bu, müstəqil, sıfır-dəyərli komponent layihəyə dəstək olaraq, cari Layihə resurslarından istifadə etməklə fəlakətlər, pandemiyalar və s. kimi çox gözlənilməz hadisələr zamanı fövqəladə hallara cavab tədbirlərini əhatə etmək və gələcəkdə Hökumətin fövqəladə hallara çevik reaksiyasına dəstək olmaq məqsədilə Layihəyə daxil edilmişdir. Bu, İslam İnkişaf Bankı ilə əvvəlcədən məsləhətləşmələr apardıqdan sonra Layihə vəsaitlərinin yenidən bölüşdürülməsi yolu ilə həyata keçirilə bilər.

İslam İnkişaf Bankı tərəfindən maliyyələşdirilən müqavilələrin satın alınması İslam İnkişaf Bankı Layihəsinin Maliyyələşdirilməsi çərçivəsində malların, işlərin və əlaqəli xidmətlərin satın alınmasına dair təlimatlarda (2019-cu ilin aprel nəşri, 2023-cü ilin fevralında yenilənmiş) müəyyən edilmiş prosedurlarla həyata keçiriləcək və təlimatlarda müəyyən olunduğu kimi bütün uyğun tender iştirakçıları üçün açıq elan ediləcəkdir. Məsləhətçi xidmətləri İslam **İnkişaf Bankı Layihəsinin Maliyyələşdirilməsi çərçivəsində Məsləhətçi Xidmətlərin Satınalınması üzrə Təlimatlara** (2019-cu ilin aprel nəşri, 2023-cü ilin fevralında yenilənmiş) uyğun olaraq seçiləcəkdir.

İslam İnkişaf Bankının Beynəlxalq Rəqabətli Tender – **İslam İnkişaf Bankının** üzv ölkələri (ICB/MC) prosedurları çərçivəsində təklif ediləcək müqavilələr və məsləhət xidmətləri üçün müqavilələrin (QCBS-MC və LCS metodları) xüsusi satınalma bildirişləri əlçatan olduqdan sonra İslam İnkişaf Bankının internet səhifəsində və layihənin saytında elan ediləcəkdir: info@adsea.gov.az

Yuxarıda qeyd olunan layihə üçün malların, işlərin və məsləhət xidmətlərinin göstərilməsi ilə bağlı nəzərə alınan və ya əlavə məlumat tələb edən müvafiq şirkətlər və ya şəxslər aşağıdakı ünvanda Benefisiarla əlaqə saxlaya bilərlər:

"Qız Qalası Su Anbarından Magistral Suvarma kanalının tikintisi Layihəsi"

**Fuad Abışev (Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, "Tikilməkdə olan Obyektlərin Müdiriyyəti" PHŞ, idarə heyətinin sədr müavini)**

**Moskva prospekti 67, Bakı, Azərbaycan, AZ1012 .**

**Telefon- +994 50 2229397**
**Faks: +994 12 4935165**
**E-poçt: fuad.abishev@azersu.az**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 14 (30708) 23 yanvar 2025-ci il, cümə axşamı

## Formula 1-ə bilet satışı başlayıb

**Bakıda keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisi üçün bilet satışına start verilib.**




Bakı Şəhər Halqasından verilən məlumata görə, azarkeşlər mövsümün ən həyəcanlı şəhər yarışına biletləri www.azerbaijangp.com rəsmi veb-səhifəsindən əldə edə bilərlər. Həmçinin "Baku City Circuit" mobil tətbiqi üzərindən 20 faiz güzəştlə bilet almaq mümkündür. Bu fürsət yalnız fevralın 5-dək davam edəcək.

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti azarkeşlərə 4 günlük biletlər təqdim edir. Hər il olduğu kimi, 3 günlük tribuna biletləri ilə yanaşı, bilet sahibləri Pit zolağı gəzintisi imkanı əldə edərək, sevimli F1 komandalarını, pilotları və onların qarajlarını yaxından izləmək təcrübəsi qazanırlar. Qeyd edək ki, ötən il Pit zolağı gəzintisində iştirakçı sayı rekord sayda olub. Yarış həftəsi ərzində keçiriləcək əyləncə proqramları ilə bağlı məlumatlar mütəmadi olaraq azarkeşlərə təqdim olunacaq.

Qeyd edək ki, Bakının 9-cu dəfə evsahibliyi edəcəyi sürət yarışı sentyabrın 19-21-də reallaşacaq. Bu, mövsümün 17-ci Qran-Prisi olacaq..

## Medallar Parisə geri qaytarılacaq



**Paris-2024 Yay Olimpiya Oyunlarında mükafat qazanan 7 idmançımızdan beşinin medalı keyfiyyətsiz olduğu üçün Oyunların Təşkilat Komitəsinə geri qaytarılacaq.**

Milli Olimpiya Komitəsinin mətbuat katibi Murad Fərzəliyev məsələ ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinə müraciət olunacağını bildirib. O, Paris-2024-ün Olimpiya çempionu Hidayət Heydərov və sərbəst güləş üzrə bürünc medalçımız Maqomedxan Maqomedovdan başqa, digər 5 idmançının da medallarının geri qaytarılacağını deyib.

Bildirilib ki, cüdo üzrə Olimpiya çempionumuz Zelim Kotsoyevlə yanaşı, olimpiadanın gümüş medalçıları taekvondoçu Qaşim Maqomedov, boksçu Alfonso Dominqes və bürünc medalçılar – yunan-Roma güləşçisi Həsrət Cəfərov, sərbəst güləşçi Giorgi Meşvildişvilinin medalları keyfiyyətini itirib. Məsələ ilə bağlı prosesə başlanıldığını deyən Murad Fərzəliyev hər bir idmançının yeni medalla təmin olunması üçün çalışacaqlarını qeyd edib.

Qeyd edək ki, Azərbaycan Olimpiya komandası "Paris-2024" Olimpiya Oyunlarını 2 qızıl, 2 gümüş və 3 bürünc medalla başa vurub.

Xatırladaq ki, Fransanın paytaxtı Parisdə keçirilən XXXIII Yay Olimpiya və Paralimpiya Oyunlarında mükafat qazanan 100-dən artıq idmançının medalları keyfiyyət səbəbindən geri qaytarılıb. Çoxsaylı şikayətlərdən sonra "Paris-2024"ün Təşkilat Komitəsi zədə və ya keyfiyyətsizliyə görə şikayət edən bütün idmançıların medallarını dəyişdirəcəyini vəd edib.

*LQ URBANOVA*
*XQ*

**Avroliqa: 7-ci raund**

# "Köhlən atlar"ın son şansı...

**Tam əminliklə deyə bilərik ki, "Qarabağ" Azərbaycan FCSB və ya, sadəcə, "Styaua" kimi tanıdığımız adlı-sanlı Rumıniya klubu ilə UEFA Avropa Liqası turnirinin əsas mərhələsinin 7-ci tur görüşündə son dəqiqəyədək bir an belə dayanmadan döyüşəcək, bütün qüvvə və bacarığını hər qarışına yaxşı bələd olduğu stadionun yaşıl meydanında qoyacaq.**




Liqanın pley-off mərhələsində oynamaq ümidini tam itirməmək üçün bu axşam oyundan 3 xalla ayrılmaq günün tələbidir. Başqa çıxış yolu görünmür. Yalnız buxarestli rəqib üzərində qələbə təqdirində yanvarın 31-nə keçən gecə Yunanıstanda "Olimpiakos" ilə sonuncu raund görüşünə marağımız qat-qat artar.

Rumıniya paytaxtı futbolçuları şəhərimizə yaxşı göstəricilərlə gəlmişlər. Onlar 6 görüşdə yalnız 1 dəfə uduzub, 3 qələbə və 2 heç-heçə sayəsində qazandıqları 11 xalla növbəti mərhələ məsələsini artıq həll etmişlər. Hazırda turnir cədvəlində 10-cu mövqedə olan FCSB-in əsas mərhələnin yekunlarına görə ən yaxşı 16 klub sırasında birbaşa səkkizdəbir finala vəsiqə qazanmaq imkanlarının da yüksək olduğunu nəzərə alsaq, həqiqətən, bu komanda çox iddialı kollektivdir.

Deməli, Azərbaycan klub futbolunun şəriksiz liderini öz meydanında, doğma azarkeşlər qarşısında da oynamasına baxmayaraq, ağır matç gözləyir. Bu sınaqdan şərəflə çıxmaq, arzuladığımız qələbəyə ürəkdən sevinmək üçün istisnasız olaraq hamı, bütün kollektiv, sözün əsl mənasında, meydanda can qoymalıdır. Yaxından-uzaqdan hər bir azarkeş isə, həmişəki kimi, komandanı ürəkdən dəstəkləməli, yüksək fəallığı ilə onun gücünə güc qatmalıdır.

Ötən ilin dekabrında Azərbaycan milli çempionatının birinci yarısından sonra fasiləyə ölkənin qış çempionu kimi çıxan, üstəlik də, 18 turun yekununda turnir cədvəlində ən yaxın izləyicisi "Araz-Naxçıvan"la öz arasında 8 xallıq fərq yaradan Ağdam komandası, güman etmək olar ki, qarşıdakı oyuna böyük həvəslə, yüksək fəallıq şəraitində hazırlaşıb. Kollektivin əsas zərbə qüvvəsi Olavio Juninyonun vətəni Braziliyanın sayılıb-seçilən klublarından biri, 58 il əvvəl—1967-ci ildə Bakıda yoldaşlıq görüşündə "Neftçi"yə 1:0 hesabı ilə qalib gəlmiş "Flamenqo"ya keçməsi də bu gün dünyanın ən güclü məşqçilərinin reytinq cədvəlində 158-ci mövqedə olan Qurban Qurbanovun futbolçularına maraq və diqqətin artdığının təzahürüdür. Zarafat deyil, "Qarabağ" beşqat dünya çempionu olan ölkəyə oyunçu vermişdir. Juninyoya 23 nömrəli köynəkdə çıxış edəcəyi "Flamenqo"da azarkeşləri sürətli hücumlar və məhsuldar oyunla sevindirməyi arzulayaq.

Təmsilçimizin buxarestli qonaqlarla görüşü Misli Premyer Liqasında yarışın ikinci yarısının startı ilə, demək olar, eyni vaxta təsadüf etmişdir. Altı gün əvvəl 19-cu turun ilk oyununda "Şamaxı"ya qalib gələn (3:2) ölkənin dəyişməz çempionu növbəti dəfə onu qızıl medallara aparan yolda daha bir addım atmışdır.

Əgər Ağdam komandası bu gün saat 21:45-də starta çıxacaq oyunda pərəstişkarlarından qələbə ilə ayrılmağı bacarsa, növbəti həftə ərzində onun pley-off perspektivləri haqqında söhbətlər səngiməyəcək. Yeni ilin start ayının finişində rəqib meydanında "Olimpiakos"la oyun yunanlar üçün də son dərəcə mühüm əhəmiyyət kəsb edəcək. Hələlik 9 xalla turnir cədvəlində özünü kifayət qədər inamlı hiss edən "Olimpiakos" çətinliklə qazandığı indiki mövqeyi (15-ci yer) daha da möhkəmləndirmək əzmindədir. Hətta onun yekun cədvəlində finişə ən güclü 16 komanda sırasında çatmaq imkanları da var.

Saatlarımıza baxaq. Oyunun başlanma vaxtı getdikcə yaxınlaşır. Tezliklə anadan olmasının 100-cü ili tamam olacaq unudulmaz Tofiq Bəhramovun adını daşıyan stadionda azarkeşlər "Qarabağ" tarixində Avropa səviyyəli çox vacib daha bir oyunun həyəcanını yaşayacaqlar. Kaş bu narahat gözlənti hakimin final işarəsindən sonra qələbə sevinci, alqış sədaları ilə əvəz olunsun…

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

**Unutsaq, unudularıq**

# Yusif Ziya Talıbzadə – türkçülük fədaisi

**Abdulla Şaiqin Mənzil-Muzeyində bu ünlü ocağın rəhbərliyi və Azərbaycan Türk Ocağının birgə təşkilatçılığı ilə "Yusif Ziya Talıbzadə – 148, türkçülüyün unudulmayan şəxsiyyəti" adlı toplantı keçirildi.**



Aparıcı Günel Əsədova qonaqları salamlayaraq, mərasimin XX əsrin əvvəllərində həyatını türkçülük idealları uğrunda mücadiləyə həsr etmiş Yusif Ziya Talıbzadənin (görkəmli şair, dramaturq və pedaqoq Abdulla Şaiqin böyük qardaşıdır-müəllif) 148-ci ildönümünə həsr edildiyini vurğuladı.

Abdulla Şaiqin Mənzil-Muzeyinin direktoru Ülkər Talıbzadə qeyd etdi ki, Yusif Ziyanın adı sovet dövründə uzun onillər boyu qadağan olunmuş adlar siyahısında idi. Bu səbəbdən də Abdulla Şaiq və oğlu, ədəbiyyatşünas alim, akademik Kamal Talıbzadə keçən əsrin əvvəllərində dəfələrlə Dövlət Təhlükəsizliyi Komitəsinə çağırılmış və sorğu-sual edilmişdilər. O, Kamal Talıbzadənin əmisi ilə bağlı apardığı araşdırmalarından və bu sahədəki əzmkarlığından söz açdı. Kamal Talıbzadə ulu öndər Heydər Əliyevlə telefon danışığında Yusif Ziyanın adının ictimaiyyətə tanıdılmasına köməklik göstərilməsini xahiş etmişdi. Nəticədə, Ümummilli liderin tapşırığı ilə Yusif Ziya bəraət aldı və xidmətləri ictimaiyyətə tanıdıldı.

Tarix üzrə fəlsəfə doktoru Akif Aşırlı Türk Ocaqlarının fəaliyyəti barədə danışdı və vurğuladı ki, Yusif Ziya Talıbzadə bu ocaqların əsas qurucularından biri olub. Muzeyin böyük elmi işçisi Elminaz Məmmədli "Yusif Ziya Talıbzadə xatirələrdə" mövzusunda məruzə ilə çıxış edərək professor Zəki Validi Toğanın xatirələrində Yusif Ziyaya geniş yer verildiyini bildirdi. Professor Minaxanım Əsədova Yusif Ziyanın mətbuatdakı fəaliyyətindən söz açaraq qeyd etdi ki, o, "Həyat", "İrşad", "İqbal" və "Yeni Füyuzat" kimi nəşrlərdə o dövrün ictimai və siyasi həyatının aktual mövzularına dair məqalələr dərc etdirirdi.

Tarix elmləri doktoru, professor Solmaz Tohidi, DİA-nın tarix kafedrasının müdiri, tarix elmləri doktoru Firdovsiyyə Əhmədova, Milli Azərbaycan Tarixi Muzeyinin elmi işlər üzrə direktor müavini, tarix elmləri doktoru Fərhad Cabbarov Yusif Ziyanın çoxşaxəli ictimai və siyasi fəaliyyətinin təbliği, zəngin irsinin xalqımıza tanıdılması, qorunması kimi mühüm məsələlər ətrafında fikirlərini bölüşdülər.

Sonda muzeyin əməkdaşı Fəridə Məmmədova Abdulla Şaiqin 1918-ci ildə qəhrəman türk ordusunun Azərbaycana gəlişinə həsr etdiyi "Neçin böylə gecikdin" adlı şeirini səsləndirdi.

*MH ACIXANLI*
*XQ*

## Turistlərin sayı artıb

**Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruq və muzeyləri 2024-cü ildə ziyarət edənlərin sayında 35 faiz artım olub.**



Qeyd olunan qoruq və muzeyləri ötən il ziyarət edənlərin sayı artaraq 663 min 459 nəfər təşkil edib ki, bunun da 460 min 331 nəfəri xarici vətəndaşlar olub. Əvvəlki illərdən fərqli olaraq, keçən il ziyarətçilərin 70 faizini əcnəbilər təşkil edib və bununla da 2023-cü illə müqayisədə xarici turistlərin sayında 48 faiz artım müşahidə olunub.

Ümumilikdə, 2024-cü ildə bilet satışından əldə olunan 5 milyon 786 min 259 manat vəsaitin 866 min 205 manatı dövlət büdcəsinə ödənilib. Bununla da 2023-cü ilə nisbətən əldə edilən gəlirlərin məbləğində 72 faiz artım qeydə alınıb.

*Qəzənfər QASIMOV*
*XQ*

**Hava**

## Abşeronda yağmursuz, bölgələrdə yağış, qar və duman...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, yanvarın 23-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və səhər bəzi yerlərdə arabir yağıntılı olacağı ehtimalı var. Cənub-şərq küləyi əsəcək, gündüz arabir güclənəcək. Gecə 6-9°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 774 mm civə sütunundan 769 mm civə sütununa enəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısa müddətə intensivləşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək.

Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək, bəzi şərq rayonlarında arabir güclənəcək. Havanın temperaturu gecə 0-4° , gündüz 7-11° isti, dağlarda gecə 5-10° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

*Q.Q ASIMOV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri Məhərrəm Əliyev və qardaşı, Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Adil Əliyev Aqiyə Naxçıvanlıya qardaşı

**MAHİR NAXÇIVANSKİNİN**

vəfatından kədərləndiklərini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2944
SİFARİŞ 140
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00